Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 291 (8018) ÇƏRŞƏNBƏ AXŞAMI, 25 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# XXI əsrin lideri

**Pol Anri Holbax yazırdı: "Hakimiyyət… o, həmişə böyük nemət deyildir. Hakimiyyət o zaman böyük nemət olar ki, ona çatmış insana həm təbiət, həm də aldığı tərbiyə, alicənablıq, qüdrətli ruh, geniş ürək, dövləti ağıl və böyük təcrübə verir".**

İnsanlarla tarixin münasibəti çox mürəkkəbdir. Xüsusilə böyük insanlarla. Bəzən onların təsiri əsrlərlə qalır, bəzən isə əksinə, onlardan sonra millətin həyatında əsrlərlə böyük rol oynamağa başlayır. Böyük Heydər Əliyev belə şəxsiyyət idi. O, XXI əsrdə cəmi üç il yaşadı. Lakin bütün ömrünü xalqının yeni əsrdəki firavan həyatına həsr etdi. Və XXI əsrimizi əmin-aman, sabit dünyamızı qürurlu, həyatımızı təmin edən, qurub-yaradan, dünyanın yönünü Azərbaycana çevirən mötəbər, möhtəşəm bir Lider qoyub getdi!

Sirr deyil ki, tarixi-siyasi şəraitdən, zamandan asılı olmayaraq, lider amili dövlətin formalaşmasında və inkişafında müstəsna rol oynayır. Bu da bir həqiqətdir ki, bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğu, davamlı inkişafı da məhz bu amillə - xalqımızın ümummilli lideri Heydər Əliyevin fenomenal şəxsiyyəti ilə bağlıdır.

*Ardı 9-cu səh.*

# İlham Əliyev Türkiyədə «İlin dövlət başçısı» seçilib

Prezident İlham Əliyev Türkiyədə səmimi, işgüzar, uğurlu və Türkiyə dövlətinin dostu meyarlarına görə "İlin dövlət başçısı" seçilib.



Bu barədə Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının (TADEF) sədri Bilal Dündar məlumat verib.

O bildirib ki, sözügedən seçim Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasına bağlı olan 16 bölgədə 145 vətəndaş cəmiyyəti təşkilatı tərəfindən aparılıb.

Bilal Dündar deyib ki, "İlin dövlət başçısı" mükafatı Prezident İlham Əliyevə 2019-cu ilin yanvar ayında təqdim olunacaq.



# PREZİDENT HƏDİYYƏSİ



## İlham Əliyev ad gününü öz ailəsi ilə – yenə də məcburi köçkünlərlə keçirdi və 5 min nəfərə yeni mənzil bağışladı

Prezidentin dəyişməz ənənəsidir: ad günlərini daim məcburi köçkünlərlə keçirir. Bunun səbəbini ondan soruşanlara isə cavabı konkretdir: məcburi köçkünlər mənim ailə üzvlərimdir, mən də doğum günümdə onlarla - öz ailəmlə bir oluram.

### İlham Əliyev nümunəsi

Dünən də eyni mənzərənin şahidi olduq. Prezident 57-ci ildönümünü geniş ailəsi ilə birgə qeyd etdi, yenə də onların sevgisini gördü, səmimi alqışlarını, dualarını eşitdi...

Hamımız müşahidə edirik, İlham Əliyev ad günü sevincini tam dolğunluğu ilə məhz bu sadə insanların əhatəsində yaşayır. Dünyanın nüfuzlu liderlərindən aldığı təbriklər, həmkarlarından edilən telefon zəngləri fonunda dünən qürurlu gün yaşamasına baxmayaraq, məhz bu əliqabarlı zəhmətkeşlərin arasında daha xoşbəxt, daha məmnun göründü. Çünki onu təmənassız sevənlərin, ona bütün varlığı ilə bağlı olub, tam inananların içində idi...

İlham Əliyevin lider kimi özəlliyi odur ki, vətəndaşları ilə ən mükəmməl tərzdə ünsiyyət qurmağı bacarır. Amma bir məqamı da unutmayaq: bu ünsiyyət yalnız siyasi manevrlərə söykənsə, uzunmüddətli ola bilməz, çünki əsas əməldir. Onun xalqı üçün etdiyi yaxşılıqlara, vətəndaşına verdiyi işə, rahat güzərana görə qazandığı da məhz bu səmimiyyətdir, duyğusal ünsiyyətdir.

Tam 15 ildir hər bir azərbaycanlının Prezidenti olmağı bacaran insana milyonların etimadını, inamını, dəstəyini aydın görürük. Və bu möhtəşəm ünsiyyətin ən parlaqları da adətən məcburi köçkünlərlə görüşlərdə yaşanır. Necə ki, dünən buna bir daha əmin olduq...

Prezident ad gününə hədiyyə ilə gəlmişdi. İlham Əliyev fərqliliyi, özünəməxsusluğu həm də bundadır. Hədiyyə almağı sevmir, amma əzizlərinə daim hədiyyə verir...

### 1000 ailənin ilk qonağı

Prezident tam 1000 ailəyə, təqribən 5000 insana yeni mənzil hədiyyə etdi. Və beləliklə, İlham Əliyev tərəfindən açılan məcburi köçkün qəsəbələrinin sayı 101-ə, Prezidentin yeni mənzil hədiyyəsini alanların sayı isə orta hesabla 60 min ailəyə, yəni 300 min nəfərə çatdı.

Məcburi köçkünlərin ilk qonağı da məhz Prezident və xanımı idi.

İlham Əliyev köçkünlərin problemlərinin həllinin prioritet məsələ kimi qəbul edildiyini və onların mənzillə təminatında bu il rekord göstəricinin əldə olunduğunu söylədi. 150 evdən ibarət Cocuq Mərcanlıdakı quruculuğu milli iradənin rəmzi kimi dəyərləndirən Prezidentin, "yeni qəsəbələr müvəqqəti yaşayış yeridir, gün gələcək belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda açılacaq" bəyanatı isə Baş Sərkərdənin qətiyyətli mövqeyini bir daha nümayiş etdirdi.

Prezident bu şəhərcikdə daha 1900 ailə üçün mənzil tikiləcəyinin müjdəsini də verdi...

Unutmayaq, köçkünlər üçün İlham Əliyev yalnız yeni mənzil hədiyyə edən xeyirxah rəhbər deyil, həm də onları ata-baba evlərinə - Qarabağa qaytaracaq Ali Baş Komandandır!

### 10 gündə 1419 yeni mənzil və 50 min ailəyə maddi yardım

İlham Əliyevin mərhəmət, himayədarlıq dəyərlərini əks etdirən sosial siyasətini elə son 10 günün timsalında aydın görə bilərik. Hərbçilərə 394 mənzil, idmançılara 25 yeni ev hədiyyə edən Prezident 50 min aztəminatlı ailəyə də birdəfəlik maddi yardım ayırdı.

Yəni 10 gündə 1419 mənzil və əlavə 50 min ailəyə yardım...

Bu "10 günlər" silsiləsi ötən 15 ilin içində yüz minlərlə ailənin sevinci, milyonlarla insanın rifahı deməkdir...

Gücünü xalqdan alan müqtədir hakimiyyətin qüdrət bəxş etdiyi dövlətin real mənzərəsidir...

"Güclü dövlət - güclü xalq - güclü hakimiyyət" formulunun real təzahürü, əlbəttə ki, bugünkü Azərbaycan, onun uğurları, beynəlxalq nüfuzu, qlobal miqyasda daşıdığı strateji əhəmiyyətdir.

Və həm də dünənki tədbirdir!..

Prezidentin dünənki görüşü bir daha sübut etdi ki, İlham Əliyev bu xalqın yalnız 5 il müddətə seçdiyi rəhbəri deyil, onun dayağıdır, güvəncidir, sabaha inamıdır, ən nəhayət, gələcəyinin yeganə təminatçısıdır!

Prezident ailəsinin üzvünün - bir məcburi köçkünün dediyi kimi, nə yaxşı ki, İlham Əliyev var...

Daim var olun, cənab Prezident!..

*Əslində, kim deyə bilər ki, İlham Əliyev ailəsinin - məcburi köçkünlərin yanından hədiyyəsiz qayıtdı...*

*Şəhid analarının, övladlarının alqışlarından, dualarından müqəddəs hədiyyə varmı bu məmləkətdə...*

***İxtiyar HÜSEYNLİ, "Azərbaycan"***



# Ağ şəhər Bakının yeni inkişaf rəmzinə çevrilir

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Bakı Ağ şəhər"də 110 kilovoltluq "Ağ şəhər-2" və "Bakıxanov" yarımstansiyalarının, Birinci Fəvvarələr küçəsinin açılışında, eləcə də "Ağ şəhər" piyada körpüsünün və Zaman meydanının təməlqoyma mərasimində iştirak ediblər, tikintisi yekunlaşan Fəvvarələr Meydanı parkı ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, əvvəlcə dövlət başçısı "Ağ şəhər-2" yarımstansiyasının açılışını etdi.

"Azərişıq" ASC-nin sədri vəzifəsini icra edən Vüqar Əhmədov dövlət başçısına məlumat verdi ki, "Ağ şəhər" layihəsinin keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təchiz olunması istiqamətində kompleks tədbirlər həyata keçirilir. "Ağ şəhər" layihəsinin elektrik təchizatı üzrə qoyuluş gücü 250 meqavat təşkil edir və layihə çərçivəsində 110 kilovoltluq 4, həmçinin 35 kilovoltluq 46 yarımstansiyanın tikintisi nəzərdə tutulur.

*Ardı 4-cü səh.*

# Həmkarları İlham Əliyevi təbrik etdilər



Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Vladimir Putin Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Söhbət zamanı qeyd edilib ki, 2018-ci il Azərbaycan-Rusiya dostluq əlaqələrinin tarixində çox məhsuldar bir il olub, dövlət başçılarının qarşılıqlı səfərləri, beynəlxalq tədbirlər çərçivəsində çoxsaylı təmaslar əlaqələrimizi daha da yüksək səviyyəyə qaldırıb. Prezidentlər öz əminliklərini bildiriblər ki, 2019-cu ildə də ikitərəfli münasibətlərimizdə müsbət dinamika davam etdiriləcək və Azərbaycan-Rusiya strateji tərəfdaşlıq əlaqələri bundan sonra da inkişaf edəcəkdir.



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona Azərbaycan xalqının firavanlığı və tərəqqisi naminə prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları 2018-ci ilin dostluq və qardaşlıq münasibətlərimizin daha da möhkəmlənməsi baxımından önəmli bir il olduğunu qeyd edərək bu işdə qarşılıqlı səfərlərin və görüşlərin əhəmiyyətini vurğulayıb, qarşıdakı illərdə də əlaqələrimizin daha da genişlənəcəyinə əminliklərini ifadə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# 101-ci qəsəbə, 1000 mənzil









Dekabrın 24-də Abşeron rayonunun ərazisində 1000 məcburi köçkün ailəsi üçün salınmış yeni yaşayış kompleksi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı sərəncama əsasən, Sumqayıt şəhəri ərazisindəki yataqxanalarda müvəqqəti məskunlaşmış 2900 məcburi köçkün ailəsi üçün çoxmərtəbəli binalardan ibarət yeni yaşayış məhəlləsinin tikilməsi qərara alınıb. Məhəllənin salınması üçün 50 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə 1000 ailənin yerləşdirilməsi üçün 17,5 hektar torpaq sahəsi istifadə edilib. Yeni yaşayış məhəlləsinin layihələndirilməsi və tikintisi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən həyata keçirilib. Kompleksin inşasına bu ilin martında başlanılıb və tikinti işləri yüksək səviyyədə həyata keçirilib. Layihə üzrə 23-ü 42, biri isə 35 mənzilli olan 7 mərtəbəli yaşayış binası inşa olunub. Məktəb və uşaq bağçasının daxil olduğu yeni yaşayış kompleksində digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi, ATS binası tikilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb. Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sisteminin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib.

Dövlət başçısına məlumat verildi ki, bu yaşayış kompleksi ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 101-ci şəhərcikdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış oldular. Qeyd edildi ki, buradakı mənzillərdən 77-si birotaqlı, 420-si ikiotaqlı, 406-sı üçotaqlı, 96-sı isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 76 min kvadratmetrdir. Bütün mənzillər təmir edilib və mətbəx mebeli ilə təchiz olunub. Yeni yaşayış kompleksində hazırda Sumqayıt şəhəri və Abşeron rayonu ərazisində yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaq. Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə olunduğunu göstərir. Qaçqın və məcburi köçkünlərin müvəqqəti yaşayış yerləri və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqətin təzahürüdür. İndiyə qədər bu kateqoriyadan olan insanların maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində mühüm tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də 2017-ci il martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi oldu. Mehriban Əliyeva müşavirədəki çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verdi. 2017-ci ilin may ayında Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün inşa edilən yaşayış kompleksinin təməli qoyuldu. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edildi. Bununla yanaşı, Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələrinin köçürülməsi başa çatdı.

Sonra dövlət başçısı və birinci xanım uşaq bağçasında yaradılan şəraitlə tanış oldular. Qeyd edildi ki, burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar var. 140 yerlik bağça uşaqların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edəcək. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Binada videomüşahidə, yanğınxəbərverici sistemlər quraşdırılıb, uşaq bağçası zəruri mebel-inventar və avadanlıqla təchiz edilib. Bağçanın yerləşdiyi ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, müxtəlif çiçək və gül kolları, ağaclar əkilib. Ətrafda abadlıq və quruculuq işləri görülüb.

Qeyd edək ki, 2007-ci ildə ölkədəki 12 çadır düşərgəsinin ləğv edilməsi ilə başlanan proses nəticəsində qaçqın və məcburi köçkünlər üçün indiyədək 3,5 milyon kvadratmetr yaşayış sahəsi olan müasir qəsəbələr və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınıb. İlin sonuna qədər evlərlə, mənzillərlə təmin edilmiş məcburi köçkünlərin sayı 300 minə çatacaq. Bu da 53 min 500 ailə və ya 300 min qaçqın və məcburi köçkün deməkdir. Ümumilikdə bu kateqoriyadan olan insanların sosial problemlərinin həlli üçün indiyədək 7,1 milyard manat vəsait xərclənib. Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən 24 min məcburi köçkünə 14,8 milyon manat məbləğində mikrokredit, İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən isə 2 min 74 məcburi köçkün sahibkara 44,3 milyon manat güzəştli kredit verilib. Bu mikrokreditlərin əksəriyyəti kənd təsərrüfatı - əkinçilik, heyvandarlıq, bitkiçilik, arıçılıq ilə bağlı layihələrə yönəldilib. Ötən dövrdə 200 min məcburi köçkün büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə təmin edilib. Bununla da məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azalıb.

Daha sonra yaşayış kompleksində tikilən Qubadlı rayonu Mirağa Əliyev adına Hal kənd tam orta məktəbindəki şəraitlə tanış olan Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, bu təhsil ocağı 792 şagird yerlikdir. Yüksək şəraiti ilə seçilən, müasir təlim avadanlıqları ilə diqqət çəkən bu təhsil ocağında təlim-tədris üçün hər cür şərait yaradılıb. Məktəbin kompüter otağında şagirdlər informasiya texnologiyalarının sirlərinə yiyələnəcək. İdman zalı da zəruri avadanlıqla təchiz edilib və burada şagirdlərin bədən tərbiyəsi ilə məşğul olmaları üçün hər cür imkan var. Akt zalında müxtəlif tədbirlər keçirmək mümkündür. Prezident İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğı təsdiqləyir ki, bu sahə dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil edilib. Bu proses təkcə paytaxtla məhdudlaşmır, bölgələri də əhatə edir, doğma yurdlarından didərgin düşən soydaşlarımızın təhsilinin yüksək səviyyədə qurulmasına xidmət göstərir. Heydər Əliyev Fondunun dövlət səviyyəsində həyata keçirilən bu fəaliyyət proqramına verdiyi dəstək isə öz əhəmiyyəti ilə seçilir.

Məktəblə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məcburi köçkünlərlə görüşdülər.

Dövlət başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, bu gün məcburi köçkünlərin problemlərinin həlli işində növbəti önəmli addım atılır. Biz min mənzildən ibarət yeni şəhərciyin istifadəyə verilməsini birlikdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Çox gözəl şəhərcikdir, böyük ərazidə yerləşir. Burada iyirmidən artıq çoxmərtəbəli yaşayış binası inşa edilib. Uşaq bağçası, tibb məntəqəsi, icma mərkəzi, təxminən 800 şagirdlik gözəl məktəb, yəni burada normal yaşamaq üçün bütün imkanlar, bütün şərait var. Bu şəhərciyin istifadəyə verilməsi bir daha onu göstərir ki, köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bizim üçün bu, prioritet məsələdir.

Son illərdə məcburi köçkünlərin problemlərinin həlli işində çox böyük addımlar atılmışdır. Üç yüz minə yaxın köçkün yeni mənzillərlə, fərdi evlərlə təmin edilib. Bu məqsədlər üçün dövlət çox böyük vəsait xərcləyib və bu da təbiidir. Çünki mən həmişə demişəm ki, məcburi köçkünlərin problemləri sosial məsələlər arasında ön plandadır.

Bu il bu istiqamətdə çox böyük işlər görülüb. Bu il 5800 köçkün ailəsi üçün fərdi evlər, mənzillər tikilib və istifadəyə verilib. Artıq köçkünlərin bu evlərə, mənzillərə yerləşməsi prosesinə start verilmişdir. Bu, rekord göstəricidir. Biz hər il minlərlə köçkün ailəsini yeni evlərlə, mənzillərlə təmin edirik. Bir daha demək istəyirəm ki, bu il bu, ən yüksək səviyyədə öz həllini tapıb. Bizim vəzifəmiz ondan ibarətdir ki, bütün köçkün ailələri normal şəraitlə təmin olunsunlar. Bu istiqamətdə böyük işlər görülür, həm Bakı şəhərində, Abşeron rayonunda, Sumqayıt şəhərində, həm də digər şəhər və rayonlarımızda. Son illərdə yüzdən çox köçkün şəhərciyi tikilib istifadəyə verilmişdir. Ancaq o da həqiqətdir ki, hələ də çətin vəziyyətdə yaşayan köçkünlərimiz var. Onların problemləri də öz həllini tapacaq. Hazırda Dövlətqaçqınkom bu istiqamətdə öz işini davam etdirir, siyahılar dəqiqləşdirilir və növbəti ildə görüləcək işlərlə bağlı indi hazırlıq tədbirləri aparılır. Gələn ilin dövlət xərclərimizdə köçkünlərin problemlərinin həlli üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub.

Onu da bildirməliyəm ki, bu il, eyni zamanda, köçkünlərin məişət problemlərinin həlli işində bir yenilik də olub. O da ondan ibarətdir ki, özəl sektor köçkünlər üçün mənzillərin tikintisinə başlamışdır. Bu il "Qobu Park" köçkün şəhərciyinin açılışı bunun bariz nümunəsi idi. Orada da mindən çox ailə üçün yeni binalar, evlər tikilib, bütün infrastruktur yaradılıb. O layihə özəl sektor tərəfindən təmin edilib, tikilib və maliyyələşdirilib.

Bu, onu deməyə əsas verir ki, biznesin sosial məsuliyyəti də artır. Ümid edirəm ki, növbəti illərdə bizim böyük biznes strukturlarımız bu işlərdə köçkünlərə kömək göstərəcəklər. Əlbəttə, əsas işi dövlət öz üzərinə götürüb. Köçkünlərin problemlərinin həlli, onların məşğulluğunun artırılması üçün son illərdə milyardlarla manat vəsait xərclənmişdir. Ancaq imkanı olan şirkətlər əlbəttə ki, bu sahədə öz sözünü deməlidirlər və biz bunu görürük. Ümid edirəm ki, gələn il də biznes strukturları bu istiqamətdə öz sözünü deyəcəklər.

Bu il bir neçə yerdə köçkünlər üçün yeni şəhərciklər salınıb. Onların arasında iki layihəni xüsusilə qeyd etmək istərdim. Bu il Cocuq Mərcanlı qəsəbəsində işlərin ikinci mərhələsi başa çatmışdır. Bildiyiniz kimi, keçən il mənim iştirakımla Cocuq Mərcanlıda köçkün qəsəbəsinin açılışı olmuşdur. O vaxt biz 50 evin açılışını qeyd etdik. Qarşıya vəzifə qoyulmuşdu ki, evlərin sayı daha da artmalıdır. Əlavə 100 evin tikilməsi də bu il təmin edildi. Bu, əlbəttə ki, tarixi hadisədir. Çünki uzun fasilədən sonra Cocuq Mərcanlıda həyat yenidən qurulur, vətəndaşlar öz doğma torpağında yaşayırlar, qururlar, yaradırlar. Bilirsiniz ki, orada bütün infrastruktur yaradılıb, yollar, elektrik xətləri, məktəb, ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilib. Biznes üçün də çox gözəl şərait yaradılıb. Hazırda 150 evdən ibarət qəsəbə bizim iradəmizin rəmzinə çevrilibdir. Bu qəsəbənin yaşaması, yenidən qurulması onu göstərir ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq. Hər bir köçkün bir arzu ilə, bir amalla yaşayır ki, tezliklə öz doğma torpağına qayıtsın. Biz bunu Cocuq Mərcanlı qəsəbəsinin timsalında görürük. Çünki uzun illər başqa yerlərdə yaşamış Cocuq Mərcanlı sakinləri imkan olan kimi, əlbəttə, öz doğma kəndinə üz tutdular. Hətta Cocuq Mərcanlını görməyən uşaqlar, yeniyetmələr böyük həvəslə o kəndə üz tutub, orada - doğma torpağında öz həyatlarını qururlar.

Digər layihə Tərtər rayonunun Şıxarx qəsəbəsində tikilmiş şəhərcikdir. O şəhərcik təxminən 1200 mənzildən ibarətdir. Hündürmərtəbəli binalar tikilib. O layihənin də əhəmiyyəti ondadır ki, vaxtilə işğal edilmiş və işğaldan azad olunmuş torpaqlarda belə böyük, gözəl şəhərcik tikilib. Əlbəttə, hər bir köçkün şəhərciyinin istifadəyə verilməsi önəmli hadisədir və bizi, köçkünləri sevindirir. Ancaq bu iki layihəni xüsusilə qeyd etmək istəyirəm. Çünki məhz işğalçılardan azad edilmiş torpaqlarda biz bu gözəl şəhərcikləri qurmuşuq. Bu, bir daha onu göstərir ki, torpaqlarımız işğaldan azad olunandan sonra biz ermənilər tərəfindən dağıdılmış bütün şəhər və rayonlarımızı, kəndlərimizi bərpa edəcəyik. Buna bizim gücümüz də çatacaq, iradəmiz də var. Bizim siyasətimiz, bir daha demək istəyirəm ki, məcburi köçkünlərin problemlərinin həlli işinə dəstək verməkdən ibarətdir. Mən əminəm ki, bu gün hələ də işğal altında olan bütün torpaqlar azad ediləndən sonra o torpaqlarda gözəl şəhərlər, kəndlər yenidən qurulacaq. Azərbaycan xalqı işğalla barışmayacaq.

Ermənistanın işğalçılıq siyasəti onları ağır vəziyyətdə qoyub. Bu gün bunu həm dünya görür, həm də regionda baş verən hadisələr bunu göstərir. Ermənistanda uzun illər ərzində - iyirmi il ərzində hakimiyyəti zəbt etmiş kriminal rejim çökdü. Bunun başlıca səbəbi onların işğalçılıq siyasətidir. Çünki biz qarşıya vəzifə qoymuşduq ki, bu kriminal rejim çökməlidir və buna nail olduq. Bütün vasitələrdən istifadə edərək buna nail olduq. Mən dəfələrlə demişəm, bu gün də demək istəyirəm ki, Ermənistanda kriminal, rüşvətxor xunta rejiminin çökməsində bizim də payımız var. Nə qədər ki torpaqlarımız işğal altındadır, ilk növbədə, biz onları təcrid vəziyyətində saxlayırıq və saxlayacağıq. Digər tərəfdən, Ermənistan iqtisadiyyatı üçün heç bir əsas yoxdur. Biz onları bütün regional layihələrdən təcrid etmişik və bu proses davam etdirilir. Ermənistanda iqtisadi vəziyyət çox ağırdır və bu il orada baş vermiş hadisələrin əsas səbəbi də səfalət, yoxsulluq, ədalətsizlik və özbaşınalıqdır. Demoqrafik baxımdan Ermənistan çox ağır vəziyyətdədir. Bizdə olan məlumata görə, yenə də işğalçılıq siyasəti nəticəsində ölkədən ən azı bir milyondan artıq vətəndaş gedibdir, həmişəlik ölkəni tərk edibdir.

*Ardı 3-cü səh.*

# 101-ci qəsəbə, 1000 mənzil









*Əvvəli 2-ci səh.*

Ümid edirəm, Ermənistan cəmiyyəti və Ermənistanın yeni rəhbərliyi başa düşəcək ki, ancaq Azərbaycan ilə münasibətləri normallaşdırandan sonra Ermənistanda hər hansı bir iqtisadi inkişaf ola bilər. Normallaşma torpaqlarımızın azad edilməsindən asılıdır və bunun əsas şərtidir.

Biz isə öz gücümüzü, qüdrətimizi artırırıq. Onu da bildirməliyəm ki, Ermənistanın kriminal rejiminin süquta uğramasında bizim hərbi qələbələrimiz də önəmli rol oynayıb. Xüsusilə, Aprel döyüşləri və ondan sonra bizim digər uğurlu əməliyyatlarımız nəticəsində Ermənistanın əvvəlki rəhbərliyi tərəfindən öz ordusu haqqında yaradılan mif tamamilə darmadağın edildi. Azərbaycan Ordusu, Azərbaycan əsgəri göstərdi ki, biz döyüş meydanında da qalib gəlirik. Bizim hərbi qələbələrimiz Ermənistanın kriminal rejiminin çökməsində xüsusi rol oynamışdır.

Biz 2019-cu ilə qədəm qoyuruq və ümid edirik ki, bu il Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün önəmli il ola bilər. Amma baxacağıq ki, vəziyyət necə inkişaf edir. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Ölkəmizin ərazi bütövlüyü qeyd-şərtsiz təmin olunmalıdır, bərpa edilməlidir, işğalçı qüvvələr torpaqlarımızdan qeyd-şərtsiz çıxarılmalıdır. Bunu ədalət, tarix tələb edir, bunu beynəlxalq hüquq tələb edir. BMT Təhlükəsizlik Şurasının qətnamələrində məhz dediyim sözlər öz əksini tapıb ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmalıdır. Biz əlbəttə ki, xarici müstəvidə öz səylərimizi bu istiqamətdə artıracağıq. Bu il həm ikitərəfli təmaslar əsasında mən bir çox ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlarda və imzalanmış sənədlərdə ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmət göstərilir və münaqişənin bu prinsiplər əsasında həll olunması tələb edilir. Eyni zamanda, Avropa İttifaqı ilə imzalanmış sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox ciddi bəyanatlar var. Yəni, həm tarixi, həm hüquqi əsaslar bizim mövqeyimizi dəstəkləyir. Əlbəttə ki, bu gün Ermənistan və Azərbaycan iqtisadi və hərbi cəhətdən fərqli kateqoriyalarda olan ölkələrdir. Eyni zamanda, bölgədə gedən proseslər, bizim qonşu ölkələrlə münasibətlərimizin möhkəmləndirilməsi regionda vəziyyəti bizim xeyrimizə dəyişdirir. Yəni, bütün bu amillər deməyə əsas verir ki, 2019-cu ildə münaqişə ilə bağlı müəyyən addımlar atılacaq. Hələ ki bir şey demək tezdir, ancaq bir şey tam aydındır: biz prinsipial mövqeyimizdən çəkilməyəcəyik, öz ərazi bütövlüyümüzün istənilən yolla bərpası bizim suveren hüququmuzdur. Dağlıq Qarabağ və onun ətrafında yerləşən digər işğal edilmiş torpaqlar bizim əzəli, tarixi torpaqlarımızdır və bu, bu gün belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində o vaxt Azərbaycanda hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün yarıtmaz və xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşmüşdür. Biz bütün imkanlardan istifadə edirik ki, bu məsələ öz həllini tapsın. Ölkəmizin artan qüdrəti o günü yaxınlaşdırır ki, belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda tikilsin.

Sizin üçün bu, müvəqqəti yaşayış yeridir. Əlbəttə ki, burada gözəl şəraitin yaradılması bizim borcumuzdur. Mən bilirəm ki, burada yaşayacaq vətəndaşlar çox ağır şəraitdə yaşamışlar. İndi burada gözəl şərait yaradılır. Ancaq yenə də bu, müvəqqəti yaşayış yeridir, gün gələcək belə gözəl şəhərciklər bu gün işğal altında olan torpaqlarda açılacaqdır.

Mən sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Sizi qarşıdan gələn Yeni il bayramı, Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə təbrik edirəm. Sağ olun.

* * *

Məcburi köçkün, Milli Qəhrəman atası **Nəriman HƏMİDOV** çıxış edərək dedi:

- Cənab Prezident, bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur, Siz bizimləsiniz. Sizin məcburi köçkünlərə göstərdiyiniz qayğı bizim nəzərimizdən heç vaxt qaçmaz. Sizin göstərdiyiniz diqqət və qayğı həmişə bizim nəzərimizdədir. Biz görürük ki, məcburi köçkünlər məsələsi həm dövlətimizin, həm də Prezidentimizin diqqətindədir. Çox şadıq ki, bu gün Sizin ad gününüzdür. Bu münasibətlə Sizi təbrik edirəm. Sizə uzun ömür, cansağlığı arzulayıram.

Möhtərəm Prezident, ölkəmiz tərəqqidədir. Bu, hamımızın gözü qarşısındadır. Ölkəmiz çiçəklənir, inkişaf edir. Bunlar hamısı Sizin daxili və xarici siyasətinizin bariz nümunəsidir. Bütün bunların hamısı dünya miqyaslı siyasi xadim, türk aləminin lideri, ulu öndərimiz Heydər Əliyevin dövlətçilik siyasətini uğurla həyata keçirməyinizin bariz nümunəsidir. Bu siyasət nəticəsində ölkəmiz gündən-günə inkişaf edir, xalqımızın güzəranı, maddi rifah halı yaxşılaşır. Onu da qeyd edim ki, bütün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları Sizi çox istəyir. Siz ulu öndərin siyasi xəttini cəsarətlə davam etdirirsiniz.

Cənab Prezident, Siz çox qayğıkeş, hər bir sahənin inkişafına diqqət yetirən rəhbərsiniz. Ölkəmizdə çoxlu alimlər, yazıçılar, şairlər, mədəniyyət işçiləri, idmançılar var. Siz onların hamısının əməyini yüksək qiymətləndirirsiniz, hamısının öz payını, qismətini özünə çatdırırsınız. Bu qismətdən mənə də pay düşübdür. Ermənilərin həmləsinin qarşısını almaq üçün bizim ordumuz Sizin rəhbərliyiniz altında ayağa qalxdı. O vaxt mənim oğlum da cəbhədə idi. Lələtəpənin alınmasında göstərdiyi şücaətə görə Siz ona Azərbaycanın Milli Qəhrəmanı adı verdiniz. Çox şadam, bu gün Allah-Təala mənə bu fürsəti verib ki, mən Sizə öz minnətdarlığımı üzbəüz bildirim. Sizə öz adımdan, bütün ailəmiz adından minnətdarlıq edirəm. Çox sağ olun, polkovnik Şükür Həmidov Sizin sərəncamınızla Milli Qəhrəman adına layiq görülüb. Minnətdarlığımı bildirirəm.

Cənab Prezident, bu, tək mənim valideynlik qürurum, sevincim deyil. Bu, bizim ordumuzun Sizin rəhbərliyinizlə qələbəsinin nəticəsidir. Eyni zamanda, Siz özünüz də qeyd etdiyiniz kimi, Cocuq Mərcanlıda görülən işlər qayıdışımızın ilk addımıdır. Biz Sizin rəhbərliyinizlə o addımı davam etdirəcəyik.

Bizim bir el misalı var: Ad günü olana hədiyyə verərlər. Amma Siz bunun əksinə hərəkət etdiniz, bu şad gündə, Sizin ad gününüzdə bu gözəl, hər şəraiti olan qəsəbəni Siz bizə hədiyyə etdiniz. Çox sağ olun, çox var olun. Sizə uzun ömür, işinizdə müvəffəqiyyət arzulayıram.

Hörmətli Mehriban xanım, mənim yaxşı yadımdadır, Siz Birinci vitse-prezident olanda ilk yığıncağınızı qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə əlaqədar keçirdiniz. Mən o yığıncaqdakı çıxışınızı dəfələrlə dinləmişəm. Siz Azərbaycan xalqının sevimli qızısınız. Bütün Azərbaycan xalqı Sizi sevir, Sizi alqışlayır. Ölkəmizin daxilində və xaricdə gördüyünüz işlərin hamısı bizə yaxşı məlumdur. Çox sağ olun, bunlar heç vaxt bizim yadımızdan çıxmaz.

Mən bütün qubadlılılar, bütün məcburi köçkünlər adından, möhtərəm Prezidentimiz, Sizi ad gününüz münasibətilə təbrik edirəm, Sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, Sizin rəhbərliyinizlə torpaqlarımız yaxın vaxtlarda işğaldan azad olunsun, biz gedək öz ata-baba torpaqlarımızı ziyarət edək, beş gün də yaşamalı olsaq, o torpaqda yaşayaq. Çox sağ olun, çox var olun. Onu da arzu edirəm ki, Sizin fərmanları imzaladığınız o qələm həmişə Sizin əlinizdə olsun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

Qubadlı rayonundan məcburi köçkün **Aqil QULİYEV** dedi:

- Möhtərəm cənab Prezident.

Sizi doğum gününüz münasibətilə bütün gənclər adından ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, dövlətimizin daha da güclənməsi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

Cənab Prezident, bu əziz gündə Sizin qarşınızda çıxış etmək hər bir Azərbaycan gənci kimi, mənim üçün də böyük şərəfdir və həyatımda tarixi əlamətdar gündür.

Möhtərəm cənab Prezident, Azərbaycan gəncliyi Sizinlə fəxr edir. Ona görə ki, ümummilli liderimiz, Azərbaycanın, dünyanın dahi siyasi xadimi Heydər Əliyevin 1990-cı illərin əvvəllərində təlatümlərdən, məhv olmaq təhlükəsindən xilas etdiyi, inkişafının əsasını qoyduğu Azərbaycanı bu gün Siz dünyada və beynəlxalq aləmdə, regionda gedən çətin vəziyyətdə, dünyada ikili standartların hökm sürdüyü bir zamanda daha da inkişaf etdirib, uğurdan-uğura aparırsınız.

Möhtərəm cənab Prezident, Siz bu gün Azərbaycanı idman ölkəsinə, mühüm beynəlxalq yarışların, humanitar forumların keçirildiyi multikultural məkana çevirmisiniz. Bu gün Azərbaycanı dünyaya multikulturalizm nümunəsi göstərən bir ölkəyə çevirmisiniz. Bu gün dünya Azərbaycan multikulturalizmindən bəhs edir və ondan öyrənir.

Möhtərəm cənab Prezident, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu böyük strateji layihələrin - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi layihələrin Sizin rəhbərliyinizlə reallaşdırılması, Sizin müəllifi olduğunuz TANAP, TAP kimi mühüm layihələrin həyata keçirilməsi Azərbaycanı regionun lider dövlətinə, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çevirmişdir. Bütün bunlar məhz Sizin böyük siyasi fəaliyyətinizin nəticəsidir. Bu gün biz ona görə fəxr edirik ki, yaşadığımız müstəqil Azərbaycanı dünyanın azsaylı ölkələrindən olan kosmik ölkəyə çevirmisiniz. Bütün bunlar, həmçinin ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin davam etdirilməsi gənclərimizi hər zaman Sizin siyasətinizi qətiyyətlə müdafiə edən cəmiyyətimizin fəal bir zümrəsinə çevirib. Gənclərimiz hər zaman həyatda öz yerlərini tutmaqda Sizə güvənmiş, Sizdən ilham almışlar.

Hörmətli Mehriban xanıma dünyanın diqqətini Azərbaycana yönəltmiş birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının böyük müvəffəqiyyətlə keçməsi üçün göstərdiyi səylərə görə bütün gənclər adından, məcburi köçkünlər adından dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, bu gün Azərbaycanımız gündən-günə inkişaf edir. Biz Sizin bütün istiqamətlərdə, o cümlədən Ali Baş Komandan kimi ordu quruculuğu sahəsində apardığınız məqsədyönlü siyasət nəticəsində doğma torpaqlarımızın tezliklə azad olunacağına inanırıq. Biz gənclər Ali Baş Komandanımızın əmrinizi səbirsizliklə gözləyən müsəlləh əsgərlərik.

Möhtərəm cənab Prezident, icazə verin, bu gün bu sevinci bizə bəxş etdiyinizə, öz ad gününüzü bizimlə qeyd etdiyinizə, hər cür şəraitlə təmin olunmuş şəhərciyi köçkünlərə hədiyyə etdiyinizə görə gənclərin Sizə sonsuz minnətdarlığını çatdırım.

Möhtərəm cənab Prezident, bir daha Sizi ad gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə dövlətimizin daha da inkişafı naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.



# Ağ şəhər Bakının yeni inkişaf rəmzinə çevrilir







Əvvəli 1-ci səh.

Artıq 110/35/10 kilovoltluq 100 meqavoltamper gücündə "Ağ şəhər-2" yarımstansiyasının inşası yekunlaşıb.

Qeyd edək ki, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin bütün yeni inşa olunan qapalı tipli yarımstansiyaları kimi, "Ağ şəhər-2" yarımstansiyasının da memarlıq görünüşü, texniki və texnoloji sahələri xüsusi layihə əsasında yaradılıb. Yarımstansiyada ehtiyat nəzərə alınmaqla 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular, hər biri 50 meqavoltamper gücündə iki transformator var. Azərbaycanda ilk dəfə məhz "Ağ şəhər-2" yarımstansiyasında yanğından mühafizə məqsədilə yağın transformatorlardan təcrid edilməsi və yanğının anındaca qarşısının alınması üçün avtomatik rejimdə işləyən qurğular quraşdırılıb. Mərtəbələrarası xüsusi kabel keçidləri, həmçinin ehtiyat giriş-çıxışları olan kabel zirzəmisi inşa olunub. Xüsusi dispetçer idarəetmə mərkəzi yaradılıb. Yarımstansiya elektron tipli rele mühafizəsi və avtomatika sistemi ilə təchiz edilib, optik kabel çəkilib və məsafədən idarəolunan SCADA dispetçer idarəetmə sisteminə qoşulub. "Ağ şəhər-2" yarımstansiyasının qidalandırılması üçün "Ağ şəhər-1" yarımstansiyasından 110 kilovoltluq ikidövrəli kabel xətti çəkilib. Bu energetika qurğusunu digər 110 kilovoltluq yarımstansiyalardan fərqləndirən əsas texnoloji fərqi odur ki, 110 kilovoltluq bölmə ABB şirkətinin istehsalı olan eleqaz izolyasiyalı qapalı tipli yuvalardan və ayırıcılardan ibarətdir. Bu tip qapalı paylayıcı qurğuların istismar müddəti açıq tipli qurğulardan üç dəfə çox olmaqla, istismarı təhlükəsizdir və mükəmməl şəbəkəyə inteqrasiya oluna bilir.









"Ağ şəhər-2" yarımstansiyası vasitəsilə 75 min əhali abonentinin elektrik təchizatı həyata keçiriləcək. Həmçinin ərazidə yeni inşa olunan sosial obyektlər, hotellər, əyləncə kompleksləri, Ağ şəhər bulvarı, yeni layihələndirilən tikinti obyektləri, yaşayış kompleksləri "Ağ şəhər-2" yarımstansiyası vasitəsilə enerji ilə təchiz olunacaq. "Ağ şəhər-2" yarımstansiyası ilə yanaşı, layihə çərçivəsində "Bakı Ağ şəhər"də 35/0,4 kilovoltluq yeddi yarımstansiya da inşa edilib.

Sonra Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə "Ağ şəhər-2" yarımstansiyasını və 110/35/10 kilovoltluq "Bakıxanov" yarımstansiyasını işə saldı.

Dövlət başçısına məlumat verildi ki, ötən əsrin 70-ci illərinin ortalarında o dövrün elektrik enerjisi tələbatına uyğun tikilərək istifadəyə verilən 110/35/10 kilovoltluq "Bakıxanov" yarımstansiyasının köhnə avadanlıqları müasir tələblərə cavab vermədiyindən və istismar müddətini bitirdiyindən tamamilə yenidən qurulub.

Qeyd edək ki, Bakıxanov qəsəbəsinin istehlakçıları və onların tələbatı 30 il müddətində on dəfələrlə artıb. Bakıxanov qəsəbəsi ilə yanaşı, Bülbülə və Qaraçuxur qəsəbələrinin bir hissəsinin bu yarımstansiyadan qidalanması onun yenidən qurulmasını günün tələbinə çevirmişdi. Odur ki, yarımstansiya yenidən qurulmaqla yanaşı, onun mövcud 35 kilovoltluq elektrik şəbəkələri ilə əlaqələnmə sxemi daha dayanıqlı və etibarlı vəziyyətə gətirilib. Beləliklə, yeni "Bakıxanov" yarımstansiyası hazırda elektrik enerjisi ilə təchiz edilən bütün növ mövcud istehlakçılarla yanaşı, perspektivdə yaranacaq əhali və qeyri-əhali abonentlərin elektrik enerjisi təminatını daha keyfiyyətli və dayanıqlı formada həyata keçirmək üçün də bütün imkanlara malikdir.

* * *

Sonra Birinci Fəvvarələr küçəsinin açılışı oldu.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verdi ki, yeni yollar salınarkən ərazidə mazutlu və texnogen mənşəli yararsız qrunt 2 metrə qədər dərinlikdə qazılaraq çıxarılıb və ərazidən uzaqlaşdırılıb. Əvəzində isə yararlı karxana materiallarından yol geyiminin əsası inşa olunub. Ümumilikdə 2018-ci ildə 550 min kubmetr yararsız material qazılaraq ərazidən uzaqlaşdırılıb və əvəzində 400 min kubmetr yararlı karxana materiallarından istifadə edilib. "Bakı Ağ şəhər"in ərazisində layihəyə uyğun olaraq 22,4 kilometr uzunluğunda 16-47 metr enində iki, dörd və altı hərəkət zolağından ibarət olan 63 avtomobil yolunda işlər davam etdirilib. Ümumi uzunluğu 1420 metr olan Birinci Fəvvarələr, Birinci Yaşıl ada, İkinci Yaşıl ada, Altıncı park və Mərkəzi Şərq küçələrində 550 min kubmetr torpaq işi görülüb, 36 min kvadratmetr sahəyə asfalt-beton döşənib, inşaat işlərində 400 min kubmetr karxana materiallarından istifadə edilib, 22 min kvadratmetr səki salınıb, 150 işıq dirəyi quraşdırılıb, yollar boyunca müxtəlif növ 240 ağac əkilib.




Sonra Prezident İlham Əliyev Birinci Fəvvarələr küçəsinin rəmzi açılışını bildirən lenti kəsdi.

"Ağ şəhər" yollarının təmir işləri çərçivəsində cari ildə Birinci Fəvvarələr küçəsinin Nobel prospektinə çıxışı təmin olunub. Uzunluğu 560, eni isə 32 metr olan bu küçə Yaşıl ada və Fəvvarələr meydanı kvartallarını kəsir və şimalda Mərkəzi Bulvar küçəsinə, cənubda isə Nobel prospektinə çıxır. Dördzolaqlı Birinci Fəvvarələr küçəsində, digər küçələrdə olduğu kimi, avtodayanacaq və piyadaların təhlükəsizliyi də nəzərə alınıb. Burada layihəyə uyğun olaraq yolaltı infrastruktur işləri - çirkab və yağış suları kollektorları, elektrik xətləri, qaz təminatı boruları və İT kanal sistemləri çəkilib. Küçənin adı səkilərdə daş nişanlarla qeyd edilib, vətəndaşları istiqamətləndirən yolgöstəricilər quraşdırılıb. Səkilərdə yaşıllıqlar, arabalar üçün panduslar salınıb, həmçinin avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulub. Yeddimərtəbəli binaları əhatə edən küçənin Nobel prospektinə birləşən 90 metrlik hissəsində istinad divarı tikilib.

* * *

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tikintisi yekunlaşan Fəvvarələr Meydanı parkı ilə tanış oldular.

"Bakı Ağ şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına məlumat verdi ki, təməli 2016-cı ilin dekabr ayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulmuş Fəvvarələr Meydanı parkı piyada keçidi və 800 yerlik ictimai parkinq kompleksinin bir hissəsidir. Tikintisi əsasən başa çatmış Fəvvarələr meydanı kvartalının mərkəzində yerləşən parkda geniş istirahət zonaları, üç fəvvarə kompleksi, uşaqların təhlükəsiz əyləncəsi üçün geniş meydança, gözəl landşaft dizaynı mövcuddur. "Bakı Ağ şəhər"in hər bir guşəsində olduğu kimi, burada da klassika, müasirlik və qarışıq üslub, müxtəlif nou-haular, hay-teklər, tikinti materiallarının incə zövqlə seçimi, özünəməxsus memarlıq elementləri, ritmiklik, zəriflik, funksionallıq, konstruktivlik, elmi-texniki yeniliklərin tətbiqi, hər addımda nəfis ideyalar və bir-birindən üstün çalarların yer alması özünü qabarıq göstərir. Parkın bəzi hissələri Qara şəhərin keçmiş tikililərindən qalma daşlarla döşənib. Parkda Ağ şəhər layihəsi və ərazinin tarixi olan Qara şəhər haqda məlumatlandırıcı lövhələr, küçə saatı, termometr, xatirə medalyonu quraşdırılıb. Burada 2018-ci ilin sentyabrında Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş "Daşın nəğməsi" Üçüncü Beynəlxalq Heykəltəraşlıq Simpoziumu çərçivəsində təqdim edilmiş heykəl qoyulub. Fəvvarələr Meydanı parkı və piyada keçidi Ağ şəhər boyunca piyadaların gəzintisi və mənalı istirahətinə geniş imkanlar açacaq. Belə ki, piyadalar şimalda yerləşən Babək prospektindən Mərkəzi park rayonu, Fəvvarələr meydanı və Nobel prospekti üzərindən körpü vasitəsilə birbaşa Ağ şəhər bulvarına qədər 2 kilometrlik maneəsiz gəzintiyə çıxa biləcəklər. Piyadalar həmçinin körpüdə yerləşdiriləcək eskalator və liftlər vasitəsilə metronun "Ağ şəhər" stansiyasına rahat gediş-gəliş əldə edəcəklər. Eni 7-14 metr, uzunluğu 237 metr olan körpünün üst qatı cənubda "Baku City Mall" alış-veriş mərkəzinə, şimalda Fəvvarələr meydanının mərkəzinə, Birinci Fəvvarələr küçəsinə, körpünün alt qatı isə Nobel prospektində yerləşən Zaman meydanına çıxacaq.

Sonra dövlət başçısına ötən illərdə "Ağ şəhər"də həyata keçirilən və perspektivdə reallaşdırılması nəzərdə tutulan layihələr barədə məlumat verildi.

Qeyd olundu ki, "Bakı Ağ şəhər" layihəsi ərazisində Xəzər dənizindən 25 metr hündürlükdə yerləşən Park rayonunda da inşaat işləri davam edir. Burada tikilən iyirmimərtəbəli yaşayış binalarının hündür podiumlarının üzərində istirahət və yaşıllıq zonaları, uşaq meydançaları olacaq. Hazırda burada tikinti, quruculuq və abadlıq işləri aparılır. Nizami parkının yaxınlığında bu rayonda "Knightsbridge (Naytsbric) Residence" kompleksinin tikintisi davam edir. Bu kompleksdə yaşayış binaları, biznes mərkəzi və məktəbin tikintisi planlaşdırılıb. Park rayonunun sakinlərə təhvili 2019-cu ilin sonunda gözlənilir.

Babək prospektindən başlayan yeni Mərkəzi Şərq küçəsi Babək kvartalını iki hissəyə bölür. Eni 37, uzunluğu 470 metr olan Mərkəzi Şərq küçəsində yerləşəcək yeni Qarabağ Atları meydanının layihəsi hazırdır. Kvartalın mərkəzinə çevriləcək meydanda sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün hərtərəfli şərait yaradılacaq, burada mağazalar, kafelər və mərkəzində 7 atdan ibarət fəvvarələr kompleksi inşa olunacaq.

2018-ci ildə Bakı Şəhər İcra Hakimiyyətinin müvafiq sərəncamı çərçivəsində layihənin qərbində yerləşən 26,7 hektar xaotik tikintili və infrastrukturu olmayan yeni ərazinin texniki inventarlaşdırılması aparılıb, Şəhərsalma və Arxitektura Komitəsinin tövsiyələri əsasında inşa olunacaq tikililərin memarlıq göstəriciləri, şəhərsalma, nəqliyyat və digər infrastrukturu "Ağ şəhər" layihəsi ilə uzlaşdırılıb və müfəssəl planı hazırlanıb. Bununla yanaşı, inşa olunacaq çoxsaylı bina, yol, park, məktəb, servis obyektləri, digər ərazi-planlaşdırma və infrastruktur işlərinin layihələndirilməsi də yerinə yetirilərək cari ildə nəzərdə tutulan bütün işlər yekunlaşdırılıb. Ərazisi 7800 kvadratmetr olan Zaman meydanı şimal tərəfdən gözəl landşaft və fəvvarələr kompleksi ilə əhatə olunacaq. Metronun "Ağ şəhər" stansiyasının çıxışlarından biri də burada yerləşir. Meydan xüsusi sifariş edilmiş çoxsaylı saatlarla bəzədiləcək.

* * *

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağ şəhər piyada körpüsünün və Zaman meydanının təməlini qoydular.

Təməlqoyma mərasimindən sonra xatirə şəkli çəkdirildi.

"Bakı Ağ şəhər"də ötən müddətdə həyata keçirilən işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Gürcüstanın Baş naziri Mamuka Baxtadze dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Mamuka Baxtadze Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni-yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstanın Baş naziri Mamuka Baxtadze ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluqlarını ifadə edib və əmin olduqlarını bildiriblər ki, 2019-cu ildə də əlaqələrimiz uğurla inkişaf edəcəkdir.

Dekabrın 24-də Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Serbiya Prezidenti dövlətimizin başçısını ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirərək, əməkdaşlığımızın qarşıdakı illərdə də genişlənəcəyinə əminliklərini ifadə ediblər.

## Milli Məclisin nümayəndə heyəti İran İslam Respublikasında səfərdə olacaq

Dekabrın 25-26-da Milli Məclisin Sədri Oqtay Əsədovun başçılığı ilə parlament nümayəndə heyəti İran İslam Respublikasında rəsmi səfərdə olacaq.

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə parlamentin komitə sədrləri Eldar İbrahimov, İsa Həbibbəyli, Hadi Rəcəbli, deputatlardan Hüseynbala Mirələmov, Şəmsəddin Hacıyev, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Ölkənin paytaxtı Tehranda parlament sədrinin İran İslam Respublikasının Prezidenti Həsən Ruhani, İslam Şurası Məclisinin sədri Əli Laricani, Milli Təhlükəsizlik üzrə Ali Şuranın katibi Əli Şamxani, xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə görüşləri nəzərdə tutulub. Bu görüşlərdə iki ölkə arasında əməkdaşlığın daha da dərinləşməsi, parlamentlərarası əlaqələrin bugünü və gələcək inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılacaq.

Səfər çərçivəsində nümayəndə heyətimizin üzvləri Urmiya şəhərində olacaqlar. Burada deputatlarımızın Qərbi Azərbaycan vilayətinin valisi Məhəmməd Mehdi Şəhriyarla görüşü gözlənilir.

# Serbiyada İlham Əliyevin səfərini səbirsizliklə gözləyirlər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 24-də Serbiya Respublikasının Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiç ilk növbədə Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik etdi, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzuladı. Eyni zamanda, Rasim Lyayiç Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdıraraq, Serbiya tərəfinin Prezident İlham Əliyevin Belqrada səfərini səbirsizliklə gözlədiyini bildirdi. O, Belqradda Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci iclasının uğurla keçirildiyini vurğulayaraq, orada əməkdaşlığımızın genişlənməsi ilə bağlı istiqamətlərin müəyyən edildiyini diqqətə çatdırdı.

Dövlət başçısı Serbiyanın Baş nazirinin müavini, ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçin səfərinin əlaqələrimizin perspektivləri ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Serbiya Prezidenti ilə bu il beynəlxalq tədbirlər çərçivəsində təmaslarını məmnunluqla xatırlayan Prezident İlham Əliyev müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsi baxımından əhəmiyyətli olduğunu qeyd etdi. Söhbət zamanı ikitərəfli münasibətlərimizin strateji tərəfdaşlıq səviyyəsində uğurla inkişaf etdiyi bildirildi, iqtisadi sahədə əməkdaşlığın siyasi sahədə əlaqələrin səviyyəsinə yüksəlməsi istiqamətində səmərəli işlərin həyata keçirildiyi bildirildi, əməkdaşlığımızın bütün sahələrdə, o cümlədən infrastruktur, kənd təsərrüfatı, turizm və informasiya-kommunikasiya texnologiyaları sahələrində dinamik şəkildə inkişaf etdiyi qeyd olundu.

Dövlətimizin başçısı Serbiya Prezidenti Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiya Prezidentinə çatdırmağı xahiş etdi.

# “Möhtəşəm quruculuq. Dünən, bu gün, sabah” mövzusunda konfrans

Dekabrın 24-də Bakıda Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə “Möhtəşəm quruculuq. Dünən, bu gün, sabah” mövzusunda konfrans keçirilib.




AZƏTAC xəbər verir ki, konfransda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Yeni Azərbaycan Partiyasının üzvləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli Əhmədov konfransda çıxış edərək ölkəmizin inkişafının ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ilə bağlı olduğunu qeyd edib. Vurğulayıb ki, Bakı şəhərinin əsaslı surətdə yenilənməsi buna bariz nümunədir. Lakin bu inkişaf təkcə Bakı ilə məhdudlaşmır, bütün bölgələrimizi əhatə edir. Bu əhəmiyyətli dəyişikliklərin müəllifi olan Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə quruculuq işləri aparılır. Son 15 il Azərbaycanın xüsusi qürur doğuran səhifəsini təşkil edir. Bu illər ərzində Azərbaycanda bütün sahələr yenilənib, müasirləşib. Ən başlıcası, insanlarımızın həyat səviyyəsi dəyişib, əhalinin güzəranı daha da yaxşılaşıb.



Əli Əhmədov qeyd edib ki, ölkədə son 15 ildə baş verən möhtəşəm inkişaf bütün sahələri əhatə edib. Qürur hissi ilə qeyd ediləcək məqamlardan biri də həyatımızın bütün sahələrinin yeni, modern əsaslarla qurulmasıdır. Bu gün biz Azərbaycanın ən parlaq dövrünü yaşayırıq.

Baş nazirin müavini bildirib ki, son 15 il ərzində aparılan quruculuq işlərinin nəticəsi olaraq, Azərbaycanın hər bir guşəsi tanınmaz dərəcədə dəyişib. Bakının müasir siması, infrastrukturunun tamamilə yenilənməsi bu nailiyyətlərin mühüm tərkib hissəsidir. Azərbaycanın bütün bölgələrində möhtəşəm quruculuq işləri bu gün də davam etdirilir.

İqtisadiyyat naziri Şahin Mustafayev çıxışında deyib ki, yaradılmasının 26-cı ildönümünü şərəflə qeyd edən Yeni Azərbaycan Partiyası ideyalarını uğurla yaşatdığı ümummilli liderin siyasi və ideoloji irsinin, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin düşünülmüş, praqmatik və çevik siyasətinin harmoniyasıdır.

2003-cü ildə Azərbaycanı qüdrətli dövlətə çevirəcəyini bəyan edən Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində respublikamız regionun siyasi-iqtisadi və mədəni mərkəzi, qlobal enerji və nəqliyyat layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, dünya miqyasında mühüm enerji təminatçılarından biri, mötəbər beynəlxalq tədbirlərə uğurla evsahibliyi edən ölkə kimi tanınıb, kosmos dövlətləri ailəsinə qoşulub, 2011-ci ildə 155 ölkənin dəstəyini qazanaraq BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib.

Azərbaycanın yüksək inkişaf tempi və möhkəm dayanıqlılıq nümayiş etdirdiyini vurğulayan Şahin Mustafayev bildirib ki, 2004-2017-ci illərdə ÜDM real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,8 dəfə, sənaye istehsalı 2,6 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, əsas kapitala yönəldilmiş vəsaitlər 3 dəfə, dövlət büdcəsinin gəlirləri 13,5 dəfə artıb. Ölkənin strateji valyuta ehtiyatları 28 dəfə artaraq 45 milyard ABŞ dollarını ötüb. Həyata keçirilən sistemli tədbirlər nəticəsində ötən il kənd təsərrüfatı və emalı məhsullarının ixracı 28,6 faiz, bu ilin 11 ayında isə 11,8 faiz artıb. Son 15 ildə 2 milyondan çox iş yeri yaradılıb ki, bunun da 75 faizi regionların payına düşür.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov son 15 il ərzində Bakıda aparılan genişmiqyaslı quruculuq işləri barədə danışıb. Qeyd edib ki, paytaxtımız simasını tamamilə dəyişərək dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Prezident İlham Əliyevin təşəbbüskarı olduğu layihələr nəticəsində Bakı, həmçinin investorlar üçün cəlbedici məkan kimi tanınır. Son bir ildə paytaxtımıza 12 milyard manat investisiya qoyulub. 2005-ci ildən indiyədək Bakıda sənaye istehsalı 4 dəfə artıb. Bakı 5 ulduzlu hotellərin sayına görə postsovet məkanında ilk yerlərdə qərarlaşıb. Təkcə bu il Bakıya 2 milyondan çox turist gəlib.

İcra hakimiyyətinin başçısı xatırladıb ki, beynəlxalq agentliklərin reytinqinə görə, Bakı turistlər üçün memarlıq abidələri ilə yadda qalan 5 şəhərdən biri hesab edilir. Dünyanın mədəniyyət mərkəzlərindən birinə çevrilən paytaxtımız öz tarixinin misilsiz inkişaf dövrünü yaşayır. Bütün bunların əsasında İlham Əliyev fenomeni dayanır.

Tədbir bədii hissə ilə davam edib.

# “İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018” adlı sənədli filmin və kitabın təqdimat mərasimi keçirilib

Dekabrın 24-də Heydər Əliyev Mərkəzində “İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018” adlı sənədli filmin və kitabın təqdimat mərasimi keçirilib.



Filmin ssenari müəllifləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov və “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC-nin sədri Arif Alışanovdur. Kitabın buraxılışına məsul Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev, tərtibçi müəllifləri Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri Aslan Aslanovdur. Kitaba “Ön söz”ü tarix elmləri doktoru, professor Əli Həsənov yazıb.

AZƏRTAC xəbər verir ki, filmin nümayişindən sonra çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini - icra katibi Əli Əhmədov ölkəmizin müasir dövrdəki nailiyyətlərinin Prezident İlham Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Qeyd edib ki, təqdimatı keçirilən filmi və kitabı Prezident İlham Əliyevin rəhbərliyi ilə son on beş ildə Azərbaycanda əldə edilən uğurların salnaməsi adlandırmaq olar. Filmin və kitabın yüksək səviyyədə hazırlandığını deyən Əli Əhmədov müəlliflərə yeni yaradıcılıq uğurları arzulayıb.



Təqdimat mərasiminin çox gözəl bir günə - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin doğum gününə təsadüf etdiyini xatırladan Əli Əhmədov fürsətdən istifadə edərək özünün və tədbir iştirakçılarının adından dövlət başçısını təbrik edib, ona Azərbaycan və xalqımız naminə bundan sonrakı fəaliyyətində daha böyük uğurlar və qələbələr arzulayıb. O deyib: “Bu uğurlar, bu nailiyyətlər, sözün həqiqi mənasında, o qədər böyük və əzəmətlidir ki, Azərbaycan və İlham Əliyev sözləri indi bir-biri ilə eyniyyət təşkil edir. Əlbəttə ki, bu gün Azərbaycanı İlham Əliyevsiz, onun həyata keçirdiyi siyasətdən ayrılıqda təsəvvür etmək çox çətindir. Azərbaycanın möhtəşəm nailiyyətlərini, əslində isə Azərbaycanın möcüzəsini, Azərbaycanın bütövlükdə inkişafını bugünkü dünyanın ən böyük siyasi layihələrindən biri hesab etmək mümkündür. XX əsrin 90-cı illərinin əvvəllərində total, hərtərəfli böhranın məngənəsində sıxılan Azərbaycan çox qısa bir vaxtdan sonra - XXI əsrin əvvəllərində dünyanın ən sürətlə inkişaf edən ölkəsinə çevrildi. Bunu möcüzədən başqa bir sözlə ifadə etmək qeyri-mümkündür. Nümayiş olunan filmdə və təqdim edilən kitabda Azərbaycan möcüzəsinin bütün tərəfləri, istiqamətləri və məqamları öz əksini tapıb. Azərbaycan möcüzəsi - bu ifadə bütövlükdə ölkəmizin inkişafını, yüksəlişini hərtərəfli əhatə edən bir anlayışdır”.

Ötən on beş il ərzində Azərbaycanın iqtisadiyyatının üç dəfədən çox artdığını, inkişaf tempinə görə dünyada birinci yer tutduğunu və bir neçə il ardıcıllıqla bu statusu saxladığını, 2 milyona yaxın yeni iş yerinin açıldığını xatırladan Əli Əhmədov bütün bunların sayəsində ölkəmizin yeniləşdiyini, modernləşdiyini qeyd edib, ordu quruculuğu sahəsində əldə olunan nailiyyətləri vurğulayıb, bütün bu uğurların xalqımızın qürur mənbəyinə çevrildiyini bildirib.

On beş il ərzində həyatın bütün sahələrində böyük irəliləyişlər baş verdiyini, möhtəşəm uğurlar qazanıldığını diqqətə çatdıran Əli Əhmədov qeyd edib ki, ölkəmiz coğrafi baxımdan kiçik əraziyə malik olsa da, həyata keçirdiyi qlobal layihələr sayəsində dünyanın humanitar, siyasi, enerji, nəqliyyat, kommunikasiya, idman mərkəzlərindən birinə çevrilib.

“Bu gün Azərbaycan, sözün həqiqi mənasında, özünün qızıl əsrini yaşamaqdadır və bu dövr hələ uzun müddət davam edəcək. Azərbaycanın inkişafı, Azərbaycanın möcüzələri, Azərbaycanın tərəqqisi insanlarımızın məmnunluğunu artırıb. Bu gün Azərbaycan vətəndaşı öz həyatından məmnundur. Bu gün Azərbaycan insanların arzularının həyata keçirildiyi bir məmləkətə çevrilib. Həmçinin bu istək və arzuların reallaşması üçün Azərbaycan dövləti və hökuməti lazım olan bütün şəraiti və imkanları təmin edir. Azərbaycanın qızıl əsrinin başlıca müəllifi Heydər Əliyev siyasətini uğurla həyata keçirən Prezident İlham Əliyevdir. On beş ilin nailiyyətləri Azərbaycan vətəndaşlarında belə bir inamı qəti surətdə formalaşdırıb ki, Azərbaycan bundan sonra da taleyini Heydər Əliyev siyasəti və bu siyasəti uğurla həyata keçirən İlham Əliyevlə bağlamalıdır. Çünki bu siyasət və onu həyata keçirən İlham Əliyev Azərbaycana həmişə uğur gətirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda on beş il ərzində əldə olunan nailiyyətlərin fundamental əsaslarından biri Heydər Əliyev siyasəti, habelə dövlət başçısının şəxsi keyfiyyətləri ilə bilavasitə əlaqədardırsa, digər bir səbəbi də İlham Əliyevin bu uğurları, bu inkişafı ürəkdən istəməsi, yəni niyyətinin bu uğurlarla eyniyyət təşkil etməsi ilə bağlıdır. İlham Əliyev nə qədər Azərbaycana rəhbərlik edirsə, ölkəmiz bir o qədər inkişaf edəcək, növbəti illərdə daha böyük uğurlar qazanacaq. Azərbaycanı Prezident İlham Əliyevin rəhbərliyi ilə daha böyük nailiyyətlər gözləyir”, - deyə Əli Əhmədov vurğulayıb.

“İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018” kitabının tərtibçi və eyniadlı filminin ssenari müəlliflərindən biri, Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov** çıxışında qeyd edib ki, 15 illik uğurların əsasında Prezident İlham Əliyevin ümummilli liderin kursuna sədaqətli obrazı dayanır. Ümummilli liderin kursuna sədaqətlə xidmət etmək, onu qətiyyətlə həyata keçirmək bu uğurların başlıca təməlidir. Prezident İlham Əliyev okeanlara çıxışı olmayan Azərbaycanı dünyanın nəqliyyat, logistika mərkəzinə çevirib. Dövlət başçısı dünya liderləri sırasında qlobal düşüncəsi, beynəlxalq aləmdə baş verən hadisələrə sistemli yanaşması, qətiyyəti, prinsipiallığı, insanpərvərliyi, humanistliyi ilə seçilir. Bütün bu keyfiyyətlər Azərbaycanın hər bir sahədə yüksək inkişafını təmin edir.

Prezident İlham Əliyevin şəxsi liderlik keyfiyyətləri ilə bağlı bəzi məqamların təqdim olunan kitabda və filmdə əks etdirildiyini bildirən Əli Həsənov deyib ki, dövlət başçısı həddən artıq sədaqətli insandır. O öz əqidəsinə, inandığı işə, ona etibar olunmuş əmanətə, xalqına, dövlətinə, partiyasına, qəbul etdiyi ideyalara, ümummilli liderin irsinə, Azərbaycan xalqının milli mənəvi dəyərlərinə həmişə sədaqətli olub. Prezident İlham Əliyevin həyata keçirdiyi işlər ümummilli liderin ideyaları və Azərbaycan xalqının əsas maraq və mənafeləri üzərində qurulub. Həm filmdə, həm də kitabda bu xətt qabarıq şəkildə əks etdirilib. İlham Əliyev 15 illik prezidentlik dövründə qlobal və sistemli strateji düşüncə tərzinə malik olduğunu nümayiş etdirə bilib. Həm ölkə daxilində gördüyü işlər, həm də yürütdüyü xarici siyasət, onun təşəbbüsü ilə gerçəkləşən əməkdaşlıq platformaları, həyata vəsiqə alan beynəlxalq və regional əhəmiyyətli layihələr onillər, yüzillər sonra da Azərbaycana, Azərbaycan vətəndaşlarına fayda gətirəcək, dövlətimizin qüdrətlənməsinə xidmət edəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə təmin edilmiş sabitlik Azərbaycanı təhlükəsiz, geosiyasi problemlər vəd etməyən cəlbedici ixrac mənbəyinə, enerji və nəqliyyat xabına çevirib. Bütün bunlar uzun illər Azərbaycanın rifahını, dövlətimizin davamlı inkişafını təmin edəcək.

Prezident İlham Əliyevin praqmatik və realist siyasi xadim olduğunu vurğulayan Əli Həsənov deyib ki, dövlət başçısı həyata keçirdiyi siyasətin nəticələrini əvvəlcədən hesablayır, aydın konturlarını cızır. Azərbaycan dövləti proqramlarla idarə olunan, proqnozlaşdırıla bilən bir siyasət yürüdür. İlham Əliyev hansı hədəfləri müəyyən edirsə, hansı vədləri verirsə, proqramlaşdırıb həyata keçirir. Onun ölkəyə rəhbərlik etdiyi illərdə minimum aylıq əməkhaqqının məbləği 14,4 dəfə, orta aylıq əməkhaqqının məbləği 6,8 dəfə, əmək pensiyasının orta aylıq məbləği 11,3 dəfə artıb. Ötən 15 ildə ardıcıl olaraq həyata keçirilmiş tədbirlər, icra edilmiş proqramlar sayəsində əhalinin aztəminatlı təbəqəsinin ümumi əhali nisbətində xüsusi çəkisi azalıb, yoxsulluq 49 faizdən 5 faizə düşüb.

“Prezident İlham Əliyevin Azərbaycan xalqının maraqlarını beynəlxalq müstəvidə necə qətiyyətlə müdafiə etdiyi sizə təqdim olunan kitabda və nümayiş etdirilən filmin kadrlarında öz əksini tapıb”, - deyən Ə.Həsənov bildirib ki, dövlət başçısının rəhbərliyi ilə icra olunan strateji kurs ölkəmizin beynəlxalq arenada nüfuzunun və rolunun durmadan yüksəldilməsinə yönəlib. Onun liderlik keyfiyyətləri, dərin zəkası, böyük erudisiyası, qlobal düşüncəsi, intellekti, çevik qərarlar qəbul etmək bacarığı müasir dünya nizamında Azərbaycanın yerini, nüfuzunu, çəkisini müəyyən edir. İlham Əliyevin təşəbbüsləri, reallaşdırdığı proqram və layihələr ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün ciddi zəmin yaradıb. Dünyada siyasi və iqtisadi vəziyyətin heç də ürəkaçan olmadığı indiki zamanda Azərbaycan davamlı tərəqqi nümayiş etdirir. İlham Əliyevin siyasi iradəsi Azərbaycanı regionda sabitlik, tərəqqi adasına, regional cazibə mərkəzinə çevirib, bu gün Azərbaycan həm də regionda sülhün, asayişin qarantıdır.

Prezident İlham Əliyevin islahatçı, novator lider olduğunu diqqətə çatdıran Əli Həsənov qeyd edib ki, beynəlxalq qurumlar ölkədə həyata keçirilən islahatları yüksək qiymətləndirirlər. Azərbaycanın təqdim etdiyi “ASAN xidmət” brendi BMT-nin “Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi” kateqoriyasında birinci yerə layiq görülüb. “Doing Business” hesabatına görə, Azərbaycan dünyada “ən islahatçı ölkə” hesab olunur. Bu gün Azərbaycan sülh, əməkdaşlıq və dialoq platforması kimi tanınır, beynəlxalq etimadın artmasına öz töhfələrini verir. 2017-ci ildən etibarən Bakıda ABŞ və Rusiya, NATO və Rusiya hərbi rəhbərliyinin görüşlərinin keçirilməsi ənənəvi hal alıb, Rusiya ilə Türkiyə arasında gərginliyin azaldılmasına Azərbaycanın verdiyi dəstək artıq hər iki ölkənin müxtəlif səviyyəli siyasiləri tərəfindən dönə-dönə etiraf olunub. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü və sədrliyi dövründə qaldırdığı məsələlər, dövlətimizin təşəbbüsü ilə beynəlxalq qurumlarda qəbul olunmuş qətnamələr, başladılmış “Bakı prosesi”, Bakını “humanitar Davos” kimi tanıdan çoxsaylı beynəlxalq təşəbbüslər dövlətimizi beynəlxalq əməkdaşlığın, sülhün əsas müdafiəçilərindən birinə çevirib. 2019-2022-ci illərdə dünyanın 120 ölkəsinin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edərkən də Azərbaycan bu siyasətini davam etdirəcək.

Prezidentin köməkçisi çıxışının sonunda deyib: “Film və kitabın hazırlanması böyük zəhmət hesabına başa gəlib, İlham Əliyevin 15 illik prezidentliyi dövründə keçirdiyi təxminən 10 minə qədər tədbir, açılış, görüş və çıxışlar təhlil edilib, ensiklopedik formada hazırlanıb. Fürsətdən istifadə edib həm filmin, həm də kitabın ərsəyə gəlməsində əməyi keçmiş hər kəsə, xüsusən də “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin sədri Arif Alışanova, eləcə də Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) İdarə Heyətinin sədri Aslan Aslanova və onların rəhbərlik etdiyi kollektivlərə öz dərin təşəkkürümü bildirirəm”.

Qeyd edək ki, “İlham Əliyev. On beş illik prezidentlik dövrünün uğur salnaməsi. 2003-2018” kitabı bu tarixi və olduqca zəngin bir dövrə işıq salır. Nəşrin əsas məziyyətlərindən biri minimum sözlə maksimum məna ifadə etməsi, sanballı fikir yükü daşımasıdır. Azərbaycan Prezidentinin cild-cild kitablar, çoxsaylı tədqiqatlar üçün mövzu ola biləcək çoxşaxəli fəaliyyəti nəşrdə yığcam, eyni zamanda dolğun əksini tapıb. Dərin ümumiləşdirmə və təhlil, elmi-praktik yanaşma nəticəsində Prezident İlham Əliyevin 15 illik titanik dövlətçilik fəaliyyətinin diqqətçəkən salnaməsi, Azərbaycanın müasir tarixinin çox parlaq bir dövrünün dolğun mənzərəsi yaradılıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Qardaş Azərbaycanın uğurlu və daimi inkişafı Sizin rəhbərliyinizlə həyata keçirilən güclü, müstəqil dövlət quruculuğu xətti ilə ayrılmaz surətdə bağlıdır.

Dinamik və hərtərəfli əlaqələr, qarşılıqlı anlaşma və ali səviyyədə dialoqun etimada əsaslanması Belarus-Azərbaycan münasibətlərinin fərqləndirici cəhətidir və xalqlarımız arasında dostluq ənənələrini genişləndirir.

Əminəm ki, bu yaxınlarda Sizin Belarusa səfəriniz zamanı əldə edilmiş razılaşmaların gerçəkləşməsi Minsk ilə Bakı arasında davamlı və çoxşaxəli əməkdaşlığın inkişafına, hər iki ölkənin vətəndaşlarının rifahının yüksəldilməsinə sanballı töhfə verəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xoş güzəran və bütün niyyətlərinizin həyata keçməsini arzu edirəm.

*Hörmətlə,*

**Aleksandr LUKAŞENKO,**
*Belarus Respublikasının Prezidenti*

❖ ❖ ❖

Hörmətli cənab Prezident, əziz dost!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi, Sizə möhkəm cansağlığı, yaxınlarınızın və dostlarınızın əhatəsində xoşbəxt həyat diləklərimi qəbul edin. Mən Azərbaycanı tərəqqi və inkişaf yolu ilə aparmağa davam etməniz üçün Sizə məsuliyyətli Prezident vəzifəsində böyük uğurlar arzu edirəm. Azərbaycanın qazandığı nailiyyətlər məndə güclü təəssürat oyadıb. Buna görə ürəkdən şadam və əminəm ki, Sizin uzaqgörənliyiniz və fədakarlığınız sayəsində Azərbaycan qarşıya qoyulan bütün məqsədlərə çatacaq.

Mən Serbiya-Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirəm. Mənə çox xoşdur ki, aramızdakı coğrafi məsafəyə baxmayaraq, ölkələrimizi ənənəvi dostluq, habelə qarşılıqlı hörmət və etimad telləri bağlayır. Əminəm ki, biz bütün sahələrdə əməkdaşlığı möhkəmləndirmək üçün imkanlardan birgə fəaliyyətimizlə istifadə edəcəyik.

Mən Kosovonun müstəqilliyinin birtərəfli qaydada elan olunmasını tanımamaqla bağlı Azərbaycanın prinsipial mövqeyinə, habelə suverenliyinin və ərazi bütövlüyünün saxlanılması üçün beynəlxalq təşkilatlarda Serbiyaya göstərdiyiniz dəstəyə görə Sizə xüsusi təşəkkürümü bildirirəm. Serbiya da BMT-nin üzvü olan bütün ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmətə prinsipial olaraq sadiqdir və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə dair səyləri alqışlayır.

Zati-aliləri, fürsətdən istifadə edərək, Sizi bir daha Serbiyaya dəvət edirəm. Əminəm ki, Sizin səfəriniz Serbiya ilə Azərbaycan arasında sıx münasibətlərə xüsusi töhfə verəcək.

Cənab Prezident, Sizə ən dərin ehtiramımı qəbul edin.

*Hörmətlə,*

**Aleksandr VUÇİÇ,**
*Serbiya Respublikasının Prezidenti*

❖ ❖ ❖

Zati-aliləri, hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi təbrik etmək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik diləmək mənim üçün böyük şərəfdir və buna görə məmnunam.

Fürsətdən istifadə edərək, xalqlarımız arasında, xüsusən qarşılıqlı maraq doğuran məsələlərdə dostcasına münasibətlərin daha da yaxşılaşdırılmasına sadiq olduğumu bildirmək istəyirəm.

Hörmətli Prezident, icazə verin qarşıdan gələn 2019-cu ildə Sizə və ailənizə ən xoş arzularımı bildirim. Mənim dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Milorad DODİK,**
*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü*

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Gürcüstan hökuməti adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, iki dost ölkə və xalq arasında dostluğa, qarşılıqlı etibara əsaslanan yaxın və möhkəm əlaqələrimiz gələcəkdə daha da möhkəmlənəcəkdir. Əminəm ki, bizim nümunəvi tərəfdaşlığımız regionda sülhün və təhlükəsizliyin qorunmasında böyük rol oynamaqdadır.

Hörmətli cənab Prezident, ürək sözlərimi ifadə edərək, Sizə öz dərin ehtiramımı, ən xoş arzularımı çatdırır, möhkəm cansağlığı və xoşbəxtlik diləyirəm.

*Hörmətlə,*

**Mamuka BAXTADZE,**
*Gürcüstanın Baş naziri*

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə MDB üzvü olan dövlətlərin Parlamentlərarası Assambleyası Şurası adından səmimi təbriklərimizi qəbul edin.

Siz - görkəmli siyasi və dövlət xadimi olaraq Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı, onun beynəlxalq aləmdə nüfuzunun möhkəmlənməsi üçün çox iş görürsünüz. Birlik ölkələrinin parlamentariləri MDB üzvü olan dövlətlər arasında çoxplanlı qarşılıqlı faydalı əməkdaşlığın inkişafına və dostluq əlaqələrinin genişlənməsinə Sizin böyük şəxsi töhfənizi yüksək qiymətləndirirlər.

İcazə verin, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan Respublikasının firavanlığı naminə fəaliyyətinizdə yeni uğurlar diləyək.

*Hörmətlə,*

**Yuri OSİPOV,**
*MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibi,*

**Aydın CƏFƏROV,**
*MDB Parlamentlərarası Assambleyası Şurasının baş katibinin müavini*

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Biz Sizi Azərbaycan xalqının inkişafına və firavanlığına yönəlmiş, ölçülübbiçilmiş siyasət yürüdən müdrik siyasi xadim və öz ölkəsinin vətənpərvər oğlu kimi tanıyırıq.

Əminəm ki, Sizin sayənizdə Azərbaycan Respublikası bundan sonra da dövlətçilik və demokratiya təsisatlarının təkmilləşdirilməsi, davamlı iqtisadi və sosial inkişaf yolunda irəliləyəcək.

Şübhə etmirəm ki, xalqın sabit dəstəyi və etimadı, respublika vətəndaşlarının həyatını daha da firavanlaşdırmaq istəyi bundan sonra da Sizin ali dövləti fəaliyyətinizdə uğurlarınıza şərait yaradacaq.

İcazə verin, bu əlamətdar gündə Sizə və yaxınlarınıza səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq diləyim.

*Hörmətlə,*

**Müslüm XUÇİYEV,**
*Rusiya Federasiyası Çeçenistan Respublikası Hökumətinin sədri*

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

İcazə verin, Sizə dərin ehtiramımı bildirim və doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edim.

Azərbaycan daha çox Sizin sayənizdə beynəlxalq aləmdə yüksək nüfuz qazanıb, dövlətçiliyin möhkəmləndirilməsi sahəsində böyük nəticələrə və hərtərəfli inkişafa nail olub.

Biz Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi yüksək qiymətləndirir və qarşılıqlı fəaliyyətin bütün sahələrində Həştərxan vilayəti ilə əməkdaşlığın genişlənməsinə ayırdığınız daimi diqqətə görə Sizə xüsusi minnətdarlığımızı bildiririk.

Möhtərəm İlham Heydər oğlu, icazə verin, Sizə səmimi-qəlbdən uzun ömür, tükənməz quruculuq enerjisi, ailə səadəti, Vətənin rifahı naminə fəaliyyətinizdə uğurlar və yeni zəfərlər diləyim.

*Hörmətlə,*

**Sergey MOROZOV,**
*Rusiyanın Həştərxan vilayəti qubernatorunun vəzifəsini icra edən*

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirik. Sizə həyatın ən gözəl nemətləri olan möhkəm cansağlığı, tükənməz enerji, rifah və xoşbəxtlik diləyirik.

Qoy Tanrı Sizi və doğmalarınızı qorusun! Ölkənizin və bəşəriyyətin rifahı və inkişafı naminə bütün nəcib arzularınızın həyata keçməsini arzu edirik.

*Dərin hörmətlə,*

**Vardis VARDİNOYANNİS,**
*Yunanıstanın "Motor Oil Hellas", "Vegas Oil and Gas" şirkətlərinin sədri və xanımı Marianna Vardinoyannis*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə "CLAAS Global Sales" Məhdud Məsuliyyətli Cəmiyyətinin səhmdarları Helmut Klassın və Katrina Klaas-Mülhoyzerin, eləcə də "CLAAS" MMC-nin bütün kollektivi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı və prezidentlik fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram. Qoy Sizin səyləriniz Azərbaycan Respublikasına bundan sonra da rifah, sabitlik və sülh gətirsin!

Fürsətdən istifadə edərək, uzun illik uğurlu əməkdaşlığa görə Sizə təşəkkürümü bildirirəm. Eyni zamanda, Azərbaycanın "CLAAS" şirkəti üçün oynadığı strateji rolu xüsusi qeyd etmək istəyirəm. Biz həmişə öz fəaliyyətimizdə Azərbaycan fermerlərinin "CLAAS" şirkətinin kənd təsərrüfatı texnikası və xidmətlərindən yararlanmalarına və məmnun qalmalarına çalışırıq.

*Dərin hörmətlə,*

**Bernd LÜDEVİQ,**
*Almaniyanın "CLAAS Global Sales" Məhdud Məsuliyyətli Cəmiyyətinin İdarə Heyətinin üzvü, satış və marketinq üzrə icraçı direktor*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, doğum gününüz münasibətilə Sizə GUAM-ın Katibliyinin beynəlxalq heyəti adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırım. Sizə möhkəm cansağlığı, firavanlıq, xoşbəxtlik, Azərbaycanın daha da inkişafı naminə uzun illər boyu səmərəli fəaliyyət arzu edirəm!

Azərbaycan uzun illərdir ki, Sizin müdrik rəhbərliyinizlə sosial-iqtisadi və ictimai-siyasi həyatın bütün istiqamətləri üzrə parlaq nailiyyətlər nümayiş etdirir.

Sizin yürütdüyünüz ardıcıl, uzaqgörən daxili və xarici siyasət milli mənafelərin irəli çəkilməsi və ölkənin beynəlxalq iqtisadiyyata inteqrasiyası üzrə bir sıra mühüm strateji layihələrin uğurla həyata keçirilməsinə təminat verib. Bu siyasət həm də strateji əhəmiyyətli Qara dəniz-Xəzər dənizi məkanında Azərbaycanın mövqelərinin və geosiyasi rolunun möhkəmlənməsini təmin edib, bu regionun dünyada baş verən proseslərə daha sıx inteqrasiyasına kömək edib.

İnstitusional, iqtisadi və sosial sahələrdə islahatlar proqramının uğurla reallaşdırılması idarəçiliyin səmərəliliyinin artırılmasına, iqtisadiyyatın şaxələndirilməsinə və yeni iş yerlərinin yaradılmasına, əhalinin rifahının yüksəlməsinə, cəmiyyətin daha da demokratikləşməsinə şərait yaradıb. Bütün bunlar Azərbaycan vətəndaşlarının keyfiyyətli həyat səviyyəsinin durmadan yüksəlməsində öz əksini tapıb.

Azərbaycanın beynəlxalq nüfuzu da artır. Azərbaycanın fəal, çoxvektorlu və tarazlaşdırılmış xarici siyasəti ölkənin iqtisadi və müdafiə qüdrətini durmadan artıraraq regionda və onun hüdudlarından kənarda sabitliyin qarantına çevrilib, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi üçün ilkin şərait yaradır.

Beynəlxalq ictimaiyyət mədəniyyətlərarası dialoqun və xalqlar arasında qarşılıqlı anlaşmanın, multikulturalizmin və tolerantlığın təbliğinin inkişafı üçün Sizin yorulmadan göstərdiyiniz səyləri və Azərbaycanın bu işə töhfəsini yüksək qiymətləndirir.

Zati-aliləri, biz Demokratiya və İqtisadi inkişaf uğrunda təşkilatın - GUAM-ın əsasını qoymuş dövlətlərdən biri kimi Azərbaycanın bizim strateji tərəfdaşlar olan dost ölkələr arasında əməkdaşlığın daha da inkişaf etməsinə və dərinləşməsinə töhfəsini yüksək qiymətləndiririk. GUAM-ın coğrafiyası üzv dövlətlərin, o cümlədən Azərbaycanın milli maraqlarının inkişafı və müdafiəsi üçün ən mühüm məkanlardan biridir. Əminik ki, GUAM çərçivəsində əməkdaşlıq potensialının reallaşdırılması strateji əhəmiyyətli bu coğrafiyanın sülh, sabitlik, təhlükəsizlik və firavanlıq məkanına çevrilməsinə, ölkələrimizin müstəqilliyinin və suverenliyinin möhkəmlənməsinə xidmət edəcək.

Hörmətli İlham Heydər oğlu, icazə verin, fürsətdən istifadə edib bu bayramqabağı günlərdə Sizi həm də qarşıdan gələn Yeni il münasibətilə təbrik edim, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik və ölkənin daha da firavanlaşması naminə planlarınızın həyata keçirilməsində uğurlar diləyim. Qəti əmin olduğumu bildirirəm ki, qarşıdan gələn yeni il Azərbaycan xalqının yeni uğurları və qələbələri ilə əlamətdar olacaq.

*Dərin hörmətlə,*

**Altay ƏFƏNDİYEV,**
*GUAM-ın Baş katibi*

❖ ❖ ❖

Zati-aliləri!

Doğum gününüz münasibətilə Sizə Qaz İxrac edən Ölkələr Forumu (GECF) adından təbriklərimi çatdırıram.

Doğum günləri həyat yoluna nəzər salmaq üçün gözəl imkanlar yaradır. Qeyd etməliyəm ki, Sizin həyatınız xalqınıza xidmətə həsr olunub.

Ölkəniz və xalqınız üçün davam edən xidmətlərə həsr olunacaq yeni bir ilə başladığınız ərəfədə fürsətdən istifadə edərək bildirirəm ki, GECF ilə Azərbaycan Respublikası arasında xüsusi əməkdaşlıq mövcuddur. Azərbaycan qaz sənayesində böyük işlər görüb. "Şahdəniz" yatağında təbii qaz ehtiyatlarının və "Cənub qaz dəhlizi" layihəsinin inkişafı buna misal göstərilə bilər. Bu ilin may ayında keçirilən və həmin üstünlükləri ətraflı şəkildə nümayiş etdirən 25-ci Xəzər Neft-Qaz Sərgisi və Konfransında iştirakdan çox məmnun oldum.

Cari ildə mənim Sizin tərəfinizdən qəbul edilmək şərəfinə nail olmağım GECF ilə Azərbaycan arasında əməkdaşlığın inkişafına yeni təkan verdi və gələcəkdə daha sıx əməkdaşlıq üçün yol açdı.

Sizi doğum gününüz münasibətilə bir daha təbrik edir, GECF-in 10 illik yubileyinin qeyd olunduğu bir vaxtda Azərbaycanın fəaliyyətimizə verdiyi töhfəyə görə Sizə təşəkkürümü bildirirəm. Qoy gələcək illər dostluğumuzun və uğurlu əməkdaşlığımızın yeni dövrü olsun!

Sizə, ailənizə, Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Yuri SENTYURİN,**
*Qaz İxrac Edən Ölkələr Forumunun Baş katibi*

❖ ❖ ❖

Zati-aliləri!

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Moldova Respublikası Sosialistlər Partiyası adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

Bu əlamətdar gündə məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikası Sizin rəhbərliyinizlə tərəqqiyə, rifaha nail olub, siyasi, iqtisadi və mədəni sahələrdə uğurlar qazanıb.

Moldova Respublikası Sosialistlər Partiyası Yeni Azərbaycan Partiyası ilə dostluq əlaqələrinə böyük əhəmiyyət verir. Fürsətdən istifadə edib əmin olduğumu bildirirəm ki, Yeni Azərbaycan Partiyası ilə Moldova Respublikası Sosialistlər Partiyası arasında dostluq və qarşılıqlı anlaşma ənənələrinə əsaslanan hərtərəfli əməkdaşlıq münasibətləri xalqlarımızın rifahı naminə bundan sonra da möhkəmlənəcək və inkişaf edəcək.

Zati-aliləri, Sizə dərin ehtiramımı bildirir, xoşbəxtlik, möhkəm cansağlığı və ali dövləti vəzifənizdə uğurlar, dost Azərbaycan xalqına sülh və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

**Zinaida QREÇANIY,**
*Moldova Respublikası Sosialistlər Partiyasının sədri, Moldova parlamentində MRSP fraksiyasının və Rusiya Federasiyası ilə dostluq qrupunun rəhbəri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, Sizi doğum gününüz münasibətilə Beynəlxalq Türk Akademiyasının rəhbərliyi adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edim.

Sizin yorulmaz fəaliyyətiniz sayəsində qardaş Azərbaycan bütün sahələrdə, dövlət quruculuğu istiqamətində və beynəlxalq miqyasda əhəmiyyətli uğurlar əldə edib, beynəlxalq münasibətlər sisteminin nüfuzlu üzvünə çevrilib.

Azərbaycanın Sizin rəhbərliyinizlə dünya miqyasında mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa, multikulturalizm ənənələrinin inkişafına, sülh və tolerantlığın təmin olunmasına verdiyi töhfə ölçüyəgəlməzdir.

Hörmətli cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, Beynəlxalq Türk Akademiyasının fəaliyyətinə göstərdiyiniz diqqət və qayğıya görə Sizə dərin təşəkkürümü bildirirəm. Bu əlamətdar gündə zati-alinizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

*Dərin hörmət və ehtiramla,*

**Darhan KIDIRALİ,**
*Beynəlxalq Türk Akademiyasının prezidenti*

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Ümumhəmkarlar İttifaqları Konfederasiyası adından və şəxsən öz adımdan Sizi ürəkdən təbrik edirəm.

Sizin respublikanın Prezidenti kimi fəaliyyətinizi, xalqı inamla iqtisadi və sosial tərəqqi yoluna istiqamətləndirən lider kimi tarixi xidmətlərinizi Ümumhəmkarlar İttifaqları Konfederasiyasında və onun üzvü olan təşkilatlarda yüksək qiymətləndirirlər. Bu gün Azərbaycan cəmiyyət həyatının bütün sahələrində şəksiz və mühüm nailiyyətlər nümayiş etdirir. Ölkəniz beynəlxalq məkanda, inteqrasiya proseslərinin dərinləşməsində, Birlik dövlətlərinin və xalqlarının dostluq və əməkdaşlığının inkişafında getdikcə daha fəal və əhəmiyyətli rol oynayır.

Fürsətdən istifadə edərək, həmkarlar hərəkatının fəaliyyətinə milli və beynəlxalq səviyyədə daim dəstək göstərdiyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək istəyirəm.

Möhtərəm İlham Heydər oğlu, xahiş edirəm ən səmimi, ürəkdən gələn möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq diləklərimi qəbul edin.

*Dərin hörmətlə,*

**Vladimir ŞERBAKOV,**
*Ümumhəmkarlar İttifaqları Konfederasiyasının baş katibi*

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Siz Azərbaycan Respublikasının hamı tərəfindən qəbul edilmiş və öz ölkəsinə sonsuz məhəbbət və sədaqət nümunəsi olan zəngin həyat yolu keçmiş liderisiniz. Yüksək peşəkarlığınız və məqsədyönlülüyünüz Sizə ölkə qarşısında dayanan ən mürəkkəb məsələləri həll etməyə, xalqınızın rifahına xidmət etməyə imkan verir.

Sizə ürəkdən möhkəm cansağlığı, tükənməz enerji, respublikanın rifahı naminə ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Sizə və xanımınız Mehriban Arif qızına ən xoş diləklərimi çatdırır, xoşbəxtlik və firavanlıq arzu edirəm.

Hörmətlə,

**Tatyana ANODİNA,**
*Aviasiya və Hava Məkanından İstifadə üzrə Dövlətlərarası Şuranın prezidenti, Dövlətlərarası Aviasiya Komitəsinin sədri*

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul edin.

Sizə şəxsən öz adımdan və Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunları olan çoxsaylı dostlarınız adından möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Respublikasının rifahı naminə məsul işinizdə sədaqətli dostlar və məsləkdaşlar arzu edirəm. Qoy Sizin hər bir təşəbbüsünüz uğurlu olsun!

*Hörmətlə və ən xoş arzularla,*

**Anatoli TORKUNOV,**
*Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun rektoru, Rusiya Elmlər Akademiyasının akademiki*

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə ən səmimi, ürəkdən gələn təbriklərimi qəbul edin. Siz çox yüksək mədəniyyətə malik bir insan, mükəmməl diplomat və rəhbər kimi Azərbaycan Respublikasının inkişafına böyük töhfə verirsiniz, milli mədəniyyətin və incəsənətin inkişafına güclü dəstək göstərirsiniz.

Sizə öz ehtiramımı göstərmək, fəaliyyətinizdə daimi uğurlar, Sizə və ailənizə möhkəm cansağlığı, firavanlıq, xoşbəxtlik, sülh və tərəqqi diləmək fürsətinə görə ürəkdən şadam.

*Hörmətlə,*

**Zurab SERETELİ,**
*Rusiya Rəssamlıq Akademiyasının prezidenti*

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Beynəlxalq Uşaq Fondları Assosiasiyası adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi qəbul edin.

Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, tükənməz enerji, Azərbaycan xalqının və Azərbaycan uşaqlarının rifahı naminə bütün səylərinizdə yeni uğurlar arzu edirəm.

Uşaqların müdafiəsi sahəsində gələcək əməkdaşlığımızın bundan sonra da səmərəli olacağına ümid edirəm.

*Hörmətlə,*

**Albert LİXANOV,**
*Beynəlxalq Uşaq Fondları Assosiasiyasının prezidenti, yazıçı, akademik*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizi Rusiya Federasiyasında yaşayan çoxminlik Azərbaycan icması adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı üçün çox iş görən təcrübəli və uzaqgörən dövlət xadimi kimi haqlı olaraq həmvətənlərinizin səmimi hörmətini və yüksək beynəlxalq nüfuz qazanmısınız.

Siz Rusiyada ölkəmizin etibarlı dostu, Azərbaycan-Rusiya strateji tərəfdaşlığının, ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın möhkəmlənməsinin və inkişafının prinsipial tərəfdarı kimi tanınırsınız.

Müstəqil Azərbaycanın mövcud olduğu iyirmi beş ildən artıq müddətdə xalqımızın qurucu qüvvəsi və mənəvi potensialı o qədər parlaq şəkildə təzahür edib ki, dövlətimizin sürətli inkişafı dünya birliyində böyük marağa səbəb olub. Bu gün Azərbaycan Respublikası beynəlxalq münasibətlərin nüfuzlu iştirakçısıdır və gələcəyə inamla baxır. Bu, Sizin böyük xidmətinizdir və bizlərdən hər birimizin qəlbində qürur hissi oyadan bu xeyirxah, səmərəli fəaliyyətinizə görə Sizə təşəkkür edirik.

Cənab Prezident, icazə verin, Sizi əmin edim ki, Rusiyadakı Azərbaycan diasporu Azərbaycanın populyarlaşması, xalqımızın qədim ənənələrinin, zəngin mədəniyyətinin və tarixinin təbliği işində öz səylərini zəiflətməyəcək. Biz Azərbaycan Respublikasının müsbət imicinin möhkəmləndirilməsi üzrə ardıcıl işimizi bundan sonra da davam etdirəcəyik.

Biz öz tarixi Vətənimizdən uzaqda olsaq da, bizim ehtiyaclarımıza Sizin ciddi diqqətinizi və qayğınızı həmişə hiss edirik. İcazə verin, fürsətdən istifadə edib, Rusiyada əmək fəaliyyəti ilə məşğul olan həmvətənlərimizi dəstəklədiyinizə görə Sizə dərin minnətdarlığımı bildirim.

Doğum gününüzdə Sizə möhkəm cansağlığı, uzun ömür və millətin sıx birləşməsi, Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun möhkəmlənməsi naminə ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Sizi ürəkdən təbrik edirəm.

*Dərin hörmətlə,*

**Moskvadan akademik Fazil QURBANOV**

❖ ❖ ❖

Əziz İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, tükənməz həyati qüvvə, ölkənizin və xalqınızın rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

Biz - Sizin dostlarınız fəxr edirik ki, zati-alinizin rəhbərliyi ilə həyata keçirilən səmərəli quruculuq işinin nəticələrini qərəzli olmayan hər bir insan əyani şəkildə görür, Azərbaycanın həm regionda, həm də bütövlükdə dünyada beynəlxalq nüfuzu durmadan artır.

Əziz İlham Heydər oğlu, biz bir daha Sizi əmin etmək istəyirik ki, bizə verdiyiniz hər bir tapşırığı yerinə yetirməyə hazırıq.

*Hörmətlə və sədaqətlə,*

**Yuri ÇAXUNAŞVİLİ,**
*"SOCAR Energy Georgia" MMC-nin baş direktorunun müşaviri*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edim.

Sizə möhkəm cansağlığı, ailənizə əmin-amanlıq, yeni Azərbaycanın qurulması kimi şərəfli tarixi missiyanızı davam etdirmək üçün enerji diləyirəm. Dost və qardaş Azərbaycan xalqının uğurlarını sevinclə müşahidə edir, Sizə və bütün ölkənizə firavanlıq, yeni-yeni müvəffəqiyyətlər və layiqli həyat arzu edirik.

Biz daha güclü, vahid, dinc və inkişaf edən Azərbaycan görməyi arzu edirik. Əminik ki, Azərbaycan Sizin rəhbərliyinizlə bundan sonra da yeni uğurlar qazanacaq, böyük və nurlu ümidlər, geniş və real imkanlar ölkəsi kimi qalacaq.

Doğum gününüz mübarək, hörmətli İlham Heydər oğlu!

*Sizə və ailənizə ən xoş arzularla və dərin hörmətlə,*

**David BEJUAŞVİLİ,**
*"Georgian Industrial Group"un Direktorlar Şurasının sədri*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Azərbaycan Türkiyə İş Adamları Birliyi adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikasında iqtisadiyyatın və sosial sahənin modernləşdirilməsi yolu ilə inamla inkişaf siyasətini dəstəkləyir, Sizə bu yolda Uca Allahdan səbir və güc verməsini arzulayırıq.

Respublikamızın hərtərəfli inkişafı istiqamətində uğurlu fəaliyyətiniz, ordu quruculuğunun yüksək səviyyədə təşkili, təhsilə, idmana və digər önəmli sahələrə qayğınız, xalqın rifah səviyyəsinin yüksəldilməsi ilə bağlı verdiyiniz töhfələr danılmazdır.

Siz Azərbaycan və Türkiyə arasında strateji tərəfdaşlıq xarakteri kəsb etmiş ənənəvi dostluq, mehriban qonşuluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə xüsusi töhfə vermisiniz. Azərbaycan Türkiyə İş Adamları Birliyi olaraq bu siyasətin həyata keçirilməsinə daim səy göstərəcəyimizə Sizi əmin edirik.

Fürsətdən istifadə edərək, təşkilatımızın fəaliyyətinə verdiyiniz dəstəyə görə də Sizə bir daha təşəkkür edirik.

Ölkənizə və bəşəriyyətə xidmət edərək qədəm basdığınız bu yaşınızı bir daha ürəkdən təbrik edirik. Sizə və ailənizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Azərbaycan xalqının rifahı naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

**Camal YANQIN,**
*Azərbaycan-Türkiyə İş Adamları Birliyi İdarə Heyətinin sədri*

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin. Sizin üçün bu əlamətdar gündə Sizə - təcrübəli dövlət xadiminə, Azərbaycan dövlətinin müstəsna istedadlı, praqmatik siyasi xadiminə və layiqli liderinə səmimi hörmət və minnətdarlığımı bir daha bildirmək istərdim.

Sizin ardıcıl, çoxvektorlu və tarazlaşdırılmış xarici siyasətiniz sayəsində Azərbaycan Respublikası əsil regional liderə çevrilib, həm postsovet məkanında, həm də dünya birliyində öz məxsusi və nüfuzlu yerini tutub.

Azərbaycan sivilizasiyalararası, konfessiyalararası və mədəniyyətlərarası dialoqun əsl nümunəsi olub və bu gün də belədir. Məhz Sizin praqmatik və müdrik siyasi fəaliyyətiniz sayəsində tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətinin həyat tərzinə çevrilib. Multikulturalizmin Azərbaycan modeli millətçiliyin, şovinizmin, faşizmin və terrorizmin alternatividir.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, İsrail Dövləti və İsrail xalqı şəxsən Sizin Azərbaycanda yaşayan bütün icmalara, habelə yəhudi icmasına dünyada presedenti olmayan xüsusi qayğıkeş münasibətinizi yüksək qiymətləndirir. Siz dünyəvi dövlətə, multikulturalizmə və tolerantlığa sadiqliyinizə, Azərbaycanda yaşayan bütün konfessiyaların və xalqların nümayəndələrinə hörmətlə yanaşdığınıza görə həm İsrail cəmiyyətinin, həm də dünya yəhudi icmalarının əksəriyyətinin hörmətini qazanmısınız.

Qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə ən xoş arzularımı qəbul edin. Sizə və gözəl ailənizə səmimi-qəlbdən tükənməz enerji, möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına sülh və tərəqqi arzu edirəm.

*Dərin hörmətlə,*

**Arye QUT,**
*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin direktoru, "Cəmiyyət üçün Beynəlxalq layihələr" Qeyri-Hökumət Təşkilatının rəhbəri*

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə "VTB Bank"ın idarə heyəti və kollektivi adından, şəxsən öz adımdan səmimi təbriklərimi qəbul edin.

Siz artıq 15 ildən çoxdur ki, hamı tərəfindən qəbul edilmiş lider olaraq Azərbaycan Respublikasının Prezidenti vəzifəsində enerjinizi, müdrikliyinizi və təcrübənizi ölkənin inkişafının və onun vətəndaşlarının firavanlığının təmin edilməsinə yönəldirsiniz. Dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişafına, regional sabitliyin və qarşılıqlı iqtisadi fəaliyyətin təmin edilməsi üzrə beynəlxalq səylərə Sizin şəxsi töhfənizi Rusiyada yüksək qiymətləndirirlər.

Sizin Rusiya ilə Azərbaycanın işgüzar birlikləri arasında əməkdaşlıq məsələlərini daim diqqətdə saxlamağınız ikitərəfli ticari və investisiya əlaqələrinin genişlənməsində mühüm rol oynayır.

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun VTB kapitalında iştirakını yüksək qiymətləndiririk. Bunda dostluq, etimad və ölkələrimiz arasında səmərəli əlaqələrin möhkəmlənməsinə yönəldilmiş güclü kurs görürük.

Hörmətli İlham Heydər oğlu, Sizə və yaxınlarınıza möhkəm cansağlığı və firavanlıq, məsul işinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**Andrey KOSTİN,**
*Rusiyanın "VTB Bank" Publik Səhmdar Cəmiyyətinin prezidenti - idarə heyətinin sədri*

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə "ARETİ" Beynəlxalq Şirkətlər Qrupunun rəhbərliyi və əməkdaşları adından ən səmimi təbriklərimizi qəbul edin.

Sizin Azərbaycan Respublikasının Prezidenti kimi ali dövləti vəzifədə uğurlu fəaliyyətiniz Sizə xas olan görkəmli və uzaqgörən siyasi xadim keyfiyyətləri, perspektiv və cari hədəflərin və vəzifələrin müəyyən edilməsində genişmiqyaslı təfəkkür, onlara nail olmaq üçün əzmkarlıq sayəsində təmin olunur.

Əminəm ki, Sizin millət lideri və dövlət xadimi istedadınıza, ensiklopedik biliklərinizə və bir sıra digər yüksək insani və vətəndaşlıq keyfiyyətlərinizə Azərbaycan Respublikasının qüdrətinin artırılması və onun vətəndaşlarının rifahının daha da yaxşılaşdırılması üçün hələ uzun illər ehtiyac duyulacaq.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, tükənməz enerji və gözəl ölkənizin əməksevər xalqının firavanlığı naminə yeni böyük zəfərlər diləyirəm.

*Hörmətlə,*

**İqor MAKAROV,**
*"ARETİ" Beynəlxalq Şirkətlər Qrupunun prezidenti*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Sizə və ailənizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

Fürsətdən istifadə edərək, Sizi və Azərbaycan xalqını Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə də təbrik etmək istəyirəm. Sizə və Azərbaycan xalqına müvəffəqiyyət və rifah diləyirəm.

BP şirkəti olaraq biz Azərbaycana böyük önəm verir və ölkənizdə fəaliyyət göstərməkdən qürur duyuruq. Bu illər ərzində biz regionda dünya səviyyəli xeyli layihə həyata keçirmişik. Bu layihələrin gerçəkləşməsi Sizin dəstəyiniz və rəhbərliyiniz sayəsində mümkün olub. Biz, həmçinin Azərbaycan hökuməti və SOCAR ilə məhsuldar və etibarlı əməkdaşlığı yüksək qiymətləndirir, bu münasibətlərin gələcəkdə də davam edəcəyinə ümid edirik.

*Hörmətlə,*

**Qəri COUNZ,**
*BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti*

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

İcazə verin, doğum gününüz münasibətilə Sizi Azərbaycandakı Katolik kilsəsinin üzvləri adından və şəxsən öz adımdan təbrik edim və Sizə ən xoş, ən səmimi arzularımı bildirim.

Cənab Prezident, fürsətdən istifadə edib bizim icmaya göstərdiyiniz dəstəyə və Azərbaycan Katolik kilsəsinin bütün din xadimlərinin viza almasına köməyinizə görə Sizə xüsusi təşəkkürümü bildirmək istərdim. Ölkədə dinlərarası münasibətlərin və multikulturalizm siyasətinin möhkəmlənməsi üzrə Sizin təşəbbüslərinizi yüksək qiymətləndiririk.

İcazə verin qarşıdan gələn bayramlar - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və yeni, 2019-cu il münasibətilə Sizi, ailənizi və yaxınlarınızı təbrik edim. Sizə, ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və ali dövləti fəaliyyətinizdə uğurlar, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Ulu Tanrı Sizə yar olsun!

*Hörmətlə,*

**Vladimir FEKETE,**
*Azərbaycan Respublikasında Katolik kilsəsinin apostol prefekturasının yepiskopu*

# İlham Əliyev bütün azərbaycanlıların Prezidentidir

Azərbaycan Prezidenti İlham Əliyevin doğum günü münasibətilə "Moskva-Bakı" portalında dövlətimizin başçısı haqqında "İlham Əliyev qloballaşmaqda olan dünyanın müasir liderinin etalonudur" sərlövhəli məqalə dərc olunub. AZƏRTAC məqaləni təqdim edir.




"Qloballaşmaqda olan dünyanın müasir liderinin etalonu" - məşhur yazıçı Çingiz Aytmatov Azərbaycan Prezidenti İlham Əliyevi bu cür səciyyələndirib. Əlbəttə, İlham Əliyevin liderlik etalonu və lider olması birdən-birə baş verməyib. Bundan əvvəl o, uzun illər boyu həyatın sınaqlarına sinə gərib, onun "mümkün olanı və olmayanı" idarə etmək məharəti cilalanıb. Onun xarakterinin bütün bu məişət və siyasi aspektləri istedad, kəskin intellekt və yüksək mədəniyyət sayəsində daim möhkəmlənib.

1977-ci ildə Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutuna (MDBMİ) daxil olmuş İlham Əliyev həyatının 15 ilini MDBMİ-də keçirib - əvvəlcə əyani şöbədə, sonra aspiranturada təhsil alıb, daha sonra orada dərs deyib. Dissertasiya müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi alıb. Gənclik illərini, yetkinlik dövrünü, ilk ümidlərini və ilk sınaqları xatırlayan hər kəs kimi, o da tez-tez həmin illəri yada salır.

1987-ci ildə onun atası - sonradan Azərbaycanın ümummilli lideri olmuş Heydər Əliyev bütün vəzifələrdən çıxarıldı, Sov.İKP MK Siyasi Bürosunun tərkibindən xaric edildi və pensiyaya göndərildi. Sovet dövründə bunun nə demək olduğunu təsəvvür etmək çətin deyil. Heydər Əliyevin ailəsinin bütün üzvlərini hər yerdə sıxışdırmağa başladılar. Lakin İlham Əliyev institutdan, həmkarlarından incimədi. MDBMİ-də onunla birlikdə təhsil alan və işləyən insanlar onu dəstəkləməyə, ruhlandırmağa, ona diqqəti artırmağa çalışırdılar. İlham Əliyev Azərbaycan Prezidenti seçiləndə MDBMİ-nin məzunu olan ilk və hələlik yeganə Prezident kimi alma-materə baş çəkdi. Ona fəxri doktor adı verildi, MDBMİ-nin muzeyində ona həsr edilmiş stend açıldı. İlham Əliyev buna nəcib şəkildə cavab verdi - MDBMİ-nin məzunlarının birinci görüşünün iştirakçılarını Bakıya dəvət etdi.

## Müasir lider

İlham Əliyev Xəzərin neft yataqlarının mənimsənilməsi və istismarı haqqında müqavilənin - "Əsrin müqaviləsi"nin hazırlanmasına və həyata keçirilməsinə sanballı töhfə verib. 1994-cü ildə bağlanmış bu müqavilədə Heydər Əliyevin rəhbərlik etdiyi Azərbaycan mühüm rol oynayıb. 23 il sonra, 2017-ci il sentyabrın 14-də Bakıda "Azəri-Çıraq-Günəşli" yatağının işlənməsinin davam etdirilməsi barədə yeni "Əsrin müqaviləsi" imzalandı. Müqavilənin şərtlərinə görə, Azərbaycanın iştirak payı artırılaraq 11,6 faizdən 25 faizə çatdırılır. Azərbaycana çatacaq mənfəət neftinin payı 75 faiz olacaq.

## Yüksək peşəkarlıq

Diplomatik duyum. Müasir liderin yüksək keyfiyyətləri. Məhz bu cəhətlər İlham Əliyevin siyasi karyerasında fərqləndirici və cəlbedici xüsusiyyətlərdir. O, prezidentliyinin lap əvvəlindən başlayaraq neft amilindən xalqın və müstəqil Azərbaycanın mənafeyi naminə istifadə edir. Sonradan özü bu barədə deyəcək: "Biz "qara qızıl"ı insan kapitalına çevirməyə nail olduq. Biz neftdən alınan gəlirlərdən çox səmərəli şəkildə istifadə etdik və bu gün bu fakt dünya miqyasında xüsusi qeyd edilir. Zəngin neft yataqlarına malik olan ölkələr çoxdur, lakin bu ölkələr yoxsulluq, kasıblıq şəraitində yaşayırlar. Bu ölkələrdə sabitlik pozulur, neft həmin ölkələrə fəlakətlər gətirir. Azərbaycanda isə neft firavanlıq, inkişaf, sabitlik, qüdrət gətirir".

Azərbaycan cəmiyyətini uzun illərdir narahat edən Dağlıq Qarabağ münaqişəsinin həlli də daim İlham Əliyevin diqqət mərkəzindədir. O, dəfələrlə bəyan edib ki, Azərbaycan Qarabağsız ola bilməz. Bu münaqişənin yalnız ölkənin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüququn norma və prinsipləri əsasında nizamlanması dövlət başçısının birmənalı mövqeyidir.

Azərbaycan Prezidenti açıq-aydın surətdə bəyan edib: "Dağlıq Qarabağ 5 ildən, 10 ildən, hətta 100 ildən sonra da Azərbaycandan ayrılmayacaq. Mən Prezident olduğum müddətdə buna yol verməyəcəyəm".

## Novatorluq və rasionalizm

İlham Əliyev bütün məsələlərdə novatorluq və islahatçı yanaşmalar tətbiq edir. O, dünyada baş verən proseslərin və dəyişikliklərin məntiqinə əsaslanaraq Azərbaycanın fasiləsiz inkişafını sürətləndirən mühüm addımlar atır. İlham Əliyevin "prezidentlik xronikası"nın bəzi mərhələlərini xatırladaq. Onun Brüsselə səfəri Aİ ilə Azərbaycan arasında yeni saziş bağlanmasına dair danışıqlar prosesinə start verdi. Nyu Yorkda BMT Baş Assambleyasının sessiyasında çıxış, BMT-ni öz qətnamələrini, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə dair qətnamələrini yerinə yetirməyə çağırış. Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol kimi Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli mərasim. Azərbaycan, İran və Rusiya prezidentlərinin üçtərəfli sammiti, energetika və nəqliyyat sahələrində genişmiqyaslı layihələrin, o cümlədən Şimal-Cənub dəhlizinin yaradılmasına dair möhtəşəm planın müzakirəsi.

İlham Əliyev uğurlu və bənzərsiz şəxsiyyətdir. O, zəngin insani dəyərləri, kübar maneraları, rasional təfəkkür tərzini, sarsılmaz vətənpərvərlik, praqmatizm və milli mentalitet kimi keyfiyyətləri özündə cəmləşdirməklə Azərbaycanın ictimai həyatına və siyasətinə yeni nəfəs, müasirlik və intellektuallıq gətirir.

## Ot kökü üstündə bitər

İlham Heydər oğlu Əliyev atası Heydər Əliyevin layiqli oğludur. O, ümummilli liderin siyasi kursuna mütləq mənada sadiqdir. Öz prinsiplərinə sadiqlik, parlaq intellekt, cəmiyyət üçün açıqlıq, tolerantlıq, səmimilik, humanizm kimi keyfiyyətləri atasından əxz edib. Heydər Əliyev kimi, ona da qətiyyətlilik, enerji, zehni potensial və təşəbbüskarlıq xüsusiyyətləri xasdır.

İdarəçilik keyfiyyətləri, bu və ya digər problemin müzakirələrində fəal iştirak, müasir Qərb liderlərinə xas olan imic, ən başlıcası, qüsursuz nüfuz Heydər Əliyev fenomeninin əsas amilləri idi. İndi bu keyfiyyətlər həm də İlham Əliyevi səciyyələndirir.

Ata və oğul xarakter etibarilə səmimi insanlardır. Sıravi vətəndaşlarla ünsiyyətdə bu səmimiyyət xüsusilə parlaq şəkildə təzahür edir. Bütün müdrik dövlət adamları kimi, İlham Əliyev də atasına bənzəyir - hər kəslə dil tapmağı, sıravi vətəndaşla istənilən psixoloji baryeri aradan qaldırmağı bacarır. Bu, dövlət başçısının Azərbaycan xalqının dəstəyindən və etimadından istifadə etməsinə imkan verir.

Dövlət başçısının öz siyasi komandasının üzvləri ilə münasibətdə də səmimiliyə və qarşılıqlı hörmətə əsaslanan ünsiyyətin tərəfdarı olduğunu deyirlər. Lakin bütün bunlar Prezidentin kifayət qədər sərt qərarlar qəbul etməsini istisna etmir. Bütün xarizmatik liderlər kimi, İlham Əliyev də özünə qarşı son dərəcə tələbkardır. İctimai rəydə o, özünənəzarətin və qanunçuluğun qarantı kimi məşhurdur. Ciddi intizam və yüksək məsuliyyət hissi dövlət başçısının bütün fəaliyyətinin meyarıdır.

## Ailə

1983-cü ildə İlham Əliyev Mehriban Paşayeva ilə evləndi. Gənclər Moskvada tələbəlik illərində tanış olmuşdular. Mehriban xanım İ.Seçenov adına Tibb İnstitutunda oxuyurdu. 1985-ci ildə onların qızı Leyla, 1989-cu ildə kiçik qızları Arzu dünyaya gəldi.

Mehriban Əliyeva xatırlayır: "1987-ci ildən sonrakı dövr bütün ailəmiz üçün həqiqətən çox çətin dövr oldu. İlham özünü itirmədi, ailəsinin, uşaqlarının bu çətinlikləri hiss etməmələri üçün əlindən gələni edirdi. O vaxt çox böyük problemlər vardı, bizə, demək olar ki, heç kəs kömək etmirdi. İlhamın əzmkarlığı sayəsində biz korluq çəkmədik..."

1997-ci ildə onların oğlanları Heydər doğuldu. Bu adı ona, əlbəttə, babasının şərəfinə vermişdilər. 2017-ci ildə İlham Əliyev Mehriban Əliyevanı ölkənin Birinci vitse-prezidenti vəzifəsinə təyin etdi. Təhlükəsizlik Şurasında onu "peşəkar və humanist" kimi təqdim etdi.

İlham Əliyev bütün azərbaycanlıların Prezidentidir. Prezident ana dili ilə yanaşı, ingilis, rus, türk və fransız dillərində də danışır. O öz xalqının oğludur və eyni zamanda, beynəlmiləlçi, ümumbəşəri mənəvi dəyərlərin tərəfdarıdır. O, milli ənənələrin və dini təsisatların, konfessiyalar arasında qarşılıqlı tolerant münasibətlərin, multikulturalizmin tərəfindədir. Bu gün harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Azərbaycan kimi güclü dövlətin mövcud olmasından qürur duyur, öz Prezidenti İlham Əliyevin dəstəyini hiss edir.

# Rusiyanın aparıcı "Rossiya-24" telekanalı Azərbaycan haqqında "Merci Baku" adlı xüsusi reportaj yayımlayıb

Dekabrın 24-də Rusiyanın aparıcı xəbərlər kanalı olan "Rossiya-24"də Azərbaycan haqqında "Merci Baku" adlı xüsusi reportaj yayımlanıb. AZƏRTAC həmin reportajı təqdim edir.

**Aparıcı:** Azərbaycan Prezidenti İlham Əliyev 57 yaşını qeyd edir. Əlamətdar gün münasibətilə onu Prezident Vladimir Putin təbrik edib və qeyd edib ki, Prezident Əliyev təcrübəli və uzaqgörən siyasətçidir.

Öz növbəsində Azərbaycan dövlətinin başçısı bizim telekanala müsahibəsində bildirib ki, rusiyalılar respublikada turistlərin sayına görə birinci yeri tutur və özlərini burada evlərindəki kimi hiss edirlər.

Azərbaycan paytaxtının mənim həmkarım Mariya Qladkixi nə ilə heyrətləndirdiyinə isə onun "Merci Baku" adlı xüsusi reportajında baxın.













**Mariya Qladkix:** Mən turistlərin Azərbaycana nə üçün gəlməli olduqları barədə çox danışa bilərəm. Düşünürəm ki, rusiyalılar məni eşidəcəklər. Biz Bakıdayıq. Öz tarixi, ənənələri ilə zəngin, bununla belə bütün yeniliklərin - innovasiyaların, bütün texniki ixtiraların olduğu qədim şəhərdəyik. Azərbaycanda artıq yuxarıya - kosmosa əl atıblar.

Köhnə şəhərdən biz gələcəyin şəhərini görməyə yola düşdük. Hamısı "Made in Azerbaijan"dır. Bu, çoxlarının fikirləşdiyi kimi, pomidor deyil. Burada səni casus filmlərindəki kimi göstərən tibbi eynəklər var.

Siz yaşıl həlqələrin hara yönəlməsini görürsünüz? - Bəli, onu hətta yerə də yönəltmək olar. Orada başın əksi görsənəcək. Bəli, başın əksi görsəndi. Sizin məqsədiniz bu marker olmadan bu başı real obyektin üzərinə qoymaqdır. Bu eynəklərin vasitəsilə adi gözlə görə bilmədiyimiz strukturları görmək olur.

Yenə də sehrli eynəklər. Bu dəfə isə təyyarəçilər üçün simulyator. Onların köməyi ilə çətin uçuş həyata keçirmək olar. Mənə elə gəlir ki, mən kənardan ağılsız kimi görsənirəm. Amma bu, olduqca çox gözəl görsənir. Hətta buludlar da sanki, təbiidir. Bax, bura da təbiidir.

Qarşıya adi məqsədlər qoyulmayıb. "Azərkosmos" - Qafqazda ilk peyk operatoru.

**"Azərkosmos"un əməkdaşı Tərlan Məmmədzadə:** Sentyabrın 25-də geostasionar orbitə 45 dərəcəli Şərq uzunluğu mövqeyinə 3-cü peyk - "Azerspace 2" buraxılıb. Peyk Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrinə xidmətlər göstərəcək.

**Müxbir:** Yeni texnologiyalar sərgisində biz Prezident İlham Əliyevlə görüşürük. Hərçənd ki, dövlət başçısı rus dilində sərbəst danışır, müsahibəni onun doğma dilində başlayırıq.

Bu videoyazını sonra axşam bütün Azərbaycan telekanalları göstərirdi. Belə ki, müəyyən mənada "Rusiya-24" kanalı bir növ bu sərginin əsas kəşfi oldu.

**Prezident İlham Əliyev:** Bizim uğurla həyata keçirdiyimiz əsas vəzifəmiz qeyri-neft sektorunun inkişafıdır ki, Azərbaycan iqtisadiyyatı sabit tərəqqi etsin.

**Müxbir:** Axı, siz turizmi inkişaf etdirmək niyyətindəsiniz. Belə başa düşürəm ki, ən çox turist Rusiyadandır.

**Prezident İlham Əliyev:** Bəli, birinci yerdə Rusiyadır. İl ərzində 800 mindən çox rusiyalı gəlib. Onlar özlərini evdəki kimi hiss edirlər, burada dil maneəsi yoxdur, onlara münasibət çox yaxşıdır. Bizim ortaq tariximiz də mühüm rol oynayır.

**Müxbir:** Ləziz təamlarınız...

**Prezident İlham Əliyev:** Bəli, tamamilə doğrudur.

**Müxbir:** Bu gün Azərbaycan nadir təbiət, meyvələr, tarixi abidələr deməkdir. Bütün bunlar min bir işığa bürünüb. Bakı bütün günü lap Las-Veqas kimi işığa qərq olur. Azərbaycanı yanan neft və qaza görə "Odlar ölkəsi" adlandırıblar. Qədim zamanlarda Hindistandan buraya atəşpərəstlər ziyarətə gəlirdilər. Azərbaycanda planetdə mövcud olan 11 iqlim tipindən 9-u var. Bir neçə saat ərzində yolüstü çöl, subtropik və sıx meşələrdən keçərək qar yağan yerlərə düşmək olar. Bakıya gələrək isə Venesiyaya düşmək olar. Baxın, əsl yerli Venesiyadır. Qayıqla gəzəcəyik. Müxtəlif ölkələri görmək üçün başqa yerə getmək lazım deyil. Sadəcə, Bakıya gəlmək kifayətdir. Burada, həqiqətən, nə desən var! Burada gəzintiyə çıxa bilərsən, burada Venesiyadakı kimi improvizə olunmuş kanallar, qayıqçılar var. Ümid edirəm ki, qayıqçı oxuyacaq. Çünki İtaliyada onlar oxuyurlar.

**Müxbir:** Deyir ki, oxumayacaq.

**Qayıqçı:** Mən isə bu mahnını sevirəm.

**Müxbir:** İndi qətiyyən müəyyənləşdirmək olmur, biz Azərbaycandayıq, yoxsa İtaliyada.

**Qayıqçı:** Bilirsiniz, təəccüblüsü nədir? Bu kanal artıq 50 ildir - hələ sovet dövründən mövcuddur.

**Müxbir:** Məşhur Bakı Bulvarı 15 kilometrədək uzanıb. Hələ də tikilməkdə davam edir. Ümumi uzunluğu 26 kilometr olacaq. Uzağa getmək, doğrudan da, lazım deyil. Burada qala da Torontodakı kimidir, həm Sidney, həm də Dubayın bir hissəsi var. Yerli sakinlər bunu Yaxın Şərqin Parisi adlandırırlar. Hava soyuyur. Bir qədər qalın geyinmək lazım oldu. Biz artıq İçərişəhərə gəlmişik. Burada artıq əsl milli kolorit nəzərə çarpır. Məsələn, düz küçənin ortasında nərd oynayırlar.

**Müxbir:** Salam. Qoşulmaq olar?

**Nərd oynayan:** Bəli.

**Müxbir:** Bu, sizin milli əyləncənizdir eləmi?

**Nərd oynayan:** Bəli. İş olmayanda nərd oynayırıq. İndi alver getmir.

**Müxbir:** İndi alver zəifdir? İndi turistlər yoxdur?

**Nərd oynayan:** Var, amma almırlar.

**Müxbir:** Turistlər var, alver etmirlər, sadəcə, gəzirlər. İlham Əliyev dedi ki, bütün turistləri Azərbaycana çağırır. Ona görə də, Allah qoysa, burada çoxlu turist olacaq və sizin də nərd oynamağa vaxtınız olmayacaq. İndi Bakıda turizm mövsümü deyil. Bayırda soyuqdur. Bakı sözünün mənası farsca "badi-kubə" - Küləklər şəhəri deməkdir. Burada deyildiyi kimi: "Əgər soyuqdursa, rəqs elə". Hamımızın yallını sevməyimiz Rusiya ilə Azərbaycanı birləşdirir. Bu, Azərbaycan yallısıdır. Bu yallı xüsusidir. Bu yallı insanı vəcdə gətirir. Özüm də oynamaq istədim. Yallı, bax belədir - oyun elementləri də var. Rəqs edənlər arasında aparıcı da var. Azərbaycan yallısının yüzlərlə növü var. Deyəsən, məni də yallıya qəbul edəcəklər.

**Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov:** Bizim ölkələrimizi təkcə yallı deyil, daha çox amil bağlayır. "KamAZ", QAZ avtomobillərinin sənaye üsulu ilə yığımı aparılır. Bakıda mədəni həyat qaynayır. Dramteatr, Musiqili Komediya, Opera və Balet teatrları fəaliyyət göstərir. Onlar ən müasir tamaşalara quruluş verir.

**Müxbir:** Yəni, incəsənəti görmək üçün Bakıya gəlmək olar?

**Mixail Boçarnikov:** Hesab edirəm ki, bəli, olar.

**Müxbir:** Azərbaycanın ümummilli lideri Heydər Əliyevin adını daşıyan Mərkəzdə incəsənətin vəhdəti müşahidə olunur. Futurist, memarlıq şedevri olan mərkəzin binası əfsanəvi Zaha Hadidin əsəridir. Bax, bunu mən qətiyyən Heydər Əliyev Mərkəzində görməyi gözləmirdim. Hiperrealist heykəllər. Belə bir sərgi burada keçirilir. O dərəcədə realist əsərdir ki, burada hətta xırda xalları, çilləri, damarları, boyunda qırışları görə bilərsən. Məsələn, dırnaqlarına baxın. Əsl insan dırnaqlarıdır. Bağışlayın, baxmaq olar?

**Mərkəzin əməkdaşı:** Artıq vaxtınız keçib.

**Müxbir:** Burada nə var? 18 və daha çox.

**Mərkəzin əməkdaşı:** Sizin 18 yaşınız var?

**Müxbir:** Var.

**Mərkəzin əməkdaşı:** Onda gedək.

**Müxbir:** Sadəcə, söz ola bilməz. İnanılmaz sərgidir. O, artıq dünyanın bir çox ölkəsində keçirilib. Bu isə artıq bizim Heydər Əliyev Mərkəzində gözlədiyimiz görüntülərdir. Onun şəxsi əşyaları, fotoları. Məsələn, bax, bu, onun DTK-da işlədiyi vaxt geyindiyi paltardır. Bu isə artıq onun andiçmə mərasimində geyindiyi kostyumdur. Sonra isə Azərbaycan Respublikasının üçüncü Prezidentinin çalışdığı məhz həmin iş masasıdır. Burada onun ordenləri, medalları və Azərbaycan xalqına onların sevimli liderini xatırladan hər şey var.

Mənim daha bir şəxsi mədəni heyrətim "cin"lə görüş oldu. Şüşədəki yox, həqiqi "cin"lə. Mikrofon qarşısında "cin" ləqəbli Ceyhun Zeynalovdur. Onu Azərbaycanın Bob Marlisi adlandırırlar. Ceyhun Zeynalov. Azərbaycanın məşhur müğənnisi, özü də ən maraqlısı və mənim üçün anlaşılmaz olan - reqqi. Azərbaycanda reqqi var? Mən bunu bu gün bildim.

**Ceyhun Zeynalov:** Bunun Azərbaycanda banisi mən olmuşam. Kim ki, musiqini inkişaf etdirir, normal musiqi dinləyir, onlar təbii ki, reqqini dinləyirlər.

**Müxbir:** Azərbaycan çoxmusiqili ölkədir. Opera. İlk operanı Bakıda hələ 1908-ci ildə dinləyiblər. Bəstəkar Üzeyir Hacıbəyli məşhur Leyli və Məcnunun sevgi əhvalatını tamaşaya qoyub. Bu, Şərqdə ilk operadır.

**Ceyhun Zeynalov:** Azərbaycan musiqisinin təməli muğamdır. Muğam UNESCO-nun Ümumdünya İrs Siyahısına salınıb. Muğam məqamdır. Hər məqam müəyyən emosiyanı ifadə edir. Reqqidən başqa meyxana da var. Bu, Azərbaycan repidir. Ən məşhuru "Davay, dosvidaniya"dır.

**Müxbir:** Azərbaycanı anlamaq üçün onun təamlarını dadmaq lazımdır. Bakının ən yaxşı restoranlarından birində məni direktor müavini Elşad Nuriyev qarşılayır.

**Elşad Nuriyev:** Bizim restoranımızın sahəsi 5 min kvadratmetrdir. Bu, Cənubi Qafqazda, hətta deyərdim ki, Avropada ən böyük restorandır. Burada ət 28 gün saxlanılır, sonra doğranılıb bişirilərək qonaqlara verilir. Ən yaxşı şərablar bizim yerli şərablardır.

**Müxbir:** Azərbaycan şərabları?

**Elşad Nuriyev:** Əlbəttə, Azərbaycan şərabları.

**Müxbir:** Yaxşısı budur, bıçaqların haradan götürüldüyünü deyin. Bu, nə nömrələrdir belə?

**Elşad Nuriyev:** Bu, qonaqların nömrəsidir.

**Müxbir:** Qonaq gəlir və onun şəxsi bıçağı var. Özündən və məndən başqa heç kim ona toxuna bilməz.

**Elşad Nuriyev:** Bizdə həmişə çox adam olur.

**Müxbir:** Bura ümumilikdə nə qədər qonaq tutur?

**Elşad Nuriyev:** 1500.

**Müxbir:** Türk qəhvəsi. O, qum üzərində hazırlanır. Strepoloyn, tinderloyn, ribay, lokum. Qurmanların ürəyi nə istəyirsə, hamısı var. Kömək edəcəksiniz? Məni mətbəxdə çək. Bütün insanlar istirahət edir, mən isə yenə də mətbəxə gedirəm.

**Restoranın əməkdaşı:** Əvvəlcə, biz əti doğrayacağıq. Mən indi, sadəcə, Nüsrətəm. Baxın görün nə edirəm. Dadmaq lazımdır. Bax, xidmət budur. Mənə, sadəcə, əti qızartmaq etibar olunub. Bunu bacarıram. İndi o, son ştrixi vuracaq. Sonuncu ştrix nədir? Əhsən.

**Müxbir:** Ən maraqlısı indidir. Dadmaq lazımdır.

Azərbaycan xörəklərinin 30-dan çox növü var. Düz deyirlər ki, Bakıda bütün mədəniyyətlərin mətbəxini dadmaq olar. Budur, indi türk paxlavası Azərbaycan süfrəsinə veriləcək. Ona mütləq qoz, sarıkök, badam, əncir əlavə edirlər. Bizdə isə desertdə həmişəki kimi konsertdir. Baxın, tarda "Kalinka"nı ifa edirlər. Bu, yeganə alətdir ki, nə desən ifa etmək olar.

Azərbaycanın 60-dək musiqi aləti var. Ən sevimlisi Azərbaycan balalaykası tardır. Məlum oldu ki, "Kalinka" üçün tam münasibdir.

Azərbaycan - çox yaxın və özünəməxsus diyar. Biz onu tamamilə başqa cür gördük. Heyrətamiz torpaqdır. Ənənələrinə sadiq görünsə də, həm də yenilikləri ilə heyrətə gətirir. Burada innovasiyalara sərmayə qoyulur, bununla belə ənənəvi xəzinəni həssaslıqla qoruyurlar. Yola düşməzdən əvvəl, bir daha Dənizkənarı bulvara getdik. Axı, Bakının qışı əslində Rusiyanın payızıdır. Xəzərdən külək əsir, yelkənli qayıqlar dənizə çıxır. Burada lap yaxında neft çıxarırlar. Amma inanın ki, Azərbaycanın ən əsas sərvəti bu, deyil. Merci Baku.

# *Nikas SAFRONOV:* "İlham Əliyev Azərbaycanın dünyanın ən yaxşı ölkələri sırasında olması üçün hər şeyi edib"

"İlham Əliyev Azərbaycanın dünyanın ən yaxşı ölkələri sırasında olması üçün hər şeyi edən böyük siyasət və dövlət xadimidir. O, əsl liderdir". Bu sözləri AZƏRTAC-ın müxbiri ilə söhbətində görkəmli rus fırça ustası, Rusiyanın əməkdar rəssamı, Rusiya İncəsənət Akademiyasının akademiki Nikas Safronov söyləyib.



Rəssam qeyd edib ki, Azərbaycan Prezidenti Azərbaycanın ümummilli lideri Heydər Əliyevin siyasətini layiqincə davam etdirir. "İlham Əliyev Heydər Əliyevin layiqli davamçısıdır. İlham Heydər oğlunun çox gözəl, peşəkar komandası var. Dünyadakı çətinliklərə baxmayaraq, ölkədə layiqli həyat davam edir. Onun rəhbərliyi dövründə Azərbaycan müasir, gözəl, turistlər və biznesmenlər üçün heyrətamiz dərəcədə cəlbedici ölkəyə çevrilib. Bakı hər hansı şəhərlə - Venesiya, London, Parislə rəqabət apara biləcək ən yaxşı şəhərlərdən biridir. Burada təmizlik, mükəmməl infrastruktur, çox gözəl işıqlandırma diqqəti cəlb edir...", -deyə Safronov qeyd edib.

N.Safronov Azərbaycan Prezidentinin mədəniyyət xadimlərini hər zaman dəstəklədiyini vurğulayıb: "Bu, çox əhəmiyyətlidir. Mədəniyyət hər bir dövlətin varlığı üçün vazkeçilməz amildir. Azərbaycanda mədəniyyət, incəsənət, musiqi sahələri inkişaf edir, muzeylər açılır. Yazda Heydər Əliyev Mərkəzində mənim sərgim açılacaq. Mən bakılılara əksəriyyəti Azərbaycanla, sizin ölkənin xadimləri ilə bağlı olan bir çox yeni əsərləri, həmçinin Heydər Əliyevin portretlərinə eskizləri təqdim edəcəyəm. Hazırda Naxçıvan və Bakı haqqında yeni tablolar üzərində işləyirəm. Öz işlərimi Azərbaycanda təqdim etmək mənim üçün böyük şərəfdir".

Rəssam əlavə edib: "Mənim Bakıda ilk sərgim 1998-ci ildə keçirilib. Onun açılışını Heydər Əliyev edib. Biz onunla mədəniyyət və həyat barədə uzun-uzadı söhbət etdik. O, dövlətçilik təfəkkürünə malik insan idi. Heydər Əliyev mənə ölkəni göstərdi. Mən ona dedim ki, yəqin ki, bundan əvvəlki həyatımda mən azərbaycanlı olmuşam və özümü azərbaycanlı kimi hiss edirəm. Heydər Əliyev dedi: "Mənim və ailəmin timsalında Azərbaycanda sənin dostların var". Mən həmişə bu səviyyəni gözləməyə çalışıram. Uşaqlarım da Azərbaycanda olublar. Birisi Böyük Britaniyadan, digəri isə Avstraliyadan gəlmişdi. Mən onları Azərbaycana apardım. Onlar bu gözəl xalq və ölkəyə heyran oldular. Mən Rusiya-Azərbaycan münasibətləri ilə bağlı bütün təşəbbüsləri dəstəkləyirəm. Polad Bülbüloğlu ilə dostluğumu əziz tuturam".

N.Safronov daha sonra söyləyib: "İlham Əliyevin çox gözəl ailəsi var. Biz Leyla Əliyeva ilə çoxdandır dostluq edirik. O, ölkələrimizi birləşdirən, münasibətlərimizi inkişaf etdirən, onları daha mükəmməl və layiqli edən Rusiyadakı mədəniyyət elçisidir".

Rusiyalı rəssam Rusiya-Azərbaycan münasibətlərinin bütün sahələrdə inkişafının vacibliyini vurğulayıb: "Azərbaycanın Rusiya ilə sıx əlaqələr saxlaması çox vacibdir. Azərbaycan məktəblərində rus dili tədris olunur. Azərbaycanlıların bir çoxu rusca səlis, bəzən rusların özlərindən də yaxşı danışırlar".

"Mən İlham Heydər oğlunun - çox hörmət etdiyim və sevdiyim insanın ad gününü təbrik edirəm. Ona uzun ömür, firavanlıq və uğurlar arzulayıram. Mənim qəlbim və evim hər zaman Azərbaycana, bu böyük xalqa açıqdır", - deyə N.Safronov sözlərinə yekun vurub.

Regionun lideri, kosmik klubun üzvü, enerji təhlükəsizliyi məsələlərində söz sahibi… Bütün bunlar müasir Azərbaycanı xarakterizə edən uğurların bir qismidir. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası respublikamızın məhz bu nailiyyətlərə doğru irəliləməsini təmin etdi. Ötən 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə gedilən yol, qazanılan hər bir uğur təsdiq edir ki, bu siyasətin alternativi yoxdur.
Milli Məclisin deputatları ilə söhbətimiz də bu barədədir.



# Qüdrətli Azərbaycanın təminatçısı

## Xalqın və dövlətin maraqları üzərində qurulan inkişaf strategiyası

**Səttar MÖHBALIYEV, Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri:**

- Hər bir rəhbərin hansı əməlin sahibi olduğunu müəyyənləşdirmək üçün ən etibarlı istinad yeri onun gördüyü işlərdir. Bu mənada Prezident İlham Əliyevin son 15 ildə respublikamıza bəxş etdiyi inkişaf, yüksəliş və quruculuq dövlət başçısının əsil lider obrazından, yüksək idarəçilik qabiliyyətindən, xalqın və dövlətin maraqlarını uca tutan bir Prezident olmasından xəbər verir. Ümummilli lider Heydər Əliyevin inkişaf strategiyasını inamla davam etdirən cənab İlham Əliyev qısa müddətdə Azərbaycanı Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, sabit və qüdrətli dövlətinə çevirməyə müvəffəq oldu. Dövlətimizin başçısının rəhbərliyi ilə görülən işlərin miqyası, Azərbaycanın dinamik və hərtərəfli tərəqqisi naminə qəbul edilən və uğurla həyata keçirilən qlobal dövlət proqramları, onların real nəticələri, ölkəmizin dünya birliyində öz mövqelərini daha da möhkəmləndirməsi bu həqiqəti bir daha təsdiqləyir.

Ötən 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişafı, həyata keçirilən əzəmətli layihələr, Azərbaycanın hərtərəfli yeniləşməsi, modernləşməsi, doğma vətənimizi dünyaya yeni formada təqdim etməyə imkan yaradan müsbət dəyişikliklər ulu öndərin qoyduğu yolun uğurlu davamını göstərir. Bütün bunlar məhz Heydər Əliyevin zəngin siyasi-ictimai irsinin davam etdirilməsinin, ideyalarının yaşamasının nəticəsidir. Bu yüksəliş Heydər Əliyevin həm də uzaqgörən bir strateq olaraq müəyyən etdiyi inkişaf konsepsiyasının alternativsizliyini tam dolğunluğu ilə təsdiq edir.

Dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, hər bir məsələyə həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm nüanslardır. Ötən 15 ildə sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən Prezident İlham Əliyev hər bir addımda məhz vətəndaşların mənafeyini əsas götürüb.

Respublikamız üçün xarakterik olan beynəlxalq uğurlardan biri qlobal kataklizmlərin daha da dərinləşdiyi həssas dönəmlərdə belə öz yolu ilə inamla addımlamasıdır. Xüsusən beynəlxalq iqtisadi geriləmənin yaşandığı və hər bir dövlət üçün sınaq dövrü olan son illərdə Azərbaycan Prezidenti İlham Əliyevin düşünülmüş iqtisadi kursu nəticəsində böhrandan uğurla çıxıb və həyata keçirilən yeni iqtisadi islahatlarla öz inkişafının yeni mərhələsinə qədəm qoyub.

Dünyada qlobal iqtisadi və maliyyə böhranının dərinləşdiyi illərdə ölkəmizdə həyata keçirilən siyasət nəticəsində bütün sahələrdə nailiyyətlərin davamlı olması təmin edilib. Bu mənada Azərbaycanda yaranan inkişaf təcrübəsi dünyanın əksər ölkələri üçün nümunə sayıla bilər. Dünyada əlverişsiz iqtisadi proseslərin davam etdiyi, qonşu regionlarda silahlı münaqişələrin və qanlı terror aktlarının baş verdiyi son illərdə də Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmizdə sabitlik qorunub saxlanılıb, dövlətimizin gücü və beynəlxalq nüfuzu daha da yüksəlib.

Azərbaycanda əldə edilən hər bir uğur vətəndaşların Prezident İlham Əliyevə olan etimadını daha da artırıb, milli həmrəyliyi sıx edib. İndiyədək keçirilmiş bütün yerli və xarici rəy sorğularının nəticələri Prezident İlham Əliyevin yüksək reytinqini dəfələrlə sübuta yetirib. Bunun da əsas səbəbi cənab Prezidentin məqsədyönlü fəaliyyət və bu fəaliyyətin xalq tərəfindən böyük razılıq və minnətdarlıqla qarşılanmasıdır. Təsadüfi deyil ki, ötən hər prezident seçkisi seçicilərin mütləq əksəriyyətinin öz səslərini cənab İlham Əliyevə verməsi ilə yadda qalıb. İnkişaf proseslərinin davamlı olmasını arzulayan Azərbaycan xalqı hər dəfə seçkilərdə İlham Əliyevə dəstəyini nümayiş etdirib. Bu dəstək Azərbaycan cəmiyyətinin mövcud siyasi kursa inam və rəğbətinin əyani təcəssümü olmaqla, mütləq əksəriyyətin istək və arzusunu özündə əks etdirib. Bu il aprelin 11-də keçirilən seçki bir daha bunun təsdiqi oldu. Son prezident seçkiləri müdrik və qədirbilən xalqımızın öz taleyinə biganə qalmamasının, gələcək naminə dürüst seçim etməsinin, ən layiqli namizədə səs verməsinin əyani təsdiqi kimi tarixiləşdi. Xalqımız daxili inamına söykənərək ölkəni əlahiddə inkişaf yoluna çıxarmış siyasətin müəllifinə - cənab İlham Əliyevə səs verməklə ağı qaradan seçməyi bacardığını, ölkənin taleyinə biganə olmadığını göstərdi. Bu tarixi seçim həm də belə bir həqiqətin cəmiyyətdə obyektiv dərkidir ki, Azərbaycanın gələcək tərəqqisi, davamlı inkişafı məhz mövcud siyasi kursun davamlılığının təminatından asılıdır.

Xalqın seçimi həm də növbəti illərdə Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamdan qaynaqlanır. Ölkə vətəndaşları Heydər Əliyev siyasi kursunu yeganə nicat və istinadgah mənbəyi seçdikləri kimi, qarşıdakı 7 ildə məhz Azərbaycanın taleyini ulu öndərin layiqli davamçısı - Azərbaycan Prezidenti cənab İlham Əliyevə etibar etdilər.

Prezident İlham Əliyevin uğurlu fəaliyyəti ölkəmizdə milli birliyin, sabitliyin daha da möhkəmlənməsinə gətirib çıxarıb. Bu mənada ulu öndərin siyasi kursunun davamını dəstəkləyən xalqımız bundan sonra da cənab İlham Əliyevin ətrafında sıx səfərbər olacaq. Odur ki, cəmiyyətdən daim dəstək alan, ölkəmizi qüdrətləndirən, yüksəldən, milli maraqlarını dünyada layiqincə təmsil edən Prezident İlham Əliyev xalqımızın alternativsiz lideridir.

## Prezidentin qayğısı ruh yüksəkliyi və stimul verir

**Novruzəli ASLANOV, Milli Məclisin deputatı, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti:**

- Dövlət müstəqilliyinin üçüncü onilliyini yaşayan Azərbaycanın inkişafını, yüksəlişini, beynəlxalq arealda qazandığı nüfuzu qiymətləndirərkən ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı əvəzsiz xidmətləri hər birimizin gözü önündə canlanır. Ulu öndər tərəfindən görülən böyük işlərin, onun həyata keçirdiyi xilaskarlıq və quruculuq missiyalarının məntiqi nəticəsidir ki, bu gün xalqımız demokratik və hüquqi bir dövlətdə yaşamaq imkanını əldə etmiş, xoşbəxt gələcəyi üçün bütün təminatları yaratmışdır. Azərbaycanın indiki sürətli yüksəlişinin təməlində məhz Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası dayanır.







Dahi şəxsiyyət yalnız Azərbaycanın davamlı inkişaf strategiyasının möhkəm təməlini qoymaqla kifayətlənməyib, bu strateji kursu davam etdirməyə qadir istedadlı, praqmatik və rasional təfəkkürlü, xalqını, dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçı və lider yetişdirib. Ölkəmizin strateji inkişaf kursunu yeni dövrün tələblərinə uyğun şəkildə, yüksək dinamizmlə həyata keçirən Prezident İlham Əliyev fəaliyyəti və verdiyi vədləri əməli işi ilə doğrultmaqla ulu öndər Heydər Əliyevin ən layiqli siyasi davamçısı olduğunu sübuta yetirib, milli ideyalara sadiqliyin mükəmməl nümunəsini yaradıb.

Cənab İlham Əliyev həm də qısa bir zaman ərzində geopolitik məkanda siyasi-iqtisadi proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən liderə çevrilib. Fəaliyyət göstərdiyi bütün sahələrdə qazanılmış nailiyyətlər onun siyasi prioritetinə yeni ştrixlər əlavə edib. Təsadüfi deyil ki, bu gün İlham Əliyevin adı dünyanın aparıcı dövlətlərinin rəhbərləri ilə bir sırada çəkilir. Dünyanın siyasi xəritəsində və beynəlxalq münasibətlər sistemində yeri olan aparıcı dövlətlərin rəhbərləri Azərbaycana və onun Prezidentinə dərin rəğbət və böyük ehtiramla yanaşırlar.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi son 15 il tariximizə möhtəşəm iqtisadi yüksəliş dövrü kimi daxil olub. Bu dövrdə ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri 13,5 dəfə artıb. Ölkənin strateji valyuta ehtiyatları 26,6 dəfə artıb, maliyyə imkanlarımız əsaslı şəkildə yaxşılaşıb. Müqayisə edilən illərdə xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixracın həcmi 6 dəfə yüksəlib. Bu gün "Made in Azerbaijan" adı altında Azərbaycan məhsullarının dünya bazarlarında özünə yer tapması Prezident İlham Əliyevin düşünülmüş iqtisadi siyasətinin nəticəsidir. Cənab Prezidentin təşəbbüsü ilə Azərbaycanın kosmosa peyk göndərməsi isə dövlətin böyük uğuru kimi mühüm strateji məqsədlərə xidmət edir.

Bunlarla yanaşı ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial siyasət sayəsində insanların həyat şəraitinin yüksəldilməsi, rifahının yaxşılaşdırılması sahəsində möhtəşəm nailiyyətlər əldə edilib. Hər şeydən əvvəl, yoxsulluq həddinin 50 faizdən 5 faizə endirilməsi, başqa sözlə, təxminən 10 dəfə azaldılması, 1 milyon 900 min yeni iş yerinin açılması nəticəsində işsizlik səviyyəsinin təxminən 5 faizə endirilməsi kimi tarixi nailiyyətlər qeyd olunmalıdır.

Onu da qeyd etmək istərdim ki, son 15 ildə Azərbaycanda ictimai fəaliyyət sahəsində də mühüm inkişaf tendensiyaları müşahidə olunub. Fərəhlə qeyd etməliyəm ki, ötən 15 ildə Azərbaycanı böyük inkişaf yoluna çıxaran Prezident İlham Əliyev bu müddətdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin də fəaliyyətinə yüksək diqqət və qayğı ilə yanaşıb. Məhz Azərbaycan Prezidenti, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəxri üzvü cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində milli cəmiyyət bu gün MDB ölkələrində ən inkişaf etmiş və ən yaxşı təchiz olunmuş milli cəmiyyətlərdən birinə çevrilib. Qürur hissi ilə qeyd etmək istərdim ki, cənab İlham Əliyevin prezident kimi fəaliyyətə başladığı ilk aylarda imzaladığı sərəncamlardan biri AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı olub.

Xatırladım ki, hələ 2007-ci ildə "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" qanunun qəbulu cəmiyyətin statusunun, hüquqlarının və fəaliyyət istiqamətlərinin, dövlət və yerli özünüidarə orqanları ilə qarşılıqlı münasibətlərinin hüquqi əsaslarının müəyyən edilməsi baxımından mühüm addım oldu. Bu qanunun qəbulu da məhz Prezident İlham Əliyevin qanunvericilik təşəbbüsü nəticəsində mümkün olmuşdur. Qanun layihəsi 2007-ci il mayın 8-də parlament tərəfindən qəbul edildi və dövlət başçısının 2007-ci il 22 may tarixli fərmanı ilə qüvvəyə mindi. Bu, Azərbaycan Respublikası Milli Məclisinin Qızıl Aypara Cəmiyyəti haqqında qəbul etdiyi ikinci ən önəmli hüquqi sənəd idi.

Prezident İlham Əliyevin 7 aprel 2008-ci il tarixli sərəncamına əsasən silahlı münaqişə qurbanlarına, fövqəladə hallar nəticəsində zərər çəkmiş insanlara humanitar yardım və sosial xidmətlərin göstərilməsi sahəsində AzQAC-ın səmərəli fəaliyyəti nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında "Qızıl Aypara Günü" kimi qeyd olunur. Milli cəmiyyətin 85, 90 və 95 illik yubileylərində bir qrup əməkdaşının orden və medallarla təltif olunması fəaliyyətimizə verilən yüksək qiymət olmaqla bizlərə humanizm kimi müqəddəs missiyamızı daha inamla həyata keçirməyimizə stimul verdi.

2013-cü ilin mart ayında Prezident İlham Əliyevin AzQAC-ın XXIV Baş Məclisinə göndərdiyi məktubda cəmiyyətimizlə bağlı söylədiyi fikirlər əməyimizə verilən yüksək qiymətin göstəricisidir: *"Respublikamızın müasir ictimai və sosial həyatında Qızıl Aypara Cəmiyyəti özünəməxsus yer tutur, humanizm və könüllülük prinsiplərinə əsaslanaraq qayğıya ehtiyac duyan insanlara lazımi yardım göstərir".*

2004-cü ildən bəri Azərbaycan Prezidenti AzQAC-a dövlət qayğısının artırılması ilə bağlı bir neçə sərəncam imzalayıb. Bu, fəaliyyətimizə diqqət və qayğının yüksək göstəricisi olmaqla bizi işimizə daha məsuliyyətli yanaşmağa, ölkəmizə layiqincə xidmət etməyə sövq edir.

Bu gün AzQAC Azərbaycanda 350 minədək üzvü, 30 minədək könüllüsü olan yeganə qeyri-hökumət təşkilatıdır. Hazırda cəmiyyətin 85 rayon bölməsi və 7 regional mərkəzi uğurla fəaliyyət göstərir. Beynəlxalq hərəkatı respublikamızda təmsil edən cəmiyyətin əsas məramı bəşəri fundamental prinsipləri rəhbər tutaraq, müvafiq qanunvericilik çərçivəsində əhalinin aztəminatlı təbəqəsinə, münaqişə, təbii və texnogen fəlakətlər zamanı zərərçəkmişlərə təmənnasız ilkin tibbi-sosial, humanitar yardım və digər zəruri xidmətlərin göstərilməsindən ibarətdir. Bu mənada cəmiyyətin fəaliyyəti çoxsahəlidir. Fəaliyyətimizi koordinasiya etmək məqsədilə Fövqəladə Hallar, Səhiyyə, Təhsil nazirlikləri, həmçinin Dövlət Miqrasiya Xidməti, Beynəlxalq Miqrasiya Təşkilatı, ANAMA ilə memorandumlar imzalanmışdır.

Hər bir ictimai, siyasi fəaliyyətin dəyəri cəmiyyətə, insanlara nə dərəcədə səmərəli olması ilə ölçülür. Əgər bir təşkilatın məramı ehtiyacı olanlara, dara düşmüş, fövqəladə vəziyyətə düçar olmuş insanlara yardım göstərməkdirsə, deməli, həmin təsisat cəmiyyətdə ən arzuolunan qurum hesab edilə bilər. Bu baxımdan 98 yaşlı AzQAC ölkəmizdə məhz hamıya lazımlı və gərəkli təşkilatdır. Dövlətimizin başçısı cənab İlham Əliyevin fəaliyyətimizə verdiyi yüksək qiymət isə bizə ən böyük ruh yüksəkliyi və stimul verməklə yanaşı, bu sahədə məsuliyyətimizi daha da artırır. Odur ki, cəmiyyətimiz bundan sonra da öz müqəddəs missiyasını uğurla davam etdirəcək, müstəqil Azərbaycanımıza layiqincə xidmət göstərəcək.

## Ulu öndərin ideyaları Prezident İlham Əliyevin fəaliyyətində yaşayır və inkişaf edir

**Tahir MİRKİŞİLİ, Milli Məclisin deputatı:**

- Azərbaycan dövlətçiliyinin minilliklərlə ölçülən tarixi var. Regionda böyük bir coğrafiyanı əhatə edən ərazilərdə güclü bir dövlət qurmağı və ədalətli idarəetmə sistemini yaratmağı bacarmaqla Azərbaycan xalqı dövlətçiliyə əsaslanan milli ideyaya sahib olduğunu hər zaman göstərmiş və tarixin müxtəlif mərhələlərində bu milli ideyanı müxtəlif formada reallaşdıra bilmişdir.

Bu gün biz öz müstəqil, suveren dövlətçiliyi ilə dünya birliyi tərəfindən tanınan və sayca bir o qədər də çox olmayan xalqlardan biriyik.

Dayanıqlı və möhkəm dövlət quruculuğunun əsas tələbi xalqın strateji fəaliyyət proqramının, dövlətin və millətin mövcudluğunun mənası, milli inkişafın məqsəd və prioritetləri kimi çıxış edən milli ideyanın var olmasıdır.

Milli ideyanı milli gerçəkliyə və tarixi taleyə çevirən əsas qüvvə isə lider faktorudur. XX əsrin ortalarından etibarən ulu öndər Heydər Əliyevin şəxsində tarixin Azərbaycan xalqına bəxş etdiyi lider Azərbaycanın təşəkkülündə və azərbaycanlıların yenidən öz milli ideyalarını reallaşdırmasında həyati əhəmiyyətli rol oynadı. O, müstəqil, dövlətçilik ənənələri olan, güclü və yeni bir Azərbaycan yaratdı. Öz siyasəti, inkişafı, müasirliyi, dayanıqlılığı, etibarlılığı ilə bütün dünyaya səs salan bir Azərbaycan...

Bu gün Heydər Əliyevin əməlləri və ideyaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti və gərgin əməyi nəticəsində yaşayır və daha da inkişaf edir. Məhz onun rəhbərliyi ilə Azərbaycan yeni və gözlənilməz uğurlara imza atdı.

Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatı inkişaf sürətinə görə dünyada lider oldu. Bütün beynəlxalq reytinqlərdə daim irəliləyən və öncül yerlər tutan Azərbaycan iqtisadiyyatı keçən 15 il ərzində 3,2 dəfə böyüyərək regionda söz sahibinə çevrildi. Onun təşəbbüsləri və möhkəm iradəsi ilə həyata keçən regional layihələr Azərbaycanı Avrasiya materikinin mərkəzi etdi. Dünya okeanına çıxışı olmayan Azərbaycanda reallaşan "Prezident layihələri" dünyada yeni bir iqtisadi fenomen yaratdı. Bu fenomen ölkələri və xalqları birləşdirən, etibarlılıq, təhlükəsizlik, yaradıcılıq, innovativlik prinsiplərinə əsaslan əməkdaşlıq forması oldu. Prezident İlham Əliyevin iradəsi ilə ölkədə aparılan iqtisadi islahatlar qısa müddətə öz nəticəsini verdi, bütün xarici təsirlərə baxmayaraq dayanıqlı iqtisadi artıma nail oldu. Məhz onun çağırışına səs verən sahibkarlar və xarici investorlar ölkə iqtisadiyyatına əlavə dəyər yaratmaq üçün Azərbaycana keçən dövrdə 250 milyard dollardan çox investisiya qoyub. Qeyri-neft sektorunun, sənayenin, kənd təsərrüfatının, turizmin inkişafı qısa müddət ərzində aparılan islahatların nəticəsi olmaqla yanaşı, iqtisadiyyatın yenilənməsinə xidmət edir.

İqtisadi islahatların əhatəsinə görə dünyada lider ölkələrdən olan Azərbaycan bu gün öz müasir və çevik iqtisadi siyasətinə görə fərqlənir. Güclü əsasları olan Azərbaycan iqtisadiyyatı və onun cəlbedici imkanları artıq Qərb-Şərq, Şimal-Cənub arasında inteqrasiya rolunu oynamaqdadır. Ölkə Prezidenti İlham Əliyevin düşünülmüş, gələcəyə hesablanmış iqtisadi strategiyası Azərbaycanın iqtisadi qüdrətini dayanıqlı etməyə hesablanmışdır və bu qərarlar hər keçən gün öz nəticələrini verməkdədir.

Cənab İlham Əliyev hər zaman öz siyasətinin mərkəzində Azərbaycan vətəndaşının durduğunu bəyan edir və bunu öz əməli ilə sübut edir. Keçən 15 il ərzində Azərbaycanda 2 milyona yaxın yeni iş yerləri yaradıldı. Yoxsulluq 9 dəfəyə yaxın, işsizlik isə 2 dəfəyə yaxın azaldı. Sosial qayğıya ehtiyacı olan insanlar daim dövlətin və Prezidentin qayğısı ilə əhatə olunurlar. Dövlət büdcəsi xərclərinin sosial siyasətə yönələn hissəsi 30 faizi keçdi. Prezident olduğu ilk gündən insan kapitalının inkişafını əsas hədəflərdən biri kimi elan edən cənab İlham Əliyev bu hədəfə çatmaq üçün yüzlərlə məktəb tikintisinə, xaricdə oxuyan tələbələrə dövlət maliyyə dəstəyinin verilməsinə sərəncamlar imzaladı, insanların sağlam həyat tərzi sürməsi üçün xüsusi dövlət proqramları qəbul etdi.

Güclü ordu yaradan dövlət başçısı öz vətənpərvərliyi ilə Azərbaycan gənclərinə məğlubedilməzlik aşıladı. 2016-cı ilin aprel döyüşlərində düşmənə sarsıdıcı zərbə vuran Azərbaycan Ordusu məğlubedilməzlik və vətənpərvərlik əzmini bütün dünyaya nümayiş etdirdi. Həmin günlərdə 100 minlərlə gəncimiz məhz ona güvənərək birlik və dəstək gücünə sahib çıxdı. Azərbaycan dövləti qarşısında ən böyük problem olan Dağlıq Qarabağ münaqişəsinin həlli və ölkənin ərazi bütövlüyünün bərpası üçün yorulmadan çalışan ölkə Prezidenti bu hədəfə addım-addım yaxınlaşmaqdadır. O, özünün güclü və ardıcıl xarici siyasəti ilə Azərbaycanın dostlarının sayını daim artırır, düşmənlərini isə durmadan zəiflədir.

Prezident İlham Əliyevin apardığı həm xarici, həm də daxili siyasətin məğzində Azərbaycanın inkişafı, müstəqilliyinin möhkəmlənməsi, əhalinin maddi rifah halının daim yaxşılaşması və ölkə vətəndaşlarının təhlükəsizliyi durur. Bu meyarlar və əldə olunan nəticələr insanlarda gələcəyə inamı daha da gücləndirir və ölkəmizin dünyada etibarlı tərəfdaş mövqeyini durmadan möhkəmləndirir. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan daha da inkişaf edəcək və hər zaman öz dəyərləri ilə seçilib-seviləcəkdir.

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# XXI əsrin lideri



*Əvvəli 1-ci səh.*

Ulu öndər insanlarımızın, dövlətimizin çox çətin məqamlarında öz ağlı, iradəsi, qərar qəbul etmək səriştəsi, doğru yolu göstərmə bacarığı ilə xalqı vahid amal uğrunda səfərbər edərək, zülmətdən işığa çıxarmışdı, milli hədəflərə doğru apara bilmişdi. Bu gün isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövrü lider şəxsiyyətinin mükəmməl nümunələrini əks etdirən böyük bir tarixi salnaməyə çevrilmişdir.

## Zəka, iradə, uzaqgörənlik

Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Ulu öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun uğurla davam etdirilməsi sayəsində cənab İlham Əliyev Azərbaycanı bugünkü yüksəliş və inkişaf yoluna, tariximizin ən qüdrətli mərhələsinə gətirib çıxara bilib.

Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində mümkün olmuşdur. Bu mənada Prezident İlham Əliyev şəxsiyyəti müasir cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir. Bu obraz, eyni zamanda ulularımızdan bizə miras qalmış böyüklük, comərdlik, el-oba üçün faydalı işlər ortaya qoyan əməlisalehlik kimi yüksək mənəvi dəyərləri əks etdirir.

Cənab İlham Əliyev tarixdə ona qədər ad qazanmış bütün böyük liderlər kimi insanların mənəvi birliyini təmin edən, cəmiyyətdə müəyyən pozitiv əhvali-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən mühüm qüvvədir. Xalqın lideri ilk növbədə insanları ümumi ideya, prinsip, məqsəd ətrafında birləşdirməyi bacarmalıdır. Ulu öndər Heydər Əliyevin yetkin bir məfkurə kimi xalqımıza təqdim etdiyi azərbaycançılıq ideologiyasının əsasını təşkil edən dövlətçilik, vətənpərvərlik, ənənələrə bağlılıq prinsipləri bu gün milli birliyin əsas təminatçısı kimi çıxış edir. Bu prinsiplərə sadiqliyini qoruyub saxlayan Prezident İlham Əliyev isə öz fəaliyyəti ilə Heydər Əliyev ideyalarının layiqli davamçısı olduğunu göstərməklə yanaşı, innovasiyalara tez uyğunlaşmaq bacarığı, dəyişən qlobal və regional reallıqlar şəraitində ölkənin sabit milli maraqlarını qoruya bilmək qabiliyyəti ilə özünün əsl siyasi lider olduğunu isbat edir.

## Şəxsiyyət fenomeni

Məhz belə fenomen şəxsiyyətlərin müəyyənləşdirdiyi yol hər bir millətin strateji inkişaf konsepsiyasına çevrilməklə onun dünya arenasında özünə layiqli yer tutmasını təmin edir. “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” deyən Heydər Əliyevin xalqımıza özünün layiqli davamçısı kimi təqdim etdiyi İlham Əliyevin prezidentlik fəaliyyətinin təhlili belə bu fikrin təxmin deyil, qəti qənaət olduğunu sübut edir. Ümummilli liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Prezident İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə onun dövrün çağırışlarına çevik reaksiya verən, yüksək erudisiyaya və idarəetmə bacarığına malik, xalqına və dövlətinə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar.

Azərbaycan xalqının Prezident İlham Əliyevə dərin məhəbbətinin, sarsılmaz inamının əsasında dövlətimizin başçısının liderlik keyfiyyətləri dayanır. Onu xalqa sevdirən ən mühüm xüsusiyyəti əsl dövlət rəhbərinə xas qətiyyət, atdığı hər bir addımda milli maraqları öndə yaşatmasıdır. Prezident İlham Əliyevin verdiyi hər bir qərar Azərbaycan dövlətinin milli maraqlarına istinad edir. Xalqa xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq onun həyat fəlsəfəsidir.

Prezident İlham Əliyevin sosial siyasətinin əsasında Azərbaycan vətəndaşı dayanır. Artıq neçə illərdir ki, ölkədə sosial sahələrin dirçəldilməsi, bu sektorlara güclü investisiya axınının müşahidə olunması Prezident İlham Əliyevin fəaliyyətinin mühüm istiqamətlərindən biridir. Prezident İlham Əliyevin həyata keçirdiyi inkişaf konsepsiyasını hər bir azərbaycanlı öz həyatında hiss edir. Çünki dövlət başçısının müəyyənləşdirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezidentin diqqət və qayğısı sayəsində Azərbaycanın müasir təhsil modeli yaranır, ölkədə yeni təhsil konsepsiyası formalaşır. Milli dəyərlər üzərində qurulan təhsil modeli gənclərin nümunəvi vətəndaş kimi formalaşmasını təmin edir. 2003-cü ildən indiyə qədər ölkədə yüzlərlə məktəb tikilib, respublikada heç bir zaman olmayan geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Statusundan asılı olmayaraq bütün məktəblərimizdə informasiya və kommunikasiya texnologiyaları ilə təminat proqramı çərçivəsində böyük işlər aparılıb.

Azərbaycanda elmi potensialın gücləndirilməsi sahəsində də mühüm addımlar atılıb. Ötən illər ərzində təhsil və elm müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Dövlət rəhbərimizin təşəbbüsü ilə həyata keçirilən müvafiq dövlət proqramları ölkə üçün zəruri olan kadrların hazırlanması işinə böyük töhfə verir. Minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali məktəblərində ölkəmizin bu gününə və gələcəyinə töhfə vermək üçün peşəkar mütəxəssis kimi yetişir. Həmçinin eyni təhsil standartlarının respublikamızda yaradılması məqsədilə davamlı işlər görülür, ardıcıl addımlar atılır. Bu gün yaşadığımız modern cəmiyyətin əsas güc mənbəyi zamanı qabaqlayan insan ağlıdır. Bu, bir qrup innovasion elitadır. Bəs onlar harada yetişir? Əlbəttə, təhsildə! Həmişə deyiblər, istedad milli sərvətdir. Bu gün də deyirlər ki, istedadlı gənc cəmiyyətin ən dəyərli sərvətidir. Amma istedadı yetişdirən, cilalayan, sosial qayğı ilə əhatə edən, onun verdiyi bəhrələrə nail olan məhz təhsildir.

Vətəni modernləşdirmə konsepsiyasının əsas təşəbbüskarı olan Prezident İlham Əliyev innovasion kadr potensialı yaradılması, orta məktəbdən başlayaraq xüsusi proqramlar həyata keçirmək üçün dövlət əhəmiyyətli sənədlər imzalayıb. Təhsilimizin əsas vəzifəsi bu sənədlərdə verilən istiqamətləri yerli şəraitə uyğun məsuliyyətlə tətbiq etməkdir.

Təhsillə yanaşı, ölkədə səhiyyə islahatları da uğurla davam etdirilir. Əhalinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında səhiyyənin prioritet sahələri üzrə qəbul olunan dövlət proqramları müstəsna rol oynayır. Tibb ocaqlarında xidmətin keyfiyyəti yaxşılaşdırılır. Aztəminatlı və ağır xəstəliklərdən əziyyət çəkən insanların pulsuz dərmanlarla təmin olunması və müalicəyə cəlb edilməsi diqqət mərkəzində saxlanılır. Son illərdə səhiyyə sahəsində yaşanan ən böyük inqilabi dəyişiklik isə bu sektorun dünyanın ən müasir tibbi texnika və avadanlıqlarla təmin olunmasıdır. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoymuş Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri regionda ilk dəfə açıq ürək əməliyyatı və qaraciyərin köçürülməsi kimi mühüm nailiyyətlərə imza atır. Bu illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin sürətli və keyfiyyətli inkişafından xəbər verir.

## Arzulardan gəlmiş insan

İlham Əliyev millətin arzularından gəlmiş liderdir. O, xalqın arzularını yerinə yetirir. Ölkənin mərkəzindən başlamış ən ucqar kəndlərinə qədər çəkilən abad yollarla, insanların həyatını rahatlaşdıran işıq, qaz, su, elektrik, rabitə xətləri və böyük infrastruktur layihələri ilə elə-obaya fayda verir. Azərbaycan Prezidenti vədlərə deyil, əməllərə əsaslanır. İnsanların qarşısına real işlərlə çıxır. Vətəndaşlarımız ona olan bütün ümidlərin addım-addım özünü doğrultduğunu görürlər. İlham Əliyev şəxsiyyətinə olan ümumxalq məhəbbəti də bundan irəli gəlir. Cənab İlham Əliyev xarizmatik liderdir. Bir çox beynəlxalq ekspertlər, o cümlədən nüfuzlu nəşrlər də Prezident İlham Əliyevi məhz belə təqdim edirlər. Ləyaqətli siyasət, kifayət qədər cəsarət və ölkənin gələcəyi üçün aydın strategiya mövcud olduğu halda müstəqil siyasət yeritmək mümkündür. Bu, Azərbaycan Prezidentinin ölkəmizin müstəqilliyini qorumaq, daha da möhkəmləndirmək üçün istinad etdiyi əsas uğur formuludur. Müstəqil siyasət əsas etibarilə ölkəyə rəhbərlik edən liderin şəxsi keyfiyyətlərindən və effektiv idarəetməsindən, bütövlükdə, onun istinad etdiyi rasional davranış modelindən asılıdır. Prezident İlham Əliyevin şəxsi keyfiyyətləri, idarəetmə tərzi, verdiyi müdrik qərarlar Azərbaycanın müstəqil siyasətinin təminatıdır. Və bu müstəqil siyasət, ilk növbədə, Azərbaycan xalqının iradəsinə əsaslanır”.

Ölkəmizin bu illər ərzindəki ən böyük uğuru da müstəqillik yolundan dönməməsi, bu yola sadiqliyidir: “Müstəqillik sadəcə olaraq, dövlət atributları deyildir. Müstəqillik o deməkdir ki, ölkə müstəqil siyasət apara bilir, yoxsa yox. Xüsusilə, böyük olmayan ölkələr üçün bu, daha aktualdır. Xüsusilə, böyük güc mərkəzlərinin maraqlarının kəsişdiyi bir coğrafi məkanda yerləşən ölkələr üçün bu, aktualdır. Bu məkanda, bu qonşuluqda təbii sərvətlərlə zəngin olan Azərbaycan müstəqil siyasət aparır və aparacaqdır. Bizim təcrübəmiz onu göstərir ki, bu, mümkündür”.

Azərbaycanın daxili və xarici siyasəti müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Xarici siyasi əlaqələrini respublikamız siyasi, iqtisadi, hərbi, humanitar və digər sahələrdə müttəfiqlərini, əməkdaşlıq etdiyi ölkə və beynəlxalq təşkilatları özü seçir. Azərbaycan öz təbii sərvətlərinin sahibi kimi enerji sahəsində əməkdaşlıq əlaqələrini dövlət maraqları və qarşılıqlı faydalılıq prinsipləri əsasında reallaşdırır. Eyni zamanda, ölkəmizin iqtisadi qüdrəti elə bir səviyyəyə çatıb ki, dünya bazarlarında baş verən kəskin dəyişikliklərin, böhranların təsir gücü ən aşağı həddədir. Cənubi Qafqaz iqtisadiyyatının 80 faizini təşkil edən Azərbaycan iqtisadiyyatı gücünə görə regionda liderdir. Ölkədə, həmçinin əhalinin gəlirlərinin artımı, sosial-siyasi sabitlik təmin olunub. Bu səbəbdən də müəyyən xarici qüvvələrin Azərbaycana təzyiq göstərmək, daxili sabitliyi pozmaq cəhdləri hər dəfə uğursuzluğa düçar olur.

## Bəşəriyyətə verilən faydalar

Müstəqil dövlətimizin iqtisadi potensialının əsaslı şəkildə yüksəlməsi, maliyyə imkanlarının maksimuma çatdırılması, Azərbaycanın bölgədə əsas söz sahibinə çevrilməsi müasir tariximizin mühüm reallıqlarıdır. Bu gün ölkəmiz regionun siyasi mənzərəsini dəyişən möhtəşəm layihələrin təşəbbüskarıdır. Prezident İlham Əliyevin möhkəm siyasi iradəsi və prinsipiallığı ilə möhtəşəm transmilli enerji və nəqliyyat layihələrinin reallaşmasını təmin etməsi ilə Azərbaycanın çağdaş tarixinin ən şanlı səhifələri yazıldı. Ölkəmiz indi Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Azərbaycan Beynəlxalq “Şərq-Qərb”, “Şimal-Cənub nəqliyyat qovşağı” kimi əhəmiyyətli infrastruktur uğurla gerçəkləşdirilib. Zamanın uzaq çağlarında karvanların əhatə addımları ilə tarixə nizam verən qədim İpək yolu yenə Azərbaycandan keçir. Dünyanın müxtəlif səmtlərində ayrılan, kəsişən, çarpazlaşan yollar, ziddiyyətli geopolitik maraqlar Azərbaycanda birləşib öz axarında gələcəyə doğru davam edir. Azərbaycanın iştirakı ilə yeni bir tarix yazılır. Bütün bunlar cənab İlham Əliyevin mətin və qətiyyətli addımlarının nəticəsidir. Azərbaycanın regional siyasətdə və dünya iqtisadiyyatında rolu və əhəmiyyəti getdikcə genişlənir. Beynəlxalq tərəfdaşlar Azərbaycanın gələcəyinə inanır, ölkəmizə, onun rəhbərliyinə etibar edir. Zəngin sərhədlərə malik bu ölkədə daha böyük perspektivlərə inanırlar. Azərbaycanla bağlanmış tərəfdaşlıq müqavilələrinin müddətinin zamanla uzadılması bu inamın, güvənin ifadəsidir. Yüksək intellekti, praqmatik düşüncəsi, müasir dünya siyasəti və iqtisadiyyatı haqqında dərin bilikləri, mütərəqqi ideyaları ilə müasir çağda təkcə bir xalqa, dövlətə deyil, ümumən bəşəriyyətə böyük faydalar gətirən Prezident İlham Əliyev dühası ilə beynəlxalq miqyasda sözünün böyük çəkisi olan Liderdir. Azərbaycanın milli maraqları ilə bağlı dünyada cərəyan edən proseslərə dair Onun öz baxışları var. Heç bir amil Azərbaycan Respublikasının Prezidentini öz qətiyyətli mövqeyindən çəkindirmək gücündə deyil. Bütün dünyada Onun rəyi ilə hesablaşırlar. Çünki cənab İlham Əliyev yürütdüyü siyasətlə, mürəkkəb qlobal proseslərdə tutduğu düzgün mövqe ilə, ən əsası isə, Azərbaycana qazandırdığı sarsılmaz nüfuz ilə bu münasibətə tam layiq lider kimi tanınıb. Azərbaycanın dünyada ləyaqətli mövqeyinin qəbul edilməsi, zərgər dəqiqliyi ilə hesablanmış balanslı siyasi kursun və diplomatiyanın son nəticədə ölkəmizə böyük siyasi dividendlər qazandırması məhz bu amildən qaynaqlanır.

## Comərdlik

Bu gün sanki, bir lider böhranı yaşayan və bu böhran ucbatından saysız-hesabsız problemlərlə üzləşən dünyada cənab İlham Əliyev əsl liderlik xüsusiyyətlərini qoruyaraq, bu xüsusiyyətləri xalqımıza xas yüksək mənəvi-əxlaqi normalarla, məharətlə uzlaşdıraraq dünyada nümunəvi bir rəhbər obrazı yaratmışdır.

Bir neçə gün əvvəl Belarus Prezidenti Aleksandr Lukaşenkonun mediada yayılmış maraqlı açıqlamalarını oxuduq. Bu açıqlamalarda illər ərzində mətbuatın xəbərdar olmadığı maraqlı məqamlardan söhbət gedirdi. Belarus Azərbaycana dost ölkədir. Ölkələrimiz, xalqlarımız hər zaman bir-birinə dəstək olmağa çalışıb. Bir neçə il əvvəl Belarus borcun ödənişi ilə bağlı çıxılmaz vəziyyətdə qalır. Qısa müddət üçün hansısa ölkənin əl tutmasına ehtiyacı yaranır. Belə məqamda Aleksandr Lukaşenko cənab İlham Əliyevə üz tutur. Dövlət rəhbərimiz yardım əlini əsirgəmir. Dost ölkənin müşkülü bir an içində həll olunur və qısa müddət sonra yenidən vəziyyətini qaydasına salıb Azərbaycanın borcunu qaytarır. Bu, sıradan bir diplomatik davranış, dövlətlər arasında ikitərəfli münasibətlərə aid məqam, iqtisadi qərar deyil, Azərbaycan əxlaqının, Azərbaycan mentalitetinin yüksək mənəvi dəyərlərinin bir nümunəsidir. Ulularımız, el-obanın mötəbər, comərd kişiləri də məhz belə edərdilər. Dara düşmüş dosta imkan olduqca yardımlarını əsirgəməzdilər. Ehtiyacı olana əl tutub ayağa qaldırmağı şərəf sanardılar. Bu qudsal dəyər Azərbaycanda bir dövlətçilik əxlaqıdır. Bu misilsiz dəyərlərin dövlətçiliyimizin fövqünə qaldırılmasıdır. Bu, dövlət başçımızın bütün qaydalarını, diplomatik manevrlərini əxlaq normaları çərçivəsində quran, hətta düşmənlə də mərdi-mərdanə davranan ən xarakterik məqamlarda böyüklüyünü, uzaqgörənliyini təsdiq edən güclü şəxsiyyətdir. O, öz diplomatik davranışları ilə sübut edir ki, siyasət, əslində, qəliz bir peşə deyil. Siyasəti qəlizləşdirmək insanlara, dünyaya xidmət üçün deyil, öz mənfur niyyətlərini reallaşdırmaq üçün çalışanların bədnam əməlləridir. Dünyanın dörd bir yanında münaqişə ocağı qalayanlardır. Xalqları, mədəniyyətləri üz-üzə qoyanlardır. Süni iqtisadi təlatümlər yaradıb sadə adamların son ruzisini əlindən almaq istəyənlərdir. Bizim Prezident öz parlaq şəxsiyyəti ilə bu mənfur əməllərə qarşı çıxır. Bütün Yer üzündə sülhün, dostluğun, sevgi və hörmət mühitinin bərqərar olmasına çalışır. Azərbaycan iki dost ölkə arasında hansısa qüvvələr münaqişə toxumu səpib məqsədlərinə nail olmağa başlayanda öz siyasi iradəsinin gücü ilə tərəfləri döyüş meydanından söhbət masasına gətirib anlaşılmazlığın aradan qaldırılmasına can atır. Bunun üçün şəxsi nüfuzundan, dərin dühasından hər iki tərəf üçün mötəbər sözünün qüdrətindən istifadə edir.

Bir neçə il əvvəl qardaş Türkiyə ilə uzunmüddətli tarixi bağlara, dostluq əlaqələrinə malik Rusiya arasında hərbi təyyarənin vurulması anlaşılmazlığı ilə bağlı yaranmış qarşıdurma hamının yadındadır. Qısa müddətdə çox gərgin həddə çatan bu qarşıdurma tədricən səngiməyə başladı. Tərəflər bir-birini anlayıb, pozulmuş münasibətləri qaydasına qoymaqdan ötrü müəyyən addımlar atdılar. Ona qədərsə maraqlı qüvvələr bu münaqişənin daha da qızışıb regionu qan gölünə döndərəcəyini gözləyirdilər. Türkiyə-Rusiya münaqişəsinin onlara gətirəcəyi böyük faydalar üzərində planlar qururdular. Amma mənfur niyyət çin olmadı. Tərəflər arasında barışıq alındı. Aylar sonra mətbuata sızan məlumatlardan məlum oldu ki, bu barışıqda, münaqişə işartısının alova çevrilmədən iki ölkənin dostluq qalasının viran olmasının qarşısının alınmasında Azərbaycan Prezidenti də böyük rol oynayıb.

Bu da Azərbaycan xalqının minillik əxlaqından, “Kitabi-Dədə Qorqud” kimi mənəviyyat abidələrimizdən süzülüb gələn bir dəyərdir. Min illər əvvəl də bu xalqın el-də-obada sözü keçən ağsaqqalları, ağbirçəkləri insanlar arasında sülh yaradardılar, bircə kəlmələri ilə qanlı davaların qarşısını alardılar. Bunu özlərinə şərəf bilərdilər. Cənab İlham Əliyev bu əxlaqı XXI əsrə daşıyıb gətirən, onu yaşadan, qoruyan, milli dəyərlərimizi bütün dünyaya çatdıran əsl milli liderimizdir.

## Azərbaycanı qoruyan lider

Cənab İlham Əliyev öz liderlik keyfiyyətləri ilə XXI əsrin siyasi liderinin mükəmməl portretini yaradır. Yeni minilliyin başlanğıcında bu statusun dəyər və meyarlarını formalaşdırır. Bir tərəfdən klassik liderlik konsepsiyası, digər tərəfdən də müasir liderlərə münasibətdə irəli sürülən və ya təbii olaraq meydana çıxan tələblər prizmasından yanaşmaqla O, əsl liderin bütün keyfiyyətlərini özünün mənəvi və siyasi simasında təcəssüm etdirə bilir.

Cənab İlham Əliyev bütün dünyada arzu olunan, lakin çox az təsadüf edilən nadir liderlərdəndir ki, cəmiyyət can atdığı, özünə rəhbər seçdiyi şəxsiyyətdə görmək istədiyi bir çox cəhətləri həm mənəvi-siyasi lider, həm güclü sərkərdə, həm mahir diplomat, həm bacarıqlı idarəçi, həm qurucu rəhbər obrazlarını Onun siyasi portretində tapa bilir. Hakimiyyəti xalqa güvənən, onun dəstəyini, məhəbbətini daim hiss edən ləyaqətli və peşəkar siyasətçi idarə edəndə dövlət daha qüdrətli olur və inanılmaz yüksək nəticələrə öz möhürünü vurur.

İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim edir, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən fəaliyyət örnəyi formalaşdırır. Bununla da, radikalizm, ekstremizm kimi mənfi təzahürlərin milli siyasi sistemimizə qayıtmasına imkan vermir.

Azərbaycan Prezidenti siyasi sistemimizə qüsursuz siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi bəxş edir. Demokratiyanın istismarçı siyasi vasitə deyil, milli mədəniyyətimiz və mentalitetimizlə, eyni zamanda, müsəlman sosial-psixoloji kimliyimizlə uzlaşan bir dəyər və yaşam tərzi olduğunu sübut edir. İntellektual əsaslarda yeni demokratik cəmiyyət modeli formalaşdırır.

İlham Əliyev Azərbaycanın maraqlarını sarsıtmaq istəyən antiazərbaycançı qüvvələrin ölkəmizə qarşı çirkin planlarını məharətlə pozur, xalqımızı etnik, siyasi, ideoloji qarşıdurmalardan qoruyur. Bu qüvvələrin başqa müsəlman ölkələrindən bir qismində həyata keçirib insanlara zillət yaşatdıqları “lidersizləşdirmə, ideologiyasızlaşdırma və dövlətsizləşdirmə” siyasətinin ölkəmizdə həyata keçirilməsinə imkan vermir. Bu hücumlara qarşı dəqiq və olduqca incə düşünülmüş milli vətənpərvərlik, milli mənəviyyat və milli ailə siperini çəkir.

Azərbaycan Prezidenti “neft kapitalını intellektual kapitala çevirək” şüarı ilə kreativ gənclik yetişdirmək məsələsini strateji vəzifə kimi müəyyənləşdirməklə Azərbaycanın gələcək inkişafını təmin edir. XXI əsrdə nəhəng transmilli layihələri həyata keçirməklə rəqiblərinin dizini yerə gətirir, bu layihələri müstəqilliyimizin təminatçısına çevirir. Bütün maneələrə baxmayaraq, qlobal enerji-kommunikasiya layihələri ilə regionu qlobal inkişaf mərkəzinə çevirir. Azərbaycanın təlqin etdiyi dəyərlərlə dünyada mədəniyyətlərarası dialoqun, tolerantlığın, multikultural dəyərlərin yayılmasına nail olur.

Bu gün Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi özünü dünyada təsdiq etmişdir. Dövlət rəhbərimizin yeritdiyi uğurlu diplomatiya sayəsində dünya siyasətinə təsir imkanları getdikcə artan Azərbaycanın bütövlükdə Avratlantik coğrafi arealında sülh, tərəqqi, əməkdaşlıq paytaxtına, beynəlxalq miqyaslı enerji-kommunikasiya layihələrinin lokomotivinə çevrildiyi getdikcə daha qabarıq görünür.

*Respublikamızın aktiv inkişaf fazasına daxil olduğu indiki mərhələdə vətənimizin bütövlüyü uğrunda dünyada yaşayan hər bir azərbaycanlının, hər bir vətəndaşımızın ən ülvi arzusu rəhbərimizin böyük dühası, həssas və qılıncdan iti siyasəti ilə çin olacaq. XXİ əsrin liderinin, bütün dünyaya sülh, barış, həmrəylik toxumları səpən dönməz siyasəti uğurlu qələbəsini təmin edəcək. Azərbaycan öz intibahına XXİ əsrin lideri ilə, bütöv Azərbaycan ilə, azərbaycançılıq ideologiyası ilə nail olacaq.*

***Nurlana ƏLİYEVA,***
***Bakı Slavyan Universitetinin rektoru, professor,***
***YAP Qadınlar Şurasının sədri***



# İdarəetmədə islahatçılıq və novatorluq örnəyi

Sabahına biganə olmayan hər bir xalqın taleyində siyasi lider amili müstəsnalıq təşkil edir. Əsl siyasi liderlər cəmiyyətdə siyasi prosesləri istiqamətləndirməklə yanaşı, tarixi inkişafın gedişini müəyyən edən cəlbedici proqram və konsepsiyaların müəllifinə çevrilirlər. Real siyasət də məhz belə siyasi liderlərin davranışlarına, bütövlükdə cəmiyyət həyatına təsir göstərən qərarlarına əsaslanır.

Dünya şöhrətli ictimai-siyasi xadim, ümummilli lider Heydər Əliyevin milli maraqları nəzərə almaqla yürütdüyü siyasəti XXI əsrin başlanğıcında bütün sahələrdə layiqincə davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycanın müstəqil dövlət kimi bölgədə və dünyada layiqli yerini tutmasını, regional liderliyini təmin etmişdir.

Azərbaycanı Avratlantika geosiyasi arealında öz sözü və mövqeyi olan, səmərəli iqtisadi təşəbbüslərin müəllifi kimi tanınan dövlətə çevirən cənab İlham Əliyevin 2003-cü ildən yürütdüyü siyasət dövlət başçısının xalqın, dövlətin gələcək inkişafı ilə bağlı aydın baxışlara malik olduğunu göstərir. Dövlət başçısı ulu öndərin böyük müdrikliklə irəli sürdüyü inkişaf strategiyasını ötən 15 ildə inamla davam etdirməklə yanaşı, yeni dövrün tələblərinə uyğun zənginləşdirmiş, sosial-iqtisadi islahatlarla demokratikləşmə proseslərinin paralel şəkildə aparılmasına, birinin digərini tamamlamasına çalışmışdır.

Ötən 15 ildə həyata keçirilən sosial-iqtisadi islahatların, infrastruktur layihələrinin səmərəli nəticələr verməsi, hər bir fərdin maraq və mənafeyini özündə maksimum dərəcədə əks etdirməsi, dövlətin perspektiv inkişafına hesablanması dövlət başçısı cənab İlham Əliyevin yüksək bilik və intellektə, çevik idarəçilik məharətinə, yüksək əzmə, qətiyyətə malik lider olduğunu bir daha təsdiqləyir.

Dövlət başçısının ötən illərdə praqmatizmə və əməli siyasətə söykənən iqtisadi siyasətinin əsas qayəsində məhz insan amili dayanmış, cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədlərə sadiq qalmaqla hər bir azərbaycanlının layiqli Prezidenti olduğunu təsdiqləmişdir. “Hər bir məmur xalqının xidmətçisi olmalıdır” deyə hakimiyyəti xalqa layiqli xidmət vasitəsi kimi dəyərləndirən dövlət başçısı hökumətin mütəmadi olaraq xalq qarşısında hesabat verməsini, görülən işlər barədə ictimaiyyətin hərtərəfli məlumatlandırılmasını da demokratik idarəetmənin zəruri tələbi kimi önə çəkmişdir.

Respublikamızda son 15 ildə həyata keçirilən iqtisadi siyasətin sosialyönümlü mahiyyət daşıması bir sıra reallıqlarla şərtlənərək cəmiyyətin sosial sifarişini əks etdirmişdir. Dəniz səviyyəsindən 3000 metrədək hündürlükdə yerləşən Qubanın Xınalıq kəndinə yolun, sovetlər dövründən mavi yanacaq üzü görməyən Lerik və Yardımlıya qaz kəmərlərinin çəkilməsi, eləcə də Naxçıvanın davamlı olaraq elektrik enerjisi və qazla təmin olunması, Bakıya Oğuz-Qəbələ zonasından su kəmərinin çəkilməsi, rayonlarda yeni təhsil, səhiyyə, mədəniyyət, olimpiya idman komplekslərinin tikintisi, qaçqın düşərgələrinin tamamilə ləğvi - bütün bunlar Azərbaycan vətəndaşlarının firavan, rahat yaşamasına xidmət edən qlobal investisiya layihələrinin çox cüzi qismidir.

Ötən illərdə ölkədə uğurla həyata keçirilən siyasət eyni zamanda Azərbaycan üçün taleyüklü bir sıra layihələrin gerçəkləşməsini, respublikanın bütövlükdə Cənubi Qafqaz regionunda lokomotiv dövlətə çevrilməsini təmin etmişdir. Ümummilli lider Heydər Əliyevin böyük müdrikliklə irəli sürdüyü yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi nəticəsində Azərbaycan Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçısına çevrilmiş, ölkəmizin dünya üçün önəmi daha da artmışdır. Ötən il Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, “Əsrin müqaviləsi”nin yenilənməsi, eləcə də Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması bu baxımdan beynəlxalq əhəmiyyətli hadisə kimi qarşılanır.

Dövlət başçısının son 5 ildə imzaladığı “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası və “Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi” kimi konseptual əhəmiyyətli sənədlər deməyə əsas verir ki, cənab İlham Əliyev Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının dərin elmi proqnozlar əsasında işlənib hazırlanmasına çalışır. Son 3 ildə Azərbaycan Respublikası Prezidentinin İqtisadi İslahatlar üzrə Köməkçisi Xidmətinin, eləcə də Maliyyə Bazarlarına Nəzarət Palatasının, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin, Maliyyə Sabitliyi və Turizm şuralarının yaradılması iqtisadi islahatların dərin elmi əsaslarla aparılması niyyətinin əyani təzahürüdür.

Aparılan islahatların nəticəsi olaraq Azərbaycan yeni metodologiya ilə hazırlanan “Qlobal Rəqabətlilik Hesabatı - 2018/2019” hesabatında dünyada sosial bərabərliyin yüksək səviyyədə təmin olunduğu ölkə kimi qərarlaşmışdır. Azərbaycan əhalinin elektriklə təchizatı səviyyəsinə görə maksimal 100 faiz bal almaqla dünyada ilk pilləyə yüksəlmişdir. Hesabata əsasən, Azərbaycan dünyanın 140 ölkəsi arasında biznesin dinamikliyi reytinqi üzrə 31-ci yerdə qərarlaşmışdır.

Hesabata əsasən, respublikamız təhsil indikatorları üzrə də ciddi irəliləyişə nail olmuş, Azərbaycanın göstəriciləri hətta dünyanın bir sıra inkişaf etmiş ölkələrinin göstəricilərindən yüksək olmuşdur. Belə ki, təhsilin kəmiyyət və keyfiyyət parametrlərinə əsaslanan “Bacarıqlar” indeksi üzrə ölkəmiz ümumilikdə 54-cü yerə, bu kateqoriyanın tərkib hissəsi olan rəqəmsal bacarıqlar üzrə 15-ci, tədrisdə tənqidi düşüncə üzrə 27-ci, bacarıqlı işçilər tapmaq asanlığı üzrə 31-ci, məzunların bacarıqları üzrə 32-ci, ibtidai təhsildə müəllim-şagird nisbəti üzrə 48-ci yerə yüksəlmişdir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar respublikamızın “Doing Business 2019” hesabatında da ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha üst səviyyəyə qalxmasına imkan vermişdir. Azərbaycan bu hesabatda dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir.

Azərbaycanın hesabatda “Vergilərin ödənişi” göstəricisi üzrə 7 pillə irəliləyərək 28-ci pillədə qərarlaşması da bu sahədə həyata keçirilən uğurlu islahatların nəticəsidir. Yeri gəlmişkən, 2019-cu il yanvarın 1-dən qüvvədə olan Vergi Məcəlləsinə əlavə və dəyişikliklər Azərbaycanda biznes mühitinin sağlamlaşdırılmasına hesablanmışdır. Məsələn, məcəlləyə edilən dəyişikliklə ilk dəfə olaraq vergidən azad olunan əməkhaqqının məbləği 8.000 manata qədər artırılmışdır. Dövlət və neft-qaz sektorunda çalışanlar istisna olmaqla, yalnız qeyri-dövlət sektorunda çalışan 500 mindən çox adam bu vergi güzəştlərindən faydalana biləcək və yeddi il onlar əməkhaqqıdan gəlir vergisi ödəməyəcəklər. 2019-cu ilin büdcəsində gəlir vergisi üzrə daxilolmaların 316 milyon manat azaldılması nəzərdə tutulmuşdur. Bütövlükdə planlı şəkildə dövlət büdcəsinə vergi daxilolmalarında azalma təxminən 400 milyon manata yaxındır. Bu isə o deməkdir ki, həmin vəsait sahibkarların və vətəndaşların sərəncamında qalacaqdır.

Ölkəmizin son illər iqtisadi sferada qazandığı böyük uğurlar elm və təhsil sahəsində də əsaslı irəliləyişləri təmin edib. Təhsil naziri Ceyhun Bayramovun Azərbaycan müəllimlərinin son qurultayında bildirdiyi kimi, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda nəzərdə tutulmuş müasir tələblərə cavab verən və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması hədəfinə nail olunması istiqamətində son illər mühüm tədbirlər həyata keçirilmişdir.

Ölkəmizin ümumi təhsil müəssisələrinin infrastrukturu əsaslı şəkildə müasirləşdirilmiş, son 5 ildə 500-dən çox, 2003-2018-ci illər ərzində isə 3200-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmiş, nəticədə 1 milyondan çox şagirdin təlim şəraiti əhəmiyyətli şəkildə yaxşılaşdırılmışdır. Azərbaycan Prezidentinin təşəbbüsü ilə ilk dəfə olaraq ucqar kəndlərdə az şagird kontingenti olan qəzalı məktəblərin yeni binalarla əvəz edilməsi çərçivəsində modul tipli məktəb təcrübəsi tətbiq edilmiş, 2017-ci ildə 40 rayonda 6 min şagird yerlik 106 modul tipli məktəb quraşdırılmışdır. Modul tipli məktəblərin üstünlüyü onların azməsrəfli olması ilə yanaşı, qısa müddət ərzində istənilən relyefdə quraşdırılması, asan daşınması, sinif otaqlarının sayının şagirdlərin sayına uyğun olaraq rahatlıqla azaldılıb-artırılmasıdır.

Uşaqların erkən yaş dövründən inkişaf etdirilməsinin vacibliyi nəzərə alınaraq, Təhsil Nazirliyinin təklifləri əsasında ilk dəfə dövlət büdcəsi hesabına ümumtəhsil məktəblərində 5 yaşlı uşaqların məktəbəhazırlığına başlanılmışdır. 2016-cı ildə həmin yaşda olan uşaqların 55 faizi, 2017-ci ildə 65 faizi, 2018-ci ildə isə 75 faizi məktəbəhazırlığa cəlb edilmişdir. Halbuki 2013-cü ildə bu göstərici 24 faiz təşkil edirdi. Məktəbəhazırlıq qruplarında işləyən 10 minədək ibtidai sinif müəllimi təlimlərə cəlb edilmiş, yeni məzmun və tədris materialları hazırlanaraq tətbiq edilmişdir. Həyata keçirilən tədbirlər nəticəsində tarixən məktəbəqədər təhsil müəssisələri olmayan yaşayış məntəqələrində, ucqar kəndlərdə də uşaqların məktəbəhazırlığı təmin edilmişdir.

Son illər, həmçinin idarəetmə sisteminin təkmilləşdirilməsi nəticəsində ümumi təhsil müəssisələrində buraxılış imtahanlarının keyfiyyət göstəriciləri əhəmiyyətli şəkildə yüksəlmişdir. Belə ki, bütün imtahan fənlərindən müsbət qiymət almış IX sinif məzunlarının sayı 50 faizdən 67 faizədək yüksəlmiş, imtahan nəticələri 17 faiz artmışdır.

Təhsil Nazirliyi tərəfindən təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son beş ildə ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəricilərində davamlı artım dinamikası müşahidə edilir. Nazirliyin açıqladığı statistik məlumatlar bu baxımdan maraq doğurur. Belə ki, bu müddətdə qəbul imtahanlarında 300 baldan çox toplayanların sayı 26,5 faiz, 400 baldan çox toplayanların sayı 35,1 faiz, 500 baldan çox toplayanların sayı 51,5 faiz, 600 baldan çox toplayanların sayı isə 81,3 faiz artmışdır. 2018-ci ildə 3127 nəfər abituriyent 600 baldan yuxarı nəticə göstərmişdir və bu da 2013-cü ilə nisbətən təxminən 2 dəfə artım deməkdir. Ölkədə ali təhsilalma imkanları genişləndirilmiş, son 5 il ərzində qəbul olunan tələbələrin sayında 20,8 faiz artım olmuş, bu göstərici cari ildə 41 min nəfər təşkil etmişdir.

İstedadlı uşaqlarla sistemli işin təşkili nəticəsində ölkədə olimpiada hərəkatı genişlənmiş, habelə olimpiadaya hazırlıq mərkəzləri yaradılmışdır. 2013-2018-ci illərdə məktəblilərimiz beynəlxalq fənn olimpiadalarında 3 qızıl, 28 gümüş və 100 bürünc medal olmaqla, ümumilikdə 131 medal qazanmışdır. Bu sahədə yeni ideya və təşəbbüslərin həyata keçirilməsi ilə bağlı “İstedadlı uşaq və gənclərin inkişafı üzrə Dövlət Proqramı” hazırlanmış və hökumətə təqdim edilmişdir. Təhsil Nazirliyinin təşəbbüsü ilə “Təhsil haqqında” qanuna edilmiş dəyişikliklərə əsasən, beynəlxalq olimpiada qaliblərinin istənilən ixtisas üzrə, respublika fənn olimpiadaları qaliblərinin müvafiq ixtisas üzrə müsabiqədənkənar ali məktəblərə qəbulu təsbit edilməklə cəmiyyətdə çoxdan müzakirə edilən bu məsələ də öz həllini tapmışdır.

Təhsil Nazirliyi ümumi təhsilin keyfiyyətini yüksəltmək, şagirdlərə seçdikləri ixtisas istiqamətləri üzrə daha yüksək biliklərə yiyələnmək imkanı yaratmaq məqsədilə 2015-ci ildən tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqinə başlamışdır. Cari tədris ilində 2140 sinifdə 47930 şagird təmayüllər üzrə təhsilə cəlb edilmişdir və bu da X-XI siniflərdə təhsil alanların 28 faizini təşkil etmişdir. İlkin təhlillər göstərir ki, təmayül siniflərini bitirən məzunlar ali məktəblərə qəbulda daha yüksək nəticələr nümayiş etdirirlər.

Sonda xüsusi vurğulamaq istərdik ki, Azərbaycanda demokratikləşmə və modernləşmə sahəsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuş 2018-ci ilin 11 aprel seçkiləri ölkəmizin innovativ əsasda inkişafına ciddi zəmin hazırlamış, islahatların elmi əsaslarla aparılacağı qənaətini daha da gücləndirmişdir. Son seçkilərdən dərhal sonra dövlət başçısının siyasi iradəsiylə hökumətin tərkibinin əsaslı şəkildə yenilənməsi, çevikliyi, müasirliyi, novatorluğu ilə fərqlənən, müasir innovasiyaları mənimsəyən gənclərin dövlət idarəetməsində irəli çəkilməsi islahatların səmərəliliyini təmin etmək, şəffaflığı artırmaq məqsədindən irəli gəlir.

Hökumətin tərkibinin gənc və özünü təsdiq etmiş layiqli kadrlar hesabına zənginləşdirilməsi bütün sahələrdə olduğu kimi, elm və təhsildə də pozitiv nəticələrin əldə olunmasına, insan kapitalının inkişafına xidmət edir. Qısa zaman kəsiyini əhatə edən müşahidələr deməyə əsas verir ki, dövlət başçısının etimad göstərdiyi gənc kadrların rəhbərlik etdikləri strateji əhəmiyyətli sahələr üzrə qarşıda duran vəzifələri layiqincə icra etmək potensialı kifayət qədər yüksəkdir.

İnkişafa xidmət edən islahatların reallaşdırılmasında Azərbaycan Prezidentinə ən böyük dəstək xalqdan, ölkəsinin taleyini cənab İlham Əliyevə etibar etmiş vətəndaşlarımızdan gəlir. Bu gün Azərbaycan xalqı cənab İlham Əliyevi intibahın, siyasi sabitliyin, əmin-amanlığın, sülhün qarantı hesab edir, ona tam güvənir. Çünki xalq həyatında, taleyində baş vermiş böyük dəyişikliklərin, Azərbaycanı parlaq sabahlara doğru aparan siyasi kursun alternativsizliyini yaxşı dərk edir və bu siyasəti birmənalı dəstəkləyir.

***Mönsüm ALIŞOV,***
***“İdrak” liseyinin təsisçisi, pedaqoji elmlər doktoru, professor***

# “Sərhədçi” çövkən komandası “Prezident Kuboku” turnirinin qalibi oldu





Atüstü milli oyunlarımızın qorunub saxlanılması, qədim tarixə malik atçılıq ənənələrinin yaşadılması, ölkəmizdə atçılıq turizminin təbliği, gənc nəsildə bu sahəyə marağın oyadılması məqsədi ilə artıq yeddinci ildir ki, Çövkən milli oyunu üzrə “Prezident Kuboku” uğrunda turnir keçirilir.

Mədəni irsimizə diqqət və qayğısını əsirgəməyən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səyi nəticəsində ölkəmiz Qarabağ atüstü oyunu - Çövkənin beynəlxalq miqyasda tanınmasına, bu irsin qorunub saxlanılmasına, inkişafına dəstək verilməsi məqsədilə UNESCO səviyyəsində səmərəli iş apararaq qürur doğuran nəticəyə nail olmuşdur. Bir neçə il davam edən çalışmaların, gərgin fəaliyyətin yekunu olaraq 3 dekabr 2013-cü il tarixdə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında Qarabağ atüstü oyun ənənəsi - Çövkən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ siyahısına daxil edilib.

23 dekabr 2018-ci il tarixində Azərbaycan Respublikasının Atçılıq Federasiyasının təçkilatçılığı ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şərəfinə təşkil olunmuş Çövkən Milli Atüstü oyunu üzrə “Prezident Kuboku” turnirinin final oyunu baş tutub.

2018-ci ilin “Prezident Kuboku” turnirinə dekabr ayının 11-də start verilmişdir. Finalda 22 dekabrda keçirilmiş yarımfinal oyununun nəticələrinə əsasən “Buta Golden” və “Polad” komandaları üçüncülük, “Sərhədçi” və “Omar” komandaları isə kubok uğrunda mübarizə aparıblar.

Günün ilk oyununda “Buta Golden” komandası “Polad” komandası ilə üz-üzə gəlib. Komandalar arasında gərgin gedən mübarizə “Polad” komandasının xeyrinə 5:1 hesabı ilə başa çatıb və “Polad” komandası Çövkən Milli Atüstü oyunu üzrə “Prezident Kuboku” turnirinin üçüncüsü olaraq bürünc medal qazanıb.

Final görüşündə 2017-ci ilin ən güclü Çövkən yığması kimi “Prezident Kuboku”nun qalibi adını daşıyan “Sərhədçi” komandası “Omar” komandasını qəbul edib. Rəqib komandanın ciddi müqavimətinə baxmayaraq, “Sərhədçi” komandası 1:0 hesabı ilə “Omar” komandasını məğlub etmişdir. Beləliklə də, “Sərhədçi” komandası Çövkən Milli Atüstü oyunu üzrə “Prezident Kuboku” turnirinin ardıcıl olaraq qalibi olmuşdur.

Mükafatlandırma mərasimində medalları komandaların üzvlərinə Azərbaycan Respublikasının Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev təqdim edib. Turnirin ən çox qol vuran oyunçu mükafatına “Sərhədçi” komandasının oyunçusu Elçin Camallı, ən gözəl qol sahibi mükafatına isə həmin komandanın təmsilçisi Tərlan Qurbanəliyev layiq görülmüşlər.

***“Azərbaycan”***

# Müdafiə Sənayesi Nazirliyində bu ilin yekunlarına və qarşıda duran vəzifələrə dair müşavirə keçirilib

Dekabrın 24-də Müdafiə Sənayesi Nazirliyində (MSN) 2018-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə dair müşavirə keçirilib.

MSN-dən AZƏRTAC-a bildiriblər ki, müdafiə sənayesi nazirinin müavini Yəhya Musayevin sədrliyi ilə keçirilən iclasda nazirliyin birlik və müəssisələrinin 2018-ci il üzrə fəaliyyətlərinin yekunları və qarşıda duran məsələlər müzakirə edilib. Bildirilib ki, 2018-ci ildə MSN-in müəssisələrində müdafiə təyinatlı məmulatların istehsalı ilə bağlı verilmiş sifarişlər yüz faiz yerinə yetirilib və respublikanın güc strukturlarına təhvil verilib. Eləcə də 2017-ci ildən qalan sifarişlərin icrası tam təmin olunub.

Müşavirədə müdafiə təyinatlı məmulatların yaradılması və istehsalı ilə bağlı 2019-cu ildə qarşıda duran məsələlərə dair geniş müzakirələr aparılıb.

# Azərbaycan-Serbiya iqtisadi əlaqələri yeni inkişaf mərhələsindədir



Azərbaycan və Serbiya Respublikası arasında indiyədək 30-dan çox sənəd imzalanıb, 2017-ci ildə ticarət dövriyyəsi 36 faiz, 2018-ci ilin yanvar-sentyabr aylarında isə 33 faiz artıb. Bu fikirləri iqtisadiyyat naziri, Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Şahin Mustafayevlə ölkəmizdə səfərdə olan Serbiyanın Baş nazirinin müavini, Ticarət, turizm və telekommunikasiya naziri Rasim Lyayiçin rəhbərlik etdiyi nümayəndə heyətinin keçirdiyi birgə görüşdə səslənib.

Əvvəlcə Serbiya nümayəndə heyəti Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyub. Nümayəndə heyəti həmçinin Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad ediblər.

Nazirlərin görüşündə iki ölkə arasında iqtisadi sahədə əməkdaşlıq və əlaqələrin genişləndirilməsi perspektivlərinə dair müzakirələr aparılıb. Nazir Şahin Mustafayev qarşılıqlı hörmət və etibarlı tərəfdaşlıq prinsiplərinə əsaslanan Azərbaycan-Serbiya münasibətlərinin, siyasi-iqtisadi əlaqələrin inkişaf etdiyini vurğulayıb. Bildirilib ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində, eləcə də ərazi bütövlüyü məsələsində bir-birini dəstəkləyir. Azərbaycan və Serbiya arasında 2013-cü ildə imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamə, Serbiya Prezidentinin 2018-ci ilin mayında Azərbaycana səfəri zamanı imzalanmış Strateji Əməkdaşlığa dair Birgə Fəaliyyət Planı, bu yaxınlarda Belqradda 5-ci iclası keçirilmiş Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya əməkdaşlığın genişlənməsində əhəmiyyətli rol oynayır. Şahin Mustafayev iki ölkə arasında iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən ticarət, investisiya, sənaye, energetika, kənd təsərrüfatı, nəqliyyat, turizm, İKT sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb, bu sahələrdə əlaqələrin genişləndirilməsinə dair fikirlərini bölüşüb.

Hökumətlərarası Komissiyanın həmsədri Rasim Lyayiç ölkəsinin Azərbaycanla əlaqələrin genişləndirilməsində maraqlı olduğunu vurğulayıb, Serbiya və Azərbaycan arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi istiqamətləri barədə danışıb. Qeyd olunub ki, Serbiya ticarət, investisiya qoyuluşu, turizm, kənd təsərrüfatı və s. sahələrdə əməkdaşlığın inkişafında maraqlıdır.

Sonra İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Serbiyanın Ticarət, Turizm və Telekommunikasiya Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan-Serbiya işgüzar görüşü keçirilib.

Tədbirdə rəsmi şəxslərlə yanaşı, turizm, tikinti və iqtisadiyyatın digər sahələrində fəaliyyət göstərən sahibkarlar, eləcə də Serbiya və Azərbaycanın turizm təşkilatlarının nümayəndələri iştirak ediblər.

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və Serbiya iş adamlarının iştirakı ilə müxtəlif tədbirlərin - biznes forumu, işgüzar görüş və s. keçirildiyini qeyd edib. Vurğulanıb ki, Azərbaycan-Serbiya Hökmətlərarası Komissiyasının bu ilin dekabrında keçirilmiş 5-ci iclası çərçivəsində də iş adamlarının iştirakı ilə dəyirmi masa təşkil olunub və iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi imkanları müzakirə edilib. Azərbaycan sahibkarları Serbiya iş adamları ilə qarşılıqlı əməkdaşlığın genişləndirilməsində maraqlıdır və bugünkü işgüzar görüş də bunun əyani göstəricisidir.

Azərbaycan-Serbiya əlaqələrinin infrastruktur, energetika, sənaye, nəqliyyat-tranzit, İKT və digər sahələrdə inkişaf etdiyini qeyd edən Şahin Mustafayev mövcud əməkdaşlığa və əlaqələrin genişləndirilməsinə dair fikirlərini bölüşüb. Bildirilib ki, Azərbaycan və Serbiya infrastruktur tikintisi sahəsində uğurla əməkdaşlıq edir. Serbiya Azərbaycanın nəqliyyat-tranzit imkanlarından istifadə edə bilər. Turizm, kənd təsərrüfatı, İKT və digər sahələrdə də əməkdaşlıq imkanları genişdir.

Serbiyanın turizm və telekommunikasiya naziri Rasim Lyayic Azərbaycana səfərindən və yerli iş adamlarının iştirakı ilə işgüzar görüşün təşkilindən məmnunluğunu bildirib. Qeyd edilib ki, ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və Serbiya ölkəmizlə iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə böyük önəm verir. İşgüzar dairələrin iştirakı ilə təşkil olunan tədbirlərin əhəmiyyətini qeyd edən Rasim Lyayiç 2019-cu ildə Serbiyada da iş adamlarının iştirakı ilə tədbirlərin keçirilə biləcəyini vurğulayıb. Serbiyaya investisiya qoyuluşu sahəsində tətbiq olunan güzəştlər barədə danışan Rasim Lyayic Azərbaycan iş adamlarını Serbiyaya investisiya yatırmağa dəvət edib.

Azərbaycan Turizm Agentliyinin sədri Fuad Nağıyev ölkəmizdə turizmin inkişafı, bu sahədə həyata keçirilən strategiya barədə məlumat verib, Azərbaycanda turizmin inkişafına dair təqdimat edilib.

Serbiyanın Ticarət, Turizm və Telekommunikasiya Nazirliyinin dövlət katibi Miroslav Knejeviç ölkəsində turizmin inkişafına, “Soka-Banya” Turizm Təşkilatının direktoru Lyubinka Milenkoviç Soka-Banya turizm bölgəsi, “Park Paliç” MMC-nin direktoru Neboyşa Daraboşa Paliç gölü regionunda turizmin inkişafına dair investisiya proqramlarına, “Rusanda” Xüsusi Xəstəxanasının direktoru Zorisa Çulibrk Rusanda xəstəxanasının fəaliyyətinə və Serbiyada yeni dördulduzlu hotelin tikintisinə dair təqdimatlarla çıxış ediblər.

Sonda iş adamlarını maraqlandıran suallar cavablandırılıb.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

İlham Əliyev mənim həyatımda





# Prezidentin misgər dostu

**Daha bir təqvim ilini arxada qoyuruq. Kiminəsə 2018-ci il tamamilə məxsusi, heç zaman unudulmayacaq, şəcərəsinin yaddaşında yer alacaq bir tarix kimi əlamətdar oldu və taleyinə möhürünü vurdu. Bu ilin xoş anlarının daha çox müşahidə edildiyi, insanları üçün rahatlıq, sevincli günlər yaşanan məkanlarından biri də tarixin dərinliklərində binə qurub bu günədək dimdik dayanan, söykəndiyi dağlardan güc alan Lahıc və lahıclılar oldu.**

Bir il ərzində dövlət başçısı İlham Əliyevin verdiyi 3 sərəncam və onların operativ şəkildə icrası lahıclıların həyatını tamamilə dəyişdi. Yeni məktəbin tikilib istifadəyə verilməsi, mənzillərin mavi yanacaqla təchiz olunması, Şamaxı rayonunun qədim kəndlərindən olan Dəmirçi ilə Lahıc arasında yolun çəkilməsi insanların sosial vəziyyətləri ilə yanaşı, eyni zamanda maddiyyatlarının daha da yaxşılaşmasına stimul verdi. Qeyd etmək lazımdır ki, Dəmirçi-Lahıc yolu dairəvi turizm marşrutunun formalaşdırılmasını şərtləndirdi. Bu da həmin əraziyə turist axınının daha da çoxalması və ətraf kəndlərin maddi imkanlarının yaxşılaşması ilə müşayiət ediləcək.

Bu il Lahıcda ziyalılığı ilə seçilən Əliyevlər ailəsi üçün xüsusən toy-bayrama çevrildi. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın onların həyatlərinə daxil olması, bir süfrədə çay içməsi, sözün əsl mənasında, ailəni xeyli duyğulandırdı.

İxtisasca tarix müəllimi olsa da, daha çox misgərliyə üstünlük verən, dolanışığını zəhmətlə yoğuran Nəzər Əliyev Prezidentlə olan tanışlığı və dostluğunun bir neçə il əvvələ təsadüf etdiyini deyir. 26 avqust 2018-ci il isə onun üçün unudulmaz tarixlərdən oldu. Dediyinə görə, 56 illik ömründə onun üçün heç bir tarix bu qədər yaddaqalan olmayıb. Belə ki, bunu Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Lahıca gəlişini və onlarla görüşünü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin şəxsiyyətinə və onun ailəsinə, ailə üzvlərinə uzun illər pərəstişinin mükafatı kimi qəbul edir.

Xatirələr Nəzər müəllimi çox-çox uzaqlara aparır. Düşüncələrini öz dilindən eşidək: “Hələ orta məktəbdə oxuyurdum. O zamanlar dövlət rəhbərinin ailələri haqqında indiki kimi geniş informasiya yayılmırdı. Belə bir dövrdə Heydər Əliyevin bizimlə yaşıd İlham adlı oğlunun olmasını haradansa öyrənmişdim. 1982-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tələbəsi olduğum vaxt ümummilli lider Heydər Əliyevin Moskvaya işə getməzdən əvvəl Dzerjinski adına klubdan çıxarkən insan kütləsi arasından onu seyr edib yola salmağım, 1990-cı ildə “Arqumentı i faktı” qəzetində Heydər Əliyevin kommunist partiyası sıralarından çıxması haqqında xəbəri oxuyarkən dünyanın sonunun çatmasını zənn etməyim, 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıtdıqdan sonra keçirdiyi mətbuat konfransının materiallarını oxuyarkən, Azərbaycanın xilas olmasına əmin olmağım, 1996-cı ildə S.Bəhlulzadə adına sərgi salonunda təşkil olunmuş əl işləri sərgisində ulu öndərin mənim düzəltdiyim əşyalarla tanış olmağını seyr etməyim və s. bir daha yadıma düşür”.



Nəhayət, 2005-ci ildə birinci dəfə İlham Əliyev İsmayıllıya səfəri zamanı Nəzər Əliyevin əl işlərindən ibarət sərgidə onunla həmsöhbət olub və onun misgərlik sənəti haqqında çox məlumatlı olmasına heyran qalıb.

2009-cu ilin oktyabr ayında İlham Əliyevin İsmayıllıya növbəti səfəri zamanı N.Əliyevin bir neçə həmkarı ilə birgə əl işləri sərgisi nümayiş etdirilib. Nəzər Əliyev həmin sərgidə ekspozisiyalarla tanış olan dövlət başçısından həmkarlarının məhsullarının gömrükdən keçirilməsinin çətinliyi ilə bağlı köməklik xahiş edib. Bu hadisədən 6 ay sonra 2010-cu ilin mart ayında Bakıda, dənizkənarı bulvarda təşkil olunmuş Novruz şənliklərində yenə əl işləri sərgisində iştirak edib. İlham Əliyevin onu tanıması və gömrük çətinliyi xahişi ilə bağlı söhbəti Nəzər Əliyevi onun yaddaşına heyran edib. Ondan sonra hər il Novruz şənliklərində, turizm sərgilərində, mədəniyyətlərarası forumlarda iştirak edib və hər dəfə də Prezidentin onu və hər bir iştirakçını diqqətdən kənarda qoymamasını təkrar-təkrar müşahidə edib.

Hər dəfə tədbirlərdə Prezident İlham Əliyev və onun ailə üzvləri ilə həmsöhbət olduqda ən böyük mükafatını aldığını düşünür və Lahıca qayıtdıqda xatirələrini yaxınları ilə həvəslə bölüşür.

N.Əliyev fikirlərini davam etdirir: “İlham Əliyevlə söhbətlərin şirin və fəxredici xatirələri çoxdur. Tale qismət elədi ki, birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə 2011-ci ildə Avstriyanın paytaxtı Vyanada təşkil olunmuş Nar festivalında, 2014, 2015, 2016-cı illərdə Fransanın paytaxtı Paris şəhərində açılmış “Azərbaycan Şəhərciyi”nin tədbirlərində əl işləri sərgisi ilə iştirak etdim. Hər dəfə Mehriban xanımla həmsöhbət oldum. Parisdə onun nə dərəcədə yüksək hörmətə malik olduğunun şahidinə çevriləndə fəxr edirdim. 2016-cı ildə Mehriban xanımın şəxsi hörməti sayəsində “Lahıc misgərlik sənəti”nin UNESCO-nun qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilməsi isə min illər boyu Lahıclı misgər sənətkarların (mənim nəslimin) zəhmətinə və əməyinə verilən ən yüksək qiymət idi”.

2017-ci il aprel ayında “Bakı Ekspo Mərkəzi”ndə keçirilən növbəti turizm sərgisində İlham Əliyev və birinci xanım Mehriban Əliyevanı yenə Lahıca, dükanına və evinə gəlməyə dəvət edir. Və inanılmaz! İlham Əliyev cənabları: “Mütləq gələcəyəm” deyə vəd verir. Nəhayət, 26 avqust 2018-ci il. Prezident misgəri onun səfəri münasibətilə “Lahıc icma evi”ndə təşkil etdiyimiz sərgi yerində görən kimi: “Mən söz vermişdim, gəlmişəm, dükanına da, evinə də gedəcəyəm” deyəndə Nəzər müəllimin hansı halda olmağını və nə hisslər keçirdiyini sözlə ifadə etmək olmur. Məsələ heç də bununla bitmir. Prezident Lahıc küçələri boyunca keçərkən və qəsəbə sakinləri ilə səmimi görüşərkən: “Məni bu usta dəvət edib, gəlmişəm və əli boş gəlməmişəm” sözlərini dəfələrlə təkrar etdi.

Nəzər Əliyev fikirlərini davam etdirir: “Ölkə Prezidentinin sadə bir vətəndaşın, bir misgərin dəvətini qəbul edib onun evinə gəlməsi görünməmiş bir hadisədir. Bunun sevincini bütün Yer kürəsində yaşayan insanlarla bölüşsən qurtarmaz! Bu dəvətin qəbulu möhtərəm Prezidentin və onun ailəsinin sadəliyindən, səmimiliyindən, ucalıqlarının, insansevərliklərinin nə qədər yüksək olmasından qaynaqlanır. Mənə elə gəlir ki, möhtərəm Prezidentin və onun xanımının mənim həyatımə gəlməsi, qapımı açması həyatımda sənətimlə, fəaliyyətimlə qazana biləcəyim və qazandığım ən yüksək nailiyyətdir. Bu hadisə mənə sevinc, iftixar hissi, mənəvi fəxarət verib ki, mən bunu digər hadisədən - heç bir təltifdən, fəxri addan və s. ala bilməzdim”.

Nəzər Əliyevin anası Hacıxanım Püstə Əliyeva da söhbətə qoşulur. Deyir ki, zamanında Lahıc camaatı çox çətin günlər keçirib. Odun sobası yandırılıb və neft pilətələri ilə həyatlarını çətin vəziyyətdə sürüblər. Yollar bərbad halda olub. Kənar bir məkana çıxmalı olanda at ilə gedib Girdiman çayını keçiblər.

Püstə xanım söhbətini davam etdirir: “Bizə, Lahıc əhalisinə birinci rahatlığı ümummilli lider Heydər Əliyev gətirdi. O nur üzlü rəhbər Lahıc qəsəbəsinə körpü saldırdı. Həmin körpüdən keçənlər mütləq ulu öndərə rəhmət oxuyurlar. Onun yetirməsi İlham Əliyev Lahıc və onun əhalisini unutmadı. Oğluma söz verdi və ən əziz qonağımız olmaqla sözünün üstündə dayandı”.

İsmayıllı rayon Lahic bələdiyyəsinin sədri, qəsəbə orta məktəbinin fizika və informatika müəllimi, əməkdar müəllim Rövşən Əliyev isə ölkə rəhbərini və xanımını həyətlərində gördükdə əsla təəccüblənməyib. Səbəb isə onsuz da Prezidentin və Birinci vitse-prezidentin həmişə xalqın arasında olmasıdır. O düşünür ki, ölkə rəhbəri onların timsalında Lahıcdakı bütün evlərdə olub. Çünki Prezident sərəncamı əsasında çəkilən mavi yanacaq bütün evləri isidir, təzə məktəbdə tədris olunan biliklər hər ailə üçün yeni ümid, gələcəyə inam yaradır. Yeni inşa olunan yoldan isə hər kəs bu və ya digər formada bəhrələnir.

Azərbaycanın dünyaya açılan pəncərəsi olan Lahıcın və lahıclıların ocaqlarının daim gur, zehinlərinin iti və yollarının isə açıq olmasını arzulayırıq.

***Əli SƏLİMOV,***
***“Azərbaycan”***

# Ağcabədi nümunə göstərir

**Prezident İlham Əliyevin təşəbbüsü ilə hazırlanıb uğurla reallaşdırılan regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası sayəsində Ağcabədinin də siması dəyişmiş, rayon əhalisinin həyat səviyyəsi, güzəranı yaxşılaşmışdır.**

Aqrar sektoru inkişaf etdirməklə ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq üçün dövlət başçısının müəyyən etdiyi kurs, verdiyi tapşırıq və tövsiyələr ağcabədililər tərəfindən yüksək mütəşəkkilliklə icra olunmuşdur. Bu gün də aqrar sektorun dinamik inkişafını təmin etmək üçün rayon rəhbərliyinin mütərəqqi texnologiyalara, innovativ üsullara geniş meydan verməsinin uğurlu məntiqi nəticələri özünü çox gözlətmir, kənd təsərrüfatının aparıcı sahələrinin intensiv inkişafını şərtləndirir.

İri taxılçılıq təsərrüfatları yaratmaq barədə dövlət səviyyəsində səslənən çağırışa ölkədə ilk səs verənlərdən biri Ağcabədi rayonu oldu. Ağcabədi və Beyləqan rayonlarının ərazisində 4.800 hektar sahədə müasir suvarma sistemlərinin tətbiqi ilə respublikada ilk özəl pilot taxılçılıq təsərrüfatı - “Qarabağ Taxıl” MMC yaradıldı. Yeni təsərrüfatın 3,300 hektarı Ağcabədi rayonunun payına düşür. Bu möhtəşəm layihənin həyata keçirilməsinə dövlət 10 milyon manat həcmində güzəştli kredit ayırmışdır. Artıq bir neçə ildir ki, fəaliyyət göstərən “Qarabağ Taxıl” MMC gözləntiləri doğruldur, yüksək məhsuldarlıqla nümunə göstərir.

Ölkənin ərzaq məhsullarına, xüsusilə taxıla olan ehtiyaclarının daxili istehsal hesabına ödənilməsinə böyük önəm verən rayon rəhbərliyi bu istiqamətdə konkret addımlar atır. Rayon ərazisində taxılçılığın inkişafını təmin etməklə ölkənin Ərzaq Təhlükəsizliyi Proqramına sanballı töhfələr vermək üçün “Kraunko-R” MMC-yə 10,378 hektar əkin sahəsi ayrılması belə tədbirlərdəndir.







Həyat təsdiq edir ki, müəyyən edilən hədəf doğrudur. Bu istiqamətdə çəkilən zəhmətin, həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsi fərəhli və qürurvericidir. Başa çatmaqda olan 2018-ci ildə 29762 hektar sahədə taxıl əkilmiş, 107 min tona yaxın “sarı kəhraba” istehsal olunmuşdur. Bu, Ağcabədi rayonunun tarixində qazanılan ən yüksək nəticədir. Bu nailiyyət taxılçıları arxayınlaşdırmır. Onlar gələn ilin məhsulu üçün səpini yüksək aqrotexniki qaydalar əsasında davam etdirir, məhsul bolluğuna etibarlı bünövrə qoymağa çalışırlar.

Prezident İlham Əliyevin kənd təsərrüfatında ənənəvi sahələr sayılan pambıqçılığı, baramaçılığı inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmağa nail olmaq barədə tapşırıq və tövsiyələri ağcabədililərin fəaliyyətinə stimul vermişdir. Torpağı münbit, suyu bol, əhalisi zəhmətə bağlı Ağcabədidə mövcud imkan və ehtiyat mənbələri bacarıqla səfərbər edilib sözügedən sahələrin inkişafına yönəldilmişdir. 2017-ci ildə 9550 hektar sahədə pambıq əkib-becərən fermerlər 20497 ton məhsul istehsal etmişlər. Bu il isə əkin sahələri daha da genişləndirilərək 10 min hektara çatdırılmışdır. Qarşıya çıxan bir sıra çətinliklərə baxmayaraq, pambıq tarlalarının becərilməsi, böyük zəhmət bahasına yetişdirilmiş məhsulun tez və itkisiz yığılıb təhvil verilməsi cari ildə də yaxşı təşkil edilmişdir. Dekabrın ortalarınadək 22825 ton pambıq yığılıb təhvil verilmişdir. Hər hektarın orta məhsuldarlığı 22,8 sentner olmuşdur. Keçən illə müqayisədə ümumi məhsul istehsalı 2,500 ton, məhsuldarlıq təxminən 1,5 sentner çoxdur.

Rayonda ənənəvi kənd təsərrüfatı sahəsi olan baramaçılığın inkişafına da xüsusi fikir verilir. Təsərrüfatlarda tut bağlarının sahəsi ildən-ilə genişlənir. Ayrı-ayrı təsərrüfatlarda Çin Xalq Respublikasından gətirilmiş 120 min məhsuldar çəkil əkilmişdir. Təcrübəli kümçüləri bu il 780 qutu ipəkqurdu toxumu bəsləmiş, 37146 kiloqram barama təhvil vermişlər. Hər qutu ipəkqurdu toxumuna 47,6 kiloqram barama düşür ki, bu da yaxşı nəticə hesab olunur.

Rayonun heyvandarları da ümumi yüksəliş ahəngi ilə ayaqlaşır, bol ət, süd, yun, yumurta istehsalında diqqətçəkən uğurlar qazanırlar. “Atena” süd emalı müəssisəsində istehsal edilən yağ, qaymaq, süd, pendir, kəsmik kimi məhsullara bazarda tələbat böyükdür. Ölkədə ilk olan keçi təsərrüfatı da özünü doğruldur. İspaniyadan və Hollandiyadan gətirilmiş məhsuldar cins keçilərdən alınan pendir dadına və keyfiyyətinə görə bazar rəqabətində kifayət qədər güclüdür.

Ağcabədi kəndlisinin aqrar sektorun inkişafı sahəsində qazandığı bütün nailiyyətlərin mayasında dövlətin davamlı və yetərli dəstəyi dayanır. 2018-ci ildə rayon üzrə 12734 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda əkininə görə dövlət büdcəsi hesabına ümumilikdə 3,48 milyon, bundan əlavə 1851,2 hektar sahədə aparılan təkrar əkinlərə görə 92,6 min manat yardım edilmişdir. Cari ildə 1192 nəfər pambıq istehsalçısına təhvil verdikləri 22825 ton xam pambığa görə də yüksək məbləğdə subsidiya ödənilmişdir.

Dövlət dəstəyi baramaçılıqda daha güclüdür. Əgər “Şəki ipək” MMC hər kiloqram yaş baramanı 4 manata qəbul edirsə, dövlət baramaçı əməyinin stimullaşdırılmasına daha böyük önəm verir. Təhvil verdikləri hər kiloqram baramaya görə dövlətin 5 manat subsidiya ödəməsi kümçülərin maddi marağının artmasında əhəmiyyətli rol oynayır. Təkcə bu il rayon baramaçıları dövlətdən 182304 manat subsidiya almışlar.

Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 2017-ci il ərzində Ağcabədi rayonu üzrə heyvandarlığın inkişafı ilə bağlı 30 kiçik həcmli investisiya layihəsinin maliyyələşdirilməsinə 302 min manat və pambıqçılığın inkişafı üçün 37 investisiya layihəsinin maliyyələşdirilməsinə 518 min manat güzəştli kredit ayrılmışdır. Bu layihələr hesabına 87 yeni iş yeri yaradılmışdır.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda Ağcabədi rayonunda yol infrastrukturunun yaxşılaşdırılmasını nəzərdə tutan tədbirlər də yer alır. Bu çərçivədə rayonun Hüsülü-Kürdlər-Şərəfxanlı-Mirzəhaqverdili avtomobil yolunun tikintisi başa çatdırılmışdır. Bundan əlavə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sifarişi ilə 18 kilometr uzunluğunda Hacıbədəlli-Pərioğullar-Təzəkənd avtomobil yolu əsaslı təmir edilərək istifadəyə verilmişdir.

Dövlət Proqramına əsasən, Ağcabədi şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yaxşılaşdırılması sahəsində işlər də davam etmişdir. Başa çatmaqda olan 2018-ci il ərzində 92,3 kilometr uzunluğunda magistral, 127,1 kilometrlik şəbəkə su xətləri, 97,2 kilometr kanalizasiya xətti çəkilmiş, 8 subartezian quyusu qazılmış, 5751 su sayğacı quraşdırılmışdır.

Torpaqların su təminatının yaxşılaşdırılması üçün zəruri meliorasiya-irriqasiya işləri də davam etdirilmişdir. Hindarx, Yuxarı Qiyaməddinli, Mirzəhaqverdili, Hüsülü kəndlərinin hər birində 2 ədəd, Rəncbərlər, Sarıcalı, Kürdlər, Kəhrizli, Boyat, Şərəfxanlı, Xocavənd və Muğanlı yaşayış məntəqələrində subartezian quyuları qazılmışdır. Rayonun 5800 hektar yeni suvarılan torpaq sahələrinə suvarma suyunun çatdırılması üçün isə “Yuxarı Mil kanalı”nın uzunluğu 6 kilometrə yaxın hissəsinə beton üzlük çəkilmiş, 3266 min kubmetr həcmində suvarma və drenaj şəbəkəsi lildən təmizlənmiş, 458 qurğu, 4 nasos aqreqatı, 4 elektrik mühərriki və 690 subartezian quyusu təmir edilmişdir.

Ancaq qazanılan nailiyyətlər heç kəsi arxayınlaşdırmır. Gələn ilin məhsulu üçün zəruri tədbirlər görülür. Məqsəd bolluq yaratmaq, ölkə iqtisadiyyatına sanballı töhfələr verməkdir.

***Lazım QULİYEV,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

# Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Bakıda atəşfəşanlıq olacaq

Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə dekabrın 31-i saat 00:00-da paytaxtın Dənizkənarı Milli Parkının ərazisində möhtəşəm atəşfəşanlıq təşkil olunacaq.

Bu barədə AZƏRTAC-a Bakı Şəhər İcra Hakimiyyətindən məlumat verilib. Bildirilib ki, bayram şənlikləri münasibətilə Azadlıq meydanında şəhərimizin ən böyük yolkası quraşdırılıb. Eyni zamanda, Dənizkənarı Milli Parkın ərazisi və digər parklar bəzədilib, yolkalar qurulub, buradakı ağacların işıqlarla bəzədilməsi, müxtəlif yeni il atributlarının və simvollarının, nağıl qəhrəmanları fiqurlarının quraşdırılması, burada bayram tərtibatının aparılması işləri həyata keçirilib, müxtəlif yerlərdə bayram yarmarkaları təşkil olunub.

Bakı Şəhər İcra Hakimiyyəti sakinləri və şəhərimizin qonaqlarını atəşfəşanlığı seyr etmək üçün dekabrın 31-də saat 00.00-da Dənizkənarı Milli Parka, Saat qülləsinin ətrafına dəvət edir.

## ELAN

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 28 noyabr 2018-ci il tarixdə keçirilmiş "Görmə imkanları məhdud uşaqlar üçün müyəssər formatlı nəşrlərin hazırlanması", "Sağlamlıq imkanları məhdud uşaqlarla davranış üzrə valideynlərə dəstək göstərilməsi" və "Sağlamlıq imkanları məhdud uşaqlar üçün maarifləndirmə tədbirləri" adlı müsabiqələrin qalibi "İnklüziv Cəmiyyət Naminə" İB, "Eşitmə və nitq qabiliyyəti olmayan sağlamlıq imkanları məhdud uşaqlar üçün kütləvi informasiya vasitələri vasitəsilə surdoloji maarifləndirmə xidmətlərinin aparılması" adlı müsabiqənin qalibi "Uşaq və gənclərin inkişafına dəstək" İB, "Xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtının təşkili" adlı müsabiqənin qalibi "Ailələrin maarifləndirilməsi" İB olmuşdur.

*Müsabiqə komissiyası*

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 24.12.2018-ci il tarixdə keçirilməsi nəzərdə tutulan "Tədris Mərkəzi üçün model və maketlərin hazırlanması xidmətinin satın alınması" üzrə açıq tenderin vaxtı **10 yanvar 2019-cu il tarixdə saat 15:30-a** keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **27 dekabr 2018-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **09 yanvar 2019-cu il saat 17:00-a** qədər Bakı şəhəri, M.Rəfili küçəsi, 20 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

*Tender komissiyası*

# "Azercell"in dəstəyi ilə məktəblilərimizin daha bir uğuru

## Tbilisidə informatika fənni üzrə beynəlxalq olimpiadada komandamız ikinci olub



Gürcüstanın paytaxtı Tbilisidə keçirilən məktəblilərin informatika fənni üzrə Beynəlxalq komanda olimpiadasında şagirdlərimiz ölkəmizi layiqincə təmsil ediblər. Yarışda Cənub regionu üzrə 2-ci yerə layiq görülən komandamız Beynəlxalq komanda olimpiadasının üçüncülük diplomu ilə mükafatlandırılıb. Cənub regionu üzrə 19 komandanın yarışdığı olimpiadada Azərbaycanı Fizika, riyaziyyat və informatika təmayüllü Respublika liseyinin şagirdləri Abutalıb Namazov, Murad Eynizadə və İbrahim Tağızadə təmsil edib.

Məktəblilərimizin uğur qazanmasında "Azercell Telekom" MMC-nin də böyük rolu olub. Belə ki, məktəblilər yarışa Respublika Beynəlxalq Olimpiadalara Hazırlıq Mərkəzində Təhsil Nazirliyi və "Azercell Telekom" MMC-nin Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin dəstəyi ilə hazırlaşıblar. Məşğələlərdə şagirdlərin olimpiadalara hazırlıq prosesinin stimullaşdırılması, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, elmi potensialının nümayiş etdirilməsi üçün mərkəz tərəfindən hərtərəfli şərait yaradılıb. Qeyd edək ki, müsabiqədə iştirak etməkdə məqsəd 2019-cu ildə keçiriləcək Beynəlxalq İnformatika Olimpiadasının (İOİ) hazırlıq planına uyğun olaraq şagirdlərimizin bilik səviyyələrini müəyyənləşdirmək, təcrübələrini artırmaq və hazırlıq prosesini daha da intensivləşdirmək idi. 2019-cu ildə ölkəmizdə təşkil olunacaq Beynəlxaq İnformatika Olimpiadasında dünyanın 80-ə yaxın ölkəsindən 300-dən çox şagirdin iştirakı gözlənilir. Məlumat üçün bildirək ki, Korporativ Sosial Məsuliyyət strategiyasında təhsilin və gələcəyimiz olan uşaqların inkişafına yönəlik layihələri ilə hər zaman seçilən "Azercell Telekom" MMC oktyabr ayında Yaponiyanın elm və texnologiya mərkəzlərindən biri olan Tsukuba şəhərində keçirilən Beynəlxalq İnformatika Olimpiadasında ölkəmizi təmsil edən məktəblilərə də dəstək olmuşdu.

*"Azərbaycan"*

# Atəşkəs rejimi sutka ərzində 28 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Məzəm və Cəfərli kəndlərində, Berd rayonunun Ayqepar, Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Baş Qərvənd, Yusifcanlı kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# İrandan Azərbaycana dövlət sərhədindən külli miqdarda narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) Azərbaycan Respublikasının dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və qeyri-qanuni miqrasiyaya qarşı mübarizə istiqamətində daha bir uğurlu əməliyyat tədbiri həyata keçirib.



Dekabrın 20-də Yardımlı rayonunun Deman kəndi ərazisində İran İslam Respublikasından Azərbaycan Respublikasına dövlət sərhədindən külli miqdarda narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb. Qaçaqmalçılar gətirdikləri malı ataraq geri qaçıblar. Xidməti sahədən qaçaqmalçılara məxsus 6 kiloqram 580 qram marixuana və 70 qram heroin götürülüb.

Həmin gün DSX Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Biləsuvar rayonu ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Azərbaycandan İran istiqamətində dövlət sərhədini pozaraq keçməyə cəhd göstərən Özbəkistan vətəndaşı 1982-ci il təvəllüdlü Sadiqova Dilbər Daminovna saxlanılıb.

Dekabrın 21-də DSX-nin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Babı kəndi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində keçirilmiş tədbirlər nəticəsində Azərbaycandan İran istiqamətində dövlət sərhədini pozmağa cəhd göstərən Banqladeş Xalq Respublikası vətəndaşları 1993-cü il təvəllüdlü Rubel İmya Abdulmanan və 1996-cı il təvəllüdlü İslam Ariful Abdulla saxlanılıblar. Araşdırma zamanı Banqladeş vətəndaşlarının yeddi ay əvvəl Azərbaycana rəsmi qaydada gəlmələri, dövlət sərhədini pozmaqda məqsədlərinin İrana, oradan isə qeyri-qanuni yolla Türkiyəyə miqrasiya etmək olduğu üzə çıxıb.

Faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*"Azərbaycan"*

*Təkrar*

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının mətbəə və çap işləri üzrə tender elanı

1. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası mətbəə və çap işlərinə dair açıq tender keçirir.

Tender proseduru **24 yanvar 2019-cu il** tarixdə saat **11:00-da** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında (Bakı şəhəri, Bülbül prospekti, 27) keçiriləcəkdir.

2. Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və reyestrdən çıxarış) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında - zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *son bir ili əhatə edən maliyyə dövriyyəsini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və digər müvafiq orqanlardan arayış;*
- *iddiaçının müvafiq fəaliyyəti sahəsində ən azı bir il təcrübəsinin olmasını və bu sahədə korporativ müştərilərə göstərilən xidmətlər haqqında məlumatları əks etdirən sənəd;*
- *ən azı iki korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu.*

3. İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 23 yanvar 2019-cu il saat 17:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 15 yanvar 2019-cu il saat 17:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

4. İştirak haqqı **300** manat təşkil edir və tenderin nəticələrindən asılı olmayaraq geri qaytarılmır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının aşağıdakı hesabına köçürülməlidir:

**Bank: ASC "XalqBank"ın "Sahil" filialı**
**Bank VÖEN: 2000296061**
**Müxbir hesab: AZ24NABZ01350100000000067944**
**Kod: 510675**
**SWIFT: HAJCAZ 22**
**İBAN: AZ92HAJCNCRAZN00900071310001**
**VÖEN: 1403372311**

5. Xidmətin göstərilməsinə başlanma vaxtı: 15.02.2019-cu il tarixdən.

Xidmətin göstərilməsi müddəti: **12 ay.**

6. Tenderdə iştirak etmək istəyən şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Təminat və satınalmalar sektorunun əməkdaşı Ələmqulu Quliyev (alamgulu.guluyev@fimsa.az. Tel: 493-50-58, daxili: 346. Fax: 498-12-14).

*Tender komissiyası*

## BİLDİRİŞ

"Azərişıq" ASC tərəfindən **İnformasiya və kommunikasiya texnologiyaları mallarının satın alınması** məqsədilə keçirilmiş açıq tenderin LOT-1 (İnformasiya və kommunikasiya texnologiyaları mallarının satın alınması) üzrə Tender komissiyasının qərarına əsasən qalib elan olunmuş "Bestcomp Group" MMC şirkəti ilə satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*


Azercell

## "Azercell" abunəçilərinin nəzərinə

***"Azercell Telekom" MMC-nin korporativ müştərilərə təqdim etdiyi və aşağıda qeyd olunan paketlərdə 25 yanvar 2019-cu il tarixdən etibarən göstərilən qaydalar tətbiq olunacaqdır:***

"Biznes 10", "Şirkətim", "Biznes 16", "Minimalist", "Biznes 20", "Biznes 25", "Optimist Danışıq", "Optimist Şəbəkə", "Optimist İnternet", "Biznes 55", "Praqmatist", "Maksimalist" və "İdealist" danışıq paketi çərçivəsində təqdim olunan istifadə imkanları yalnız fərdi istifadə üçün nəzərdə tutulub. Qeyd edilən paketlər çərçivəsində təqdim edilən müvafiq imkandan fərdi deyil, digər məqsədlər üçün (reklam və spam SMS-lər göndərmək, Simbox, Fix GSM və bu tipli digər cihazlardan istifadə edilməsi, qeyri-qanuni telekommunikasiya xidmətləri məqsədləri üçün istifadə edilməsi hallarında), o cümlədən fərdi mobil telefon cihazlarından kənar istifadəsi qadağandır. Qeyd olunan paketlər çərçivəsində təqdim edilən imkandan (dəqiqə\SMS\internet) şərtlərdən pozulmaqla yararlanma faktı aşkar edildikdə həmin nömrələrdə müvafiq paketə abunəlik ləğv ediləcəkdir. Müvafiq paketə abunəlik ləğv edildikdən sonra telekommunikasiya xidmətlərindən istifadə nömrələrdə mövcud olan tarif paketinə uyğun olaraq hesablanacaqdır.

"Praqmatist", "Maksimalist" və "İdealist" paketləri çərçivəsində faktura dövrü ərzində 15000 dəqiqə şəbəkədaxili danışıq imkanı, "Maksimalist" və "İdealist" paketləri çərçivəsində 10000 dəqiqə şəbəkəxarici danışıq imkanı və ölkədaxili 5000 SMS (qısa nömrələr və rominq xidmətinə şamil edilmir) göndərmək imkanı təqdim ediləcək. Müvafiq paketlər çərçivəsində təqdim edilən imkanlar faktura dövrü ərzində tətbiq edilir. Həmin istifadə dövrü ərzində istifadə edilməyən həcm qalığı ləğv (sıfırlanmaqla) edilir və istifadə edilməmiş qalıq növbəti dövrə keçirilmir. İstifadə dövrü ərzində, paket çərçivəsində təqdim edilən imkandan tam istifadə edildikdə abunəçi tərəfindən istifadə edilən əlavə telekommunikasiya xidmətlərinə görə nömrələrdə mövcud olan tarif paketinin şərtlərinə əsasən istifadə edilən xidmətlərə görə haqq hesablanır.

**Qeyd:** *Abunəçilər göstərilən dəyişikliklər, paketlərin şərtləri, sifarişi, başqası ilə əvəz etmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətləri mərkəzlərinə (Müştəri Xidmətləri ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etmək imkanına malikdirlər.*



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi Xarici dillər kafedrasının baş müəllimi Aysel Xəlilovaya bacısı

**ŞƏLALƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

9 saylı Binəqədi ikinci seçki dairəsi Dairə Seçki Komissiyasının sədri Həsən Bayramov Binəqədi Rayon Məhkəməsinin sədri Araz Kazımova atası

**NURƏDDİN KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nadir Xasiyev, Nizami Məcidov, Camaləddin Axundov, Rabil Əliyev, Qafar Hüseynov, Cəbrayıl Mərzai, Telman Həsənov və Ləbib Ləbibov Arzu Hüseynova əzizi

**RAYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3895
Qiyməti 40 qəpik